EVDƏ QAL,
SAĞLAM QAL!

**Prezident İlham Əliyev "Böyükşor" yarımstansiyasının açılışında iştirak edib**



Bax 4

**Türkiyə KİV-ləri Ermənistanın Azərbaycana qarşı təxribatını diqqətdə saxlayır**



CANLI YAYIN | VİDEO | GÜNDEM | EKONOMİ | DÜNYA | SPOR | ÖZEL HABER

Haberler ▸ Galeri ▸ Ermenistan ordusundan alçak saldırı! Hedeflerinde siviller var

Ermenistan ordusundan alçak saldırı! Hedeflerinde siviller var

Ermenistan ordusu, Azerbaycan sınırında ağır silahlarla sivil halka saldırı düzenledi. Saldırılarda 1 sivil hayatını kaybederken, çok sayıda ev kullanılamaz hale döndü. İşte o görüntüler...

Giriş Tarihi: 15.07.2020 15:03
Güncelleme Tarihi: 15.07.2020 15:04

BU ALBÜMÜ PAYLAŞ · ABONE OL · Google News

Bax 5




# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 120 (6084) 17 iyul 2020-ci il. Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.


# İlham Əliyev: "Bizim diplomatiyamız hücum diplomatiyası olmalıdır"



Bax 2

## Prezident İlham Əliyev Ceyhun Bayramovu Xarici İşlər naziri təyin olunması ilə əlaqədar videoformatda qəbul edib

## Ölkəmizdəki sarsılmaz xalq-iqtidar birliyi torpaqlarımızın tezliklə işğaldan azad olunacağına əminlik yaradır



Bütövlükdə, bu təxribat cəhdinin qarşısının qətiyyətlə alınması onu göstərir ki, Azərbaycan dövləti işğalçı ölkənin təxribatlarına dözmək niyyətində deyil, düşmənə layiqli cavab vermək əzmində və gücündədir. Bu, eyni zamanda, Azərbaycan Ordusunun gücünü, hərbçilərimizin rəşadət və cəsarətini düşmənə bir daha əyani surətdə nümayiş etdirdi...

Bax 6

### Müdafiə Nazirliyi açıqladı: Düşmən böyük itki verdi!

Bax 5



İyulun 16-da səhər saat 05.45-dən başlayaraq Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində aktiv döyüş əməliyyatları keçirilir. Müdafiə Nazirliyinə istinadən SİA xəbər verir ki, hazırki vaxtadək davam edən döyüşlərdə düşmənin 20-yə yaxın canlı qüvvəsi...

### İFŞA: AXCP-çilər bir-birlərinin kartlarını açırlar!



*"Milli Şura"nın ardınca, artıq AXCP-də də qeybət, ittiham və qarşıdurma faktları üzə çıxmağa başlayıb. Belə ki, Azərbaycan xalqının cəbhədə erməni təxribatının qarşısının alınması üçün vahid və ümummilli maraqlardan...*

Bax12

### Ermənistanda itkilərə görə etirazlar başlandı!

Bax 5



Sərhəddə baş verən döyüşlərdə itkilərini gizlədən Ermənistanda narazılıq yaşanır. SİA-nın məlumatına görə, Marine Manuçaryan adlı bloger "aprel müharibəsi"ndə Azərbaycanın əraziləri azad etməsini xatırladaraq, Paşinyana yaxın qrupları tənqid edib.

### Azərbaycanda daha 493 nəfər koronavirusa yoluxdu, 8 nəfər öldü

Bax 6




Azərbaycan Respublikasında koronavirus (CVID-19) infeksiyasına 493 yeni yoluxma faktı qeydə alınıb, 561 nəfər müalicə olunaraq ...

### Müdafiə Nazirliyindən xəbərdarlıq: "Ermənilərdən sizə mesaj gələ bilər"

Bax 5



Müdafiə Nazirliyi xəbərdarlıq yayıb. SİA-nın məlumatına görə, xəbərdarlıqda deyilir: "Ermənilər Azərbaycan və Türk dilini öyrənib, Azərbaycan nömrəsi ilə vətəndaşlarımıza yazır ki, "Azərbaycanda nə baş verir?"...

**Polkovnik Vaqif Dərgahlı: Ermənistanda keçmiş çağırışçıların və əlillərin səfərbərliyə alınmasına başlanıb**



Bax 6

**"Bizə savaş açanlara sözümüzü axıracan deyəcəyik"**



Bax 7

**Ronaldo ən pis oyunçu seçildi**



Bax 16

# İlham Əliyev: “Bizim diplomatiyamız hücum diplomatiyası olmalıdır”

*Prezident İlham Əliyev Ceyhun Bayramovu Xarici İşlər naziri təyin olunması ilə əlaqədar videoformatda qəbul edib*

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 16-da Ceyhun Bayramovu Xarici İşlər naziri təyin olunması ilə əlaqədar videoformatda qəbul edib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı qəbulda çıxış etdi.**



## Prezident İlham Əliyevin çıxışı

Bu gün mən sizi Xarici İşlər naziri vəzifəsinə təyin edirəm. Əminəm ki, siz bu yüksək etimadı doğruldacaqsınız. Bu sahə sizin üçün yeni olsa da, idarəetmə təcrübəniz kifayət qədər böyükdür, müxtəlif vəzifələrdə işləmisiniz, o cümlədən nazir vəzifəsində.

Bununla bərabər, Azərbaycanın xarici siyasəti ilə bağlı mənim tərəfimdən dəfələrlə əsas istiqamətlər müəyyən edilmişdir və bu haqda açıqlamalar verilmişdir. Bizim xarici siyasətimiz açıqdır. Biz xarici siyasət prioritetlərimizi açıq şəkildə bəyan edirik və məqsədlərə çatmaq üçün ardıcıl siyasət aparırıq. Bütün ölkələrlə bərabərhüquqlu qarşılıqlı hörmət və etimad əsasında münasibətlərin qurulması bizim əsas prinsiplərimizdən biridir. Hesab edirəm ki, son illərdə Azərbaycan bu sahədə böyük uğurlar əldə edib. Azərbaycan dünya birliyinin ləyaqətli üzvüdür. Dünyada bizə olan hörmət artmaqdadır. Bunu müxtəlif vaxtlarda Azərbaycana beynəlxalq aləm tərəfindən göstərilən dəstək əyani şəkildə sübut edir. Bizim dünyadakı rolumuz artır, bölgədə ölkəmizin iştirakı olmadan, maraqları təmin edilmədən hər hansı bir layihənin icrası qeyri-mümkündür. Bizim siyasətimiz Azərbaycana illər boyu daha çox dostlar qazandırıbdır. Təsadüfi deyil ki, bu gün bizim beynəlxalq mövqelərimiz kifayət qədər güclüdür.

Əlbəttə ki, xarici siyasətlə bağlı əsas istiqamətləri mən bu gün bir daha qeyd edəcəyəm. Amma ondan əvvəl demək istəyirəm ki, ilk növbədə, nazirlik sistemində vəziyyət sağlamlaşdırılmalıdır. İlk növbədə, təhlil aparılmalıdır, nöqsanların aradan qaldırılması üçün əməli tədbirlər görülməlidir. Kadr siyasətində şəxsi tanışlıq, rəğbət, dostluq əlaqələri yox, peşəkarlıq, vətənpərvərlik və milli dəyərlər əsas olmalıdır. Peşəkar, Vətənə bağlı olan, bilikli və Azərbaycanın maraqlarını layiqincə müdafiə edə bilən kadrlar önə çəkilməlidir. Nazirlikdə müxtəlif idarələr, o cümlədən rəhbər işçilər arasındakı koordinasiya işləri lazımi səviyyədə təmin edilməlidir. Nazirliyin fəaliyyəti üçün əlavə tədbirlərin görülməsi haqqında sizdən təkliflər gözləyəcəyəm.

Bizim xarici nümayəndəliklərdə görülən işlər ciddi təhlil olunmalıdır, səfirliklərin işinin səmərəlilik əmsalı müəyyən edilməlidir. Bəzi hallarda bizim səfirliklərimizdə çalışan insanlar öz işinə laqeyd yanaşırlar, passiv olurlar, ölkəmizin maraqlarını lazımi səviyyədə müdafiə və təmin edə bilmirlər. Ölkəmiz haqqında reallıqları geniş ictimaiyyətə çatdıra bilmirlər, ya da ki, bunu etmək istəmirlər. Vaxtaşırı Azərbaycana qarşı ünvanlanan şər-böhtan xarakterli iradlara lazımi cavab verə bilmirlər, ya da ki, bunu etmək istəmirlər. Ona görə bütün bu məsələlər əlbəttə ki, sizin gündəlik fəaliyyətinizdə önəmli yer tutmalıdır. Bizim xarici nümayəndələrimiz, diplomatlarımız ölkəmizin maraqlarını tam təmin etməlidirlər. Mən deyə bilərəm ki, bizim xaricdə fəaliyyət göstərən diplomatlarımızın əksəriyyəti yüksək meyarlara cavab verir. Ancaq vəziyyət təhlil edilərkən, ilk növbədə, nöqsanlara fikir vermək lazımdır. Səfirliklərimiz xaricdə yaşayan, fəaliyyət göstərən Azərbaycan icmaları ilə sıx əlaqədə olmalıdırlar. Onlar diaspor təşkilatlarının koordinasiya işinə öz töhfəsini verməlidir ki, həm diaspor təşkilatları, həm səfirliklər Azərbaycanın maraqlarını təmin etsinlər və Azərbaycan reallıqlarını çatdırsınlar.

Xarici kütləvi informasiya vasitələri ilə sıx təmaslar olmalıdır. Azərbaycan haqqında bəzi hallarda gedən yanlış məlumata dərhal adekvat reaksiya verilməlidir, formal yox. Çünki bir çox hallarda biz bunu görmürük. Ölkəmiz haqqında qəsdən uydurulan, heç bir əsası olmayan şayiələr əgər mən müdaxilə etməsəm təkzib olunmur. Ya bu işlə məşğul olmaq istəmirlər, ya başqa göstərişlər alırlar. Bu gün sirr deyil ki, Azərbaycana qarşı təşkil edilmiş və koordinasiya olunmuş çirkin kampaniya aparılır. Azərbaycan vətəndaşları yaxşı bilirlər ki, bu kampaniyanın mənbəyi və səbəbi nədir. Bir çox səbəblər var, onların arasında bizim milli maraqlara söykənən müstəqil siyasətimizdir və özümüzü ləyaqətli aparmağımızdır. Bəs bu kampaniyaya adekvat cavab verilir, yoxsa yox? Verilmir. Xaricdə bəzi anti-Azərbaycan ünsürlər öz fəaliyyətində, öz çirkin əməllərində, bəyanatlarında yaşadıqları ölkələrin qanunlarını kobudcasına pozurlar, terrora çağırışlar edirlər, konstitusiya quruluşunun dəyişdirilməsinə çalışırlar. Bütün bunlar nəinki Azərbaycanın, bir çox ölkələrin qanunvericiliyində, o cümlədən cinayət məcəlləsində təsbit edilmiş məsələlərdir və ona görə bu cinayəti törətmiş insanlar cinayət məsuliyyətinə cəlb edilməlidir.

Amma bizim xaricdə fəaliyyət göstərən diplomatik nümayəndəliklər bu məsələyə diqqət yetirirlər? Deyə bilərəm ki, yox. Baş qoşmaq, heç kimlə pis olmaq istəmirlər. Bəzi hallarda fəaliyyət göstərdikləri ölkələrdə Azərbaycanın maraqlarını yox, özlərini həmin ölkələrin yüksək vəzifəli nümayəndələrinə yaxşı tərəfdən göstərmək üçün o ölkələrin maraqlarını müdafiə edirlər.

Mən bir daha demək istəyirəm ki, biz bütün ölkələrlə normal dostluq və tərəfdaşlıq münasibətlərinin formalaşmasında əməli addımlar atırıq. Amma bu, o demək deyil ki, öz ölkənin, öz xalqının maraqları kənarda qalsın. Bizim xaricdəki bəzi diplomatlarımız fəaliyyət göstərdikləri ölkələrin elçilərinə çevrilirlər. Buna son qoyulmalıdır. Bu da yanlış kadr siyasətinin təzahürüdür. Bəzi diplomatlar dövlətə xəyanət ediblər, satqınlıq ediblər və bunu gizlətmirlər. Yaşadıqları ölkələrin xüsusi xidmət orqanlarının nəzarətindədirlər. Bizdə kifayət qədər məlumatlar var. Bu gün Azərbaycana qarşı çirkin kampaniya aparan, özünü azərbaycanlı kimi təqdim edən, əslində, ermənilərdən də pis olan ünsürlərin mütləq əksəriyyəti yaşadıqları ölkələrin xüsusi xidmət orqanlarının nəzarətindədir. Onlardan pul və təlimatlar alırlar. Bizdə bu məsələ ilə bağlı kifayət qədər məlumatlar var. Bizim xüsusi xidmət orqanlarımız tərəfdaş ölkələrin xüsusi xidmət orqanlarına dəfələrlə bu haqda məlumatlar vermişlər. Demişlər ki, biz bilirik, filan adamı siz istiqamətləndirirsiz, filan adama siz ev vermisiniz, filan adamın çirkin çıxışları sizin idarənizdə yazılır. Biz bütün bunları bilirik. Bir daha demək istəyirəm ki, bu, o ölkələrin riyakarlığını göstərir. Çünki mən bu haqda dəfələrlə demişəm. Bir tərəfdən bizə dostluq siqnalları göndərilir, üzdə tərəfdaşlıq haqqında sözlər deyilir, amma, əslində, bizə qarşı kampaniya aparılır. Bunun da məqsədi Azərbaycanı zəifl ətmək, Azərbaycanı sarsıtmaq, Azərbaycanı ləkələmək, Azərbaycan rəhbərləri haqqında olmayan yalanları yaymaqdır. Ancaq həyat artıq göstərir ki, bunun heç bir əhəmiyyəti yoxdur. Çünki Azərbaycan xalqı hər şeyi yaxşı bilir. Bilir ki, bu gün bizim fəaliyyətimizdə Azərbaycan xalqının maraqları hər şeydən üstündür. Çox güman ki, məhz buna görə bizə qarşı bəzi hallarda belə çirkin üsullardan istifadə edilir. Bilirsiniz, müxtəlif vaxtlarda bu üsulların məzmunu və formaları dəyişirdi. Vaxtilə dırnaqarası “müstəqil” qeyri-hökumət təşkilatları vasitəsilə bizə hücumlar edilirdi. Halbuki hər kəs yaxşı bilir ki, bu qeyri-hökumət təşkilatları hansı mənbələrdən maliyyələşir - böyük dövlətlərin xarici siyasət orqanları tərəfindən maliyyələşir. Bir müddət xarici ölkələrin kütləvi informasiya vasitələri bizə qarşı çirkin kampaniya aparırdı - həm elektron, həm yazılı kütləvi informasiya vasitələri. Biz bu kütləvi informasiya vasitələrinin hansı mənbələrdən maliyyələşdiyini də bilirik. Bunun heç bir faydası olmadı, əksinə, Azərbaycan ictimaiyyəti çox yaxşı dərk edirdi, başa düşürdü ki, bunun məqsədi nədir - Azərbaycanı zəiflətmək, Azərbaycanda xaos yaratmaq, Azərbaycanı 1990-cı illərin əvvəllərinə qaytarmaq və ondan sonra bu imkanlardan istifadə edib öz maraqlarını təmin etmək. Bu keçməyəndə isə növbəti çirkin üsullara əl atıldı. Özlərini azərbaycanlı kimi təqdim etməyə çalışan, ancaq mənəvi cəhətdən eybəcərliyin rəmzinə çevrilmiş antimilli ünsürlər indi xarici xüsusi xidmət orqanlarının rəhbərliyi altında Azərbaycana qarşı çirkin kampaniya aparırlar. Bu, düşünülmüş siyasətdir və əslində, bu siyasətin məqsədi Azərbaycan xalqının əsrlərboyu qoruduğu milli dəyərləri sarsıtmaqdır, bizim mənəvi sütunlarımızı dağıtmaqdır. Çünki Azərbaycan xalqının mentaliteti bunu inkar edir. Heç vaxt bizim tariximizdə belə çirkin üsullardan, yalanlardan, böhtanlardan istifadə edilmirdi. Bu, bizə xaricdən idxal edilir. Ona görə bizim diplomatlarımız buna qarşı fəaliyyət göstərməlidirlər. Yoxsa ki, “dəymə mənə, dəyməyim sənə” prinsipi ilə işləmək olmaz. Əfsuslar olsun ki, bizim Xarici İşlər Nazirliyində son vaxtlar bu prinsip əsas rol oynayır.

**Ardı Səh. 3**

# İlham Əliyev: “Bizim diplomatiyamız hücum diplomatiyası olmalıdır”

*Prezident İlham Əliyev Ceyhun Bayramovu Xarici İşlər naziri təyin olunması ilə əlaqədar videoformatda qəbul edib*

Əvvəli-Səh-2

Mən demişəm ki, bizim diplomatiyamız hücum diplomatiyası olmalıdır, milli maraqlar tam təmin edilməlidir. Ancaq bir çox hallarda bunun əksini görürük. Görürük ki, razılaşma prinsipi əsas tutulur, milli maraqları kənara qoyub kiminsə xoşuna gəlmək üçün səylər göstərilir. Bu haqda bir çox məlumatlarım var. Ona görə siz bu məsələləri nəzərdə saxlayın. Bizə elə diplomatik kadrlar lazımdır ki, peşəkar, milli ruhda, milli dəyərlərə bağlı olsunlar, ölkəmizi müdafiə edə bilsinlər.

O ki qaldı, bizim xarici siyasətlə əlaqədar əsas prioritetlərimizə, qeyd etməliyəm ki, mən bu prioritetlər haqqında ictimaiyyətə kifayət qədər geniş açıqlama vermişəm. Bu gün bir daha demək istəyirəm, siz yeni nazir kimi bunu bir daha məndən eşitməlisiniz və Azərbaycan ictimaiyyəti də bunu bir daha eşitməlidir. Qonşu ölkələrlə münasibətlərimiz bizim üçün prioritetdir. Bu münasibətlər çox sağlam zəmində qurulubdur. Artıq həyat və hadisələrin gedişatı onu göstərir ki, bu, çox düzgün siyasətdir. Qonşu ölkələr tərəfindən də Azərbaycana qarşı olan siyasət çox müsbətdir. Biz bu siyasəti dostluq, mehriban qonşuluq prinsipləri əsasında qurmuşuq. Beləliklə, heç bir qonşu dövlətlə, təbii ki, Ermənistan istisna olmaqla, bizim heç bir problemimiz yoxdur. Keçmişdən qalan problemlər həll olunub. Bəzi hallarda bəzi ölkələrin dairələri süni şəkildə bəzi problemlər ortaya atmaq istəyirlər. Ancaq bunun da heç bir səmərəsi yoxdur.

Qonşu dövlətlərlə bizim münasibətlərimiz strateji xarakter daşıyır. Biz bir bölgədə yaşayırıq, biz qonşuyuq və bu qonşuluq əbədi olacaqdır. Eyni zamanda, qonşu ölkələrdə yaşayan azərbaycanlılar, əlbəttə, bu münasibətlərdə xüsusi yer tutur və onların rahat yaşaması təbii ki, bizim üçün çox önəmlidir. Bu baxımdan da qonşu ölkələrlə münasibətlər xüsusi əhəmiyyət daşıyır. Həm siyasi, həm iqtisadi, enerji, nəqliyyat, mədəniyyət - bütün sahələrdə bu münasibətləri yüksək qiymətləndirmək olar. Mən deyə bilərəm ki, bizim qonşularımızla münasibətlərimiz nümunəvi xarakter daşıyır. Çünki dünyada gedən proseslər onu göstərir ki, bəzi hallarda qonşular arasında münasibətlər problemli olur.

Bildiyiniz kimi, biz qonşu ölkələrlə üçtərəfli əməkdaşlıq formatında da fəaliyyət göstəririk. Onu da bildirməliyəm ki, bu üçtərəfli formatların təşəbbüskarı da biz olmuşuq. Bu gün bütün qonşularla müxtəlif konfiqurasiyada üçtərəfli əməkdaşlıq formatı icra edilir və bu, həm regional təhlükəsizliyə müsbət təsir göstərir, həm də iqtisadi, enerji, nəqliyyat layihələrinin icrasına gözəl zəmin yaradır. Ona görə, Xarici İşlər Nazirliyinin fəaliyyətində qonşu ölkələrlə münasibətlər bundan sonra da prioritet kimi qalacaq.

Bizim İslam Əməkdaşlıq Təşkilatına üzv olan ölkələrlə də münasibətlərimiz çox yaxşıdır. Azərbaycan müsəlman aləminin bir parçasıdır və beynəlxalq təşkilatlarda biz tərəfdən ən çox dəstək alan ölkələr müsəlman ölkələridir və bizə də müsəlman ölkələrindən ən çox dəstək gəlir. Bu yaxınlarda Ermənistanın növbəti hərbi təxribatı ilə bağlı İslam Əməkdaşlıq Təşkilatı bəyanatla çıxış edib, Azərbaycanın haqlı mövqeyini müdafiə edib və biz bunu yüksək qiymətləndiririk. İslam Əməkdaşlıq Təşkilatının xətti ilə Azərbaycanda bir çox tədbirlər keçirilmişdir. Mən bir çox Zirvə görüşlərində iştirak etmişəm, həmişə öz çıxışlarımda və öz fəaliyyətimdə İslam aləmində əməkdaşlığın, həmrəyliyin inkişafına fikir vermişəm, səylər göstərmişəm. Bəzi müsəlman ölkələri arasında mövcud olan ixtilafların yumşaldılması, ya da ki, aradan qaldırılması üçün Azərbaycan öz səylərini əsirgəmir və bəzi hallarda bu səylər yaxşı nəticələrə gətirib çıxarır. Çünki, ilk növbədə, müsəlman aləmində həmrəylik olmalıdır ki, biz ənənəvi dostlarımızla öz gələcəyimizi sağlam zəmində qura bilək.

Türkdilli dövlətlər bizim üçün qardaş ölkələrdir və bütün türkdilli dövlətlərlə çox gözəl münasibətlərimiz var. Bildiyiniz kimi, hazırda Azərbaycan Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına sədrlik edir. Onu da bildirməliyəm ki, türkdilli ölkələrin Zirvə görüşləri uzun illərdir keçirilir. Azərbaycan və digər postsovet ölkələri müstəqilliyə qovuşduqdan sonra dərhal belə Zirvə görüşləri keçirilir. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası təşkilat olaraq Naxçıvan şəhərində yaradılıbdır. Azərbaycanda, Naxçıvan şəhərində keçirilmiş Zirvə görüşlərinin birində belə bir təşkilat yarandı və hazırda təşkilat öz potensialını gücləndirir. Onu da bildirməliyəm ki, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası da bu yaxınlarda baş vermiş sərhəd münaqişəsi ilə bağlı Azərbaycanı dəstəkləyən açıqlama yaymışdır.

Bizim Avropa İttifaqı ilə əlaqələrimiz də çox möhkəm zəmində qurulub. Avropa İttifaqına üzv doqquz dövlətlə Azərbaycanın strateji tərəfdaşlıq haqqında sənədləri vardır. Bu, Avropa İttifaqının üçdəbir hissəsidir. Hazırda Avropa İttifaqı ilə Azərbaycan arasında yeni saziş üzərində iş aparılır. Sazişin böyük hissəsi razılaşdırılıb. Siz dərhal bu məsələ ilə məşğul olun və bu gün hələ ki, razılaşdırılmamış məsələlərə fikir verin. Hesab edirəm ki, Azərbaycan maksimum dərəcədə konstruktivlik göstəribdir və bu gün hələ də razılaşdırılmamış məsələlər var. Bizim üçün indiki formada onları qəbul etmək deyə bilərəm ki, çox çətin və əhəmiyyətsiz olacaqdır. Çünki mən demişəm, biz ona görə yeni saziş imzalamalıyıq ki, öz maraqlarımızı daha böyük dərəcədə müdafiə edək, təmin edək və qarşı tərəf də həmçinin. Onlar ona görə Azərbaycanla bu sazişi imzalamaq istəyirlər ki, öz maraqlarını müdafiə və təmin etsinlər. Bu da təbiidir. Ancaq gərək bu maraqların uzlaşması olsun. Yəni, biz heç vaxt bizi qane etməyən, yaxud da ki, bizə hansısa problem yarada biləcək sazişə imza atmarıq. Bu, əhəmiyyətsizdir, mənasızdır. Biz Azərbaycan xalqına məlumat verməliyik ki, bunu nə üçün edirik. Biz edirik ki, daha yaxşı şərait olsun, əməkdaşlıq üçün daha yaxşı imkanlar yaransın, xalqımız üçün daha geniş imkanlar açılsın. Yoxsa elə saziş imzalansın deyə sazişə qol çəkmək düzgün olmaz. Bizim mövqeyimiz tam açıqdır. Mən bunu bu gün bütün ictimaiyyətə bildirirəm.

Hesab edirəm ki, kompromis üçün yer var. Ancaq gərək xoş niyyət və qarşılıqlı iradə olsun. Azərbaycan tərəfində bu iradə var. Ümid edirəm ki, bu danışıqlar uğurla davam edəcək. Onu da nəzərə almalıyıq ki, hazırda Avropa Komissiyasının yeni tərkibi formalaşıbdır və biz, əlbəttə, Avropa İttifaqının Azərbaycana münasibətinin statusunu özümüz üçün daha dəqiq müəyyən etməliyik. Biz bəri başdan o mövqedə idik ki, qarşımıza real olmayan hədəflər qoymayaq. Çünki sonra bu hədəflərə çatmayanda məyusluq, qarşılıqlı inamsızlıq yarana bilər. Ona görə qarşıya elə məqsədlər qoymalıyıq ki, biz ona çata bilək və bu məqsədlər bizim maraqlarımıza uyğun olsun. Hesab edirəm ki, bu istiqamətdə gələcək fəaliyyət də uğurlu olacaqdır.

Təbii ki, Amerika Birləşmiş Ştatları ilə bizim münasibətlərimiz çox böyük əhəmiyyət daşıyır və bu münasibətlərin böyük tarixi var. Həm siyasi, iqtisadi, enerji sahələrində, həm də təhlükəsizlik sahəsində çox yaxşı nəticələr var. Azərbaycanın Əfqanıstanda sülhməramlı missiyalarda göstərdiyi səylər Amerika tərəfindən yüksək qiymətləndirilir. Bildiyiniz kimi, Azərbaycan üzərindən çox önəmli nəqliyyat dəhlizi keçir və buna Şimal Nəqliyyat Dəhlizi deyilir. Əslində, bu, hava nəqliyyatıdır və yüklərin təhlükəsiz şəkildə nəql edilməsi bu gün hər bir ölkə üçün çox önəmlidir.

Bizim siyasi münasibətlərimizin inkişafına gəldikdə, hesab edirəm ki, bu gün bu münasibətlər çox yaxşı səviyyədədir. Prezident Trampın mənə göndərdiyi bir çox məktublarda Amerika Birləşmiş Ştatlarının Azərbaycana xoş münasibəti öz əksini tapıb. Son məktubunda qeyd etmişdi ki, bizim iki böyük dövlətimiz birlikdə bundan sonra da çalışacaqdır. Mənim də Prezident Trampa göndərdiyim məktublarda bizim münasibətlərimizin əhəmiyyəti qeyd olunur və əminəm ki, bundan sonra da bu əlaqələr uğurla inkişaf edəcək. Hesab edirəm ki, bu əlaqələrin gələcəyi çox müsbət olacaqdır.

Bizim strateji investorumuz Böyük Britaniyadır. Böyük Britaniya ilə də bizim çox sıx tərəfdaşlıq münasibətlərimiz var. Əvvəlki dövrdə biz bu münasibətləri, eyni zamanda, Avropa İttifaqı prizmasından təhlil edirdik, dəyərləndirirdik. Amma artıq Böyük Britaniya Avropa İttifaqının üzvü deyil və həm bizim, həm də onların qarşılıqlı marağı gündən-günə artır. Böyük Britaniyanın BP şirkəti bizim strateji tərəfdaşımızdır. Biz keçən il bu tərəfdaşlığın artıq 25 illiyini qeyd etmişdik və bundan sonra ən azı 25-30 il birlikdə çalışacağıq. Əlbəttə ki, bu, ikitərəfli münasibətlərə də müsbət təsir göstərdi. Ancaq hər iki tərəfin fikri ondan ibarətdir ki, biz qeyri-neft sektorunda daha böyük işlər görməliyik. Bir sözlə, bu əlaqələr də bizim üçün çox önəmlidir.

Bildiyiniz kimi, biz hazırda Qoşulmama Hərəkatının sədriyik və bu sədrliyi 120 ölkənin yekdil qərarı ilə qazanmışıq. Bu sədrliyi öz üzərimizə götürəndə mən demişdim ki, bu, formal sədrlik olmayacaqdır. Biz beynəlxalq təşkilatlarda Qoşulmama Hərəkatına üzv ölkələrin maraqlarını, eyni zamanda, beynəlxalq hüququ, ədaləti dəstəkləyəcəyik və bunu əməli işlərdə göstərdik. Pandemiya dövründə bizim təşəbbüsümüzlə Qoşulmama Hərəkatının, eyni zamanda, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Zirvə görüşləri keçirildi. Biz Qoşulmama Hərəkatına üzv ölkələrə həm birbaşa, həm də Ümumdünya Səhiyyə Təşkilatının xətti ilə humanitar yardım göstərdik. Qoşulmama Hərəkatı adından BMT Baş Assambleyasının xüsusi sessiyasının keçirilməsinin təşəbbüskarı biz olmuşuq və bu təşəbbüsə bildiyiniz kimi, 130-dan çox ölkə qoşulduı. Hesab edirəm ki, bu, bizim növbəti siyasi uğurumuzdur.

Əlbəttə, fəaliyyətinizin əsas hissəsi Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllinə istiqamətləndiriləcək. Bu, bizim üçün əsas məsələdir, bu, milli məsələdir. Son illər görülmüş tədbirlər nəticəsində bütün beynəlxalq təşkilatlar bu məsələ ilə bağlı öz mövqeyini ortaya qoyublar. Əgər münaqişə getdiyi dövrdə BMT Təhlükəsizlik Şurası dörd qətnamə qəbul edibsə, ondan sonrakı dövrdə bütün digər təşkilatlar da oxşar qərar və qətnamələr qəbul ediblər. ATƏT, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Parlamenti, Avropa Şurası Parlament Assambleyası, Qoşulmama Hərəkatı, NATO və digər təşkilatlar. İki il bundan əvvəl Avropa İttifaqı ilə Azərbaycan arasında paraflanmış “Tərəfdaşlıq Prioritetləri” sənədində də ölkəmizin ərazi bütövlüyü, suverenliyi və sərhədlərin toxunulmazlığı ilə bağlı xüsusi bənd var. Yəni, hüquqi baza tam təmin edilib.

O ki qaldı, münaqişənin həllinə, bizim mövqeyimizdə, qeyd etdiyim kimi, heç bir dəyişiklik ola bilməz. Dağlıq Qarabağ bizim tarixi torpağımızdır və ölkəmizin ərazi bütövlüyü bərpa edilməlidir. Bu, birmənalıdır və heç bir ölkə qondarma “Dağlıq Qarabağ respublikası”nı tanımayıb. Orada bu yaxınlarda keçirilmiş qondarma “seçkilər” bunu bir daha təsdiqlədi. Çünki bütün aparıcı dövlətlər, qonşu dövlətlər, aparıcı beynəlxalq təşkilatlar bu “seçkilərin” tanınmaması ilə əlaqədar bəyanatlar verdilər.

O ki qaldı, danışıqlara, mən bir daha demək istəyirəm ki, biz imitasiya naminə danışıqlar aparmaq, mənasız videokonfranslar keçirmək fikrində deyilik. Bunun mənası olmalıdır. Mən demişəm ki, Minsk qrupunun işi çox fəal olmalıdır və onların mandatı çərçivəsində təkcə təmas xəttində, yaxud da ki, dövlət sərhədində atəşkəsin təmin edilməsi məsələsi yox, mahiyyət üzrə danışıqlar aparılmalıdır və bunun üçün artıq uzun illər ərzində formalaşmış baza var. Ancaq Ermənistan öz destruktiv addımları, qeyri-konstruktiv bəyanatları, sərhəddə və təmas xəttində törətdikləri hərbi cinayətləri ilə bütün bu danışıqlar konstruksiyasını məhv edir. Ermənistan danışıqlar formatını dəyişmək, danışıqların mahiyyətini pozmaq istəyir. Yəni, faktiki olaraq bu gün Ermənistan danışıqlar prosesini dağıdır və bunu hər kəs görür. Sadəcə olaraq, Ermənistan rəhbərliyinin açıqlamalarına fikir vermək kifayətdir. Onların hərbi rəhbərliyi bizi hədələməyə çalışır. Bizi yeni torpaqların işğalı ilə hədələmək istəyir. Ancaq bunlara bu günlərdə verilən dərs hesab edirəm ki, uzun müddət onların yaddaşından silinməyəcək. Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək. Azərbaycan xalqının səbrinin həddi var. Ona görə danışıqlar mahiyyət üzrə aparılmalıdır. Əgər biz görsək ki, bu danışıqlar əhəmiyyətsizdir, onda buna uyğun şəkildə öz addımlarımızı da atacağıq və bəyanatlarımızı da verəcəyik.

Demək olar ki, mən bizim xarici siyasətlə bağlı əsas məsələləri qeyd etdim. Əlbəttə, bu görüş əsnasında bütün başqa məsələləri əhatə etmək vaxt baxımından mümkün deyil. Ancaq əminəm, idarəetmədə əldə etdiyiniz təcrübə sizə imkan verəcək ki, qısa müddət ərzində işin içinə girəsiniz. Dediyim kimi, Azərbaycanın xarici siyasəti ölkəmizin maraqlarını tam təmin etmək üçün öz sözünü deyəcək. Sizə fəaliyyətinizdə uğurlar arzulayıram.

Nazir Ceyhun Bayramov dedi:

-Möhtərəm cənab Prezident, ilk növbədə, bu yüksək etimada görə mən Sizə dərin minnətdarlığımı bildirmək istərdim. Cənab Prezident, mən Sizi əmin etmək istərdim ki, bu gün burada səsləndirdiyiniz bütün fikirlər, Xarici İşlər Nazirliyinin fəaliyyətinə dair qeyd etdiyiniz bir sıra nöqsanlar və ölkəmizin strateji maraqlarının təmin edilməsi yönündə əsas istiqamətlər və vəzifələrə bağlı olaraq sistemli və davamlı fəaliyyətin təmin edilməsi, həmçinin qarşıya qoyulan vəzifələrin öhdəsindən gəlmək üçün əlimdən gələn bütün səyləri əsirgəməyəcəyəm. Siz qeyd etdiyiniz kimi, bu sahə mənim üçün yeni olsa da, qısa müddət ərzində bütün bacarığımı və biliklərimi bu işə yönəldərək, vəziyyəti daha dərindən təhlil edəcək, bir sıra təklifləri diqqətinizə təqdim edəcəyik. Həm Xarici İşlər Nazirliyinin mərkəzi aparatının, eyni zamanda, bütün diplomatik nümayəndəliklərimizin və səfirliklərimizin birgə işi təmin ediləcək. Qeyd etdiyiniz kimi, əsas məqsəd ölkəmizin strateji maraqlarının təmin edilməsi, onların qorunmasıdır. Fəaliyyətimizi son illər ərzində ölkəmizin Sizin rəhbərliyinizlə artan beynəlxalq imicinin və nüfuzunun daha da möhkəmləndirilməsi, beynəlxalq aləmdə Azərbaycanın sözünün daha da gur eşidilməsi istiqamətində quracağıq.

Cənab Prezident, fürsətdən istifadə edərək Sizə təşəkkürümü bildirmək istərdim ki, məni Təhsil naziri təyin etdiyiniz müddət ərzində bu sahəyə olan diqqət və qayğınızı bütün təhsil işçiləri hər zaman hiss etmişlər. Bu müddət ərzində Sizin imzaladığınız çoxsaylı sərəncamlar və dövlət proqramları nəticəsində yüzlərlə yeni məktəb binaları tikilmiş, təhsil infrastrukturu müasirləşdirilmiş, təhsil işçilərinin əməkhaqları yüksəldilmiş, onların sosial vəziyyəti davamlı şəkildə yaxşılaşdırılmış, tələbə yerlərinin sayı artırılmışdır. Fürsətdən istifadə edərək, bütün təhsil ictimaiyyəti adından buna görə Sizə dərin minnətdarlığımı bildirmək istərdim. Bir daha qeyd etmək istərdim ki, mənə göstərdiyiniz yüksək etimadı doğrultmaq üçün əlimdən gələni edəcəyəm. Bütün səylərimi qarşıya qoyulan vəzifələrin icrasına, Sizin qeyd etdiyiniz məsələlərin sistemli şəkildə həllinə yönəldəcəyəm.

Prezident İlham Əliyev: Sağ olun, təbrik edirəm və sizə uğurlar arzulayıram.

# Prezident İlham Əliyev “Böyükşor” yarımstansiyasının açılışında iştirak edib

***İyulun 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakının Sabunçu rayonunda “Azərenerji” Açıq Səhmdar Cəmiyyətinin (ASC) yeni tikilən “Böyükşor” yarımstansiyasının açılışında iştirak ediblər. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı və birinci xanım yarımstansiya ilə tanış oldular.***



“Azərenerji” ASC-nin sədri Baba Rzayev yarımstansiyanın texniki göstəriciləri barədə Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya məlumat verdi. Bildirildi ki, yeni tikilən “Böyükşor” yarımstansiyasının gərginliyi 220/110/10 kV, gücü isə 750 MVA-dır. Yarımstansiyanın müasir idarəetmə sistemi ilə təchiz edilən mərkəzi idarətmə otağında iş prosesinə real zaman rejimində nəzarət olunması və göstəricilərin “Azərenerji” ASC-nin SCADA sisteminə ötürülməsi məqsədilə micro-SCADA sistemi quraşdırılıb.









Prezident İlham Əliyev yarımstansiyanı işə saldı.

Bu yarımstansiya paytaxtın Sabunçu, Binəqədi, Nərimanov və Nizami rayonlarında yerləşən bir sıra mövcud və tikilməsi planlaşdırılan iri infrastruktur obyektlərinin, sosial-sənaye müəssisələrinin və əhalinin dayanıqlı elektrik təchizatını təmin etmək baxımından mühüm əhəmiyyətə malikdir.

“Böyükşor” yarımstansiyası Abşeron enerji qovşağını qidalandıran 220 kilovoltluq xətlərin və yarımstansiyaların yüklənməsini aradan qaldıracaq, xətlərdəki itkiləri azaldacaq, enerji qovşağının sxem etibarlılığını və yükötürmə qabiliyyətini artıracaq. Bu yarımstansiya, eyni zamanda, mövcud 110 kilovoltluq yarımstansiyaların qidalanma sxemlərini təkmilləşdirəcək, tikilməsi nəzərdə tutulan yeni 110 kilovoltluq yarımstansiyaların enerji sisteminə qoşulması məsələlərini həll edəcək.

Yeni yarımstansiya qurularkən perspektiv sosial-iqtisadi inkişaf, əhalinin artan tempi də nəzərə alınıb. Yaxın vaxtlara qədər Bakının mərkəz hissəsinin şimal zonasının elektrik enerjisi ilə təchizatı “Xırdalan” yarımstansiyasından çıxan xətlər və 8 yarımstansiya vasitəsi ilə həyata keçirilirdi ki, bu da istehlakçıların keyfiyyətli elektrik enerjisi ilə təchizatında bəzi çətinliklər yaradırdı. “Böyükşor” yarımstansiyasının istifadəyə verilməsi ilə bu məsələ artıq həllini tapıb. Yarımstansiyada üç müasir transformator quraşdırılıb, mövcud 2-ci “Hövsan” və 3-cü “Ramana” hava xətlərinin yarımstansiyaya giriş-çıxışı təmin edilib. Hazırda “Binəqədi” yarımstansiyasının yüklənməsini azaltmaq və etibarlılığını yüksəltmək məqsədilə bu yarımstansiyaya kabel xətlərinin çəkilişi davam edir.

Qeyd edək ki, son iki ilə qədər Bakıda və Abşeron yarımadasında cəmi beş ədəd 220 kilovoltluq yarımstansiya fəaliyyət göstərirdi. Onların dördü istismar müddətini başa vurmuşdu. Ötən iki ildə isə “Böyükşor” yarımstansiyası və “Şimal” Elektrik Stansiyasının ərazisində qapalı tipli iki yarımstansiya tikilib. Beləliklə, Bakı şəhərindəki 220 kilovoltluq yarımstansiyaların sayı yeddiyə çatdırılıb. Eyni zamanda, istismar müddətini bitirən sistem əhəmiyyətli 220 kilovoltluq dörd yarımstansiyadan ikisində - “Müşfiq” və “Xırdalan” yarımstansiyalarında yenidənqurma işləri tamamlanıb, “Nizami” və “Hövsan” yarımstansiyalarında isə işlər yaxın vaxtlarda başa çatdırılacaq.

## Rəsmi xronika

Prezident İlham Əliyev E.T.Süleymanovaya Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi haqqında Sərəncam imzalayıb. Trend-in məlumatına görə, Sərəncama əsasən, “Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün təsis edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 11 iyun tarixli 715 nömrəli Fərmanına uyğun olaraq qərara alınıb ki, Azərbaycan Respublikasında insan hüquqlarının qorunması sahəsində uzunmüddətli səmərəli fəaliyyətinə görə Elmira Teymur qızı Süleymanovaya Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilir. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll edəcək.

* * *

Prezident İlham Əliyev E.M.Məmmədyarovun Azərbaycan Respublikasının Xarici işlər naziri vəzifəsindən azad edilməsi haqqında Sərəncam imzalayıb. Trend-in məlumatına görə, Sərəncamla Elmar Məhərrəm oğlu Məmmədyarov Azərbaycan Respublikasının Xarici işlər naziri vəzifəsindən azad edilir.

* * *

Prezident İlham Əliyev C.Ə.Bayramovun Azərbaycan Respublikasının Xarici işlər naziri təyin edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncamla Ceyhun Əziz oğlu Bayramov Azərbaycan Respublikasının Xarici işlər naziri təyin edilsin.

* * *

Prezident İlham Əliyevin digər Sərəncamı ilə Ceyhun Əziz oğlu Bayramov Azərbaycan Respublikasının Təhsil naziri vəzifəsindən azad edilib.

# Ölkəmizdəki sarsılmaz xalq-iqtidar birliyi torpaqlarımızın tezliklə işğaldan azad olunacağına əminlik yaradır



*YAP İcra katibinin müavini, Milli Məclisin Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov*

İyulun 12-də günorta saatlarından başlayaraq Ermənistan silahlı qüvvələrinin Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində atəşkəs rejimini kobud şəkildə pozmaqla təxribat törətməsi işğalçı ölkənin təcavüzkar mahiyyətini bir daha bütün dünyaya nümayiş etdirdi. Bu hadisələr bütövlükdə Ermənistan dövlətinin beynəlxalq hüquq normalarını növbəti dəfə kobud surətdə pozmasını, sivil dəyərlərə məhəl qoymamasını, pandemiya şəraitində də təxribatçı fəaliyyətini davam etdirməsini göstərdi. Beynəlxalq ictimaiyyət, o cümlədən Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsi ilə bağlı vasitəçilik missiyasını yerinə yetirən ATƏT-in Minsk qrupu bir daha gördü ki, Ermənistanın problemin sülh yolu ilə həllində maraqlı deyil və təcavüzkar niyyətindən əl çəkmir.

### Son günlər ərzində baş vermiş hərbi toqquşma Azərbaycan Ordusunun qüdrətini və qətiyyətini göstərdi

Digər tərəfdən, qürurverici haldır ki, Ermənistan tərəfinin bütün təxribatçı hərəkətləri və cəhdləri qüdrətli Azərbaycan Silahlı Qüvvələri tərəfindən iflasa uğradılır, dövlətimiz öz sərhədlərini qoruyur, eyni zamanda, operativ vəziyyətə nəzarət edilir. Azərbaycan Ordusu bundan əvvəl də dəfələrlə işğalçı Ermənistanın təxribat cəhdlərinin qarşısını qətiyyətlə alıb, döyüş meydanında öz gücünü göstərib. 2016-cı ildə Aprel döyüşlərində düşmənə dərs verərək Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsini azad edən müzəffər ordumuz iki il sonra uğurlu Naxçıvan əməliyyatı nəticəsində on min hektardan çox torpaq sahəsini nəzarətə götürdü, təcavüzkarları həmin bölgədən çıxardı. Azərbaycan Silahlı Qüvvələri tərəfindən götürülmüş strateji yüksəkliklər Ermənistanın bir neçə yaşayış məntəqəsinə, o cümlədən bu ölkədən Dağlıq Qarabağa gedən avtomobil yoluna nəzarət etməyə imkan verir. Məhz dövlət sərhədinin Tovuz rayonu istiqamətində təxribat törətməyə cəhd edən Ermənistan silahlı qüvvələrinə layiqli cavab verilməsi də bu baxımdan xüsusi qeyd edilməlidir. Prezident İlham Əliyev Nazirlər Kabinetinin 2020-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında deyib: "Bu əməliyyat - son günlər ərzində baş vermiş hərbi toqquşma bizim növbəti şanlı qələbəmizdir. Bunu Azərbaycan xalqı bilir. Mən bu günlərdə minlərlə vətəndaşdan məktub alıram və bu məktubların hamısı dəstək xarakterlidir. Beynəlxalq hərbi ekspertlər eyni fikirdədirlər və bunu o bölgədə real vəziyyət göstərir. Ermənistan qüvvələri bir santimetr belə Azərbaycan torpağına girə bilməmişlər və heç vaxt buna nail olmayacaqlar. Əksinə, əgər biz istəsəydik, bu gün Ermənistanın o ərazisində torpaqların böyük hissəsi nəzarətimizə keçə bilərdi. Ancaq bizim qarşımızda belə məqsəd dayanmır".

Bütövlükdə, bu təxribat cəhdinin qarşısının qətiyyətlə alınması onu göstərir ki, Azərbaycan dövləti işğalçı ölkənin təxribatlarına dözmək niyyətində deyil, düşmənə layiqli cavab vermək əzmində və gücündədir. Bu, eyni zamanda, Azərbaycan Ordusunun gücünü, hərbçilərimizin rəşadət və cəsarətini düşmənə bir daha əyani surətdə nümayiş etdirdi. Dövlət başçısının dediyi kimi, son günlər ərzində baş vermiş toqquşmalar və qanlı döyüşlər Azərbaycan dövlətinin, Ordusunun gücünü, xalqla iqtidar arasındakı birliyi bir daha göstərdi.

### Xalq-iqtidar birliyinin və milli həmrəyliyimizin növbəti bariz nümunəsi

Bunlarla yanaşı, Azərbaycan Ordusunun uğurlu əməliyyatı, əldə olunmuş nəticə, hərbi qələbə xalqımız tərəfindən böyük ruh yüksəkliyi ilə qarşılandı. Məhz iyulun 14-15-də Azərbaycan Ordusuna dəstək məqsədilə keçirilən aksiya xalqımızın öz dövlətinə, Prezidentinə və Silahlı Qüvvələrin Ali Baş Komandanına qətiyyətli dəstəyinin ifadəsi oldu. Milli maraqların qətiyyətli müdafiəçisi olan bu insanlar Şəhidlər xiyabanına getdikləri müddət ərzində səsləndirdikləri şüarlarla xalq-iqtidar birliyini, milli həmrəyliyi real surətdə nümayiş etdirdilər. Prezident İlham Əliyevin dediyi kimi: "Bu, bir daha onu göstərir ki, Azərbaycan xalqı ağır günlərdə bir nöqtəyə vura bilir. Bu, xalq-iqtidar birliyini göstərən daha bir mənzərə idi".

Bütün bunlar həm də Azərbaycan cəmiyyətinin yüksək vətənpərvərlik ruhuna malik olduğunu əyani surətdə nümayiş etdirdi. İftixar olunası haldır ki, aksiya iştirakçıları vətənə sevgi və sədaqət hisslərini böyük coşğu ilə ifadə etdilər.

### Azərbaycan Ordusuna dəstək aksiyası zamanı təxribat törədənlər Ermənistanın maraqlarını müdafiə edən antimilli ünsürlərdir

Lakin bu ümummilli aksiyadan məkrli məqsədlər naminə istifadə cəhdləri də müşahidə olundu ki, bu, tamamilə yolverilməzdir. Bu, özünü orduya dəstək prosesinə siyasi rəng qatmaq, aksiyanı nəzarətdən çıxararaq xaos yaratmaq cəhdlərində göstərdi. Əlbəttə, sərhəddə hərbi əməliyyatların davam etdiyi, işğalçıya adekavat cavab verildiyi zaman bir qrup şəxsin paytaxt Bakıda iğtişaş yaratmağa çalışması, hətta Azərbaycan Respublikasının Milli Məclisin binasına daxil olaraq qanunazidd əməllər törətməsi, asayiş keşikçilərinə qarşı zorakılıq və müqavimət göstərilməsi qəbulolunmazdır. Bu, həm dövlətimizin milli maraqlarına, həm ölkə Konstitusiyasına və qanunlara ziddir, həm də Vətənimiz, ərazi bütövlüyümüz uğrunda qəhrəmancasına həlak olmuş şəhidlərin ruhuna sayğısızlıqdır.

Şübhəsiz ki, 1990-cı illərin psixologiyasından qurtula bilməyən antimilli ünsürlərin dəstəklədiyi bu proseslərin hədəfi birmənalı olaraq Azərbaycanın inkişafına mane yaratmaq, ölkəmizdə sabitliyin pozulmasına və xaosun yaranmasına nail olmaqdır. Bütün bunlar isə Ermənistanın, ermənipərəst və anti-Azərbaycan dairələrin maraqlarına xidmət edir.

### Azərbaycan Xalq Cəbhəsi dövlətin deyil, düşmənin yanındadır

Radikal düşərgədə cəmləşmiş antimilli ünsürlər, o cümlədən Azərbaycan Xalq Cəbhəsinin nümayəndələrinin də kütlənin içinə daxil olaraq insanları qanunsuz əməllərə sövq etməyə çalışmaları aşkardır. Onlar 1992-1993-cü illərdə hakimiyyətdə olarkən yol verdikləri xəyanətkarlıq və satqınlığı indi də düşmən dəyirmanına su tökməklə davam etdirirlər. AXC-Müsavat cütlüyünün antimilli fəaliyyəti nəticəsində Azərbaycanın torpaqlarının, o cümlədən Kəlbəcərin, Şuşanın, Laçının işğal altına düşməsi danılmaz həqiqətdir. Bu radikal qruplaşma o zaman hakimiyyətə gəlmək üçün Azərbaycanın torpaqlarının işğalı faktına göz yummuş, dövlətin milli maraqlarını qurban vermişdilər. Bu gün isə həm adını "müxalifət" qoyaraq ölkə daxilində təxribatçı fəaliyyətlə məşğul olan radikal ünsürlər Ermənistanın təcavüzkar siyasətini dəstəkləməkdən çəkinmirlər. Onlar bilavasitə ermənipərəst dairələrin sifarişlərini yerinə yetirməklə dövlətin deyil, düşmənin yanında olduqlarını nümayiş etdirirlər. Dövlət başçısının qətiyyətlə ifadə etdiyi kimi: "Erməni açıq düşməndir. Oturub orada, bunlara görə torpaqlarımızı işğal edib. Bu Xalq Cəbhəsinin fərarilərinə görə bu gün o torpaqlardadır. Amma bu, oturub bizim içimizdə. Xaricdən pul alır, təlimat alır, mühiti zəhərləyir, bizim təmiz havamızı üfunət iyi ilə çirkləndirir və belə məqamlarda dövlətin yanında yox, düşmənin yanındadır".

Bir sözlə, "beşinci kolon" bir daha Azərbaycan xalqına və dövlətinə qarşı düşmənçilik mövqeyi nümayiş etdirməklə əsl simasını, kimlərə xidmət etdiyini ortaya qoydu. Azərbaycan Prezidentinin bildirdiyi kimi: "Bu gün bu düşmənçiliyin başında dayanan Azərbaycan Xalq Cəbhəsidir, onun çirkin, satqın rəhbərləridir, özünü lider sayan qorxaqlar, fərarilərdir. Onlar artıq Azərbaycan xalqı tərəfindən dəfələrlə öz yerini görüblər və görəcəklər".

### Azərbaycan dövlətinə qarşı qarayaxma kampaniyası və çirkin təbliğat aparmaq yolverilməzdir

Daha bir məqam ondan ibarətdir ki, həmin vaxt sosial şəbəkələr vasitəsilə həm döyüş bölgəsində, həm də paytaxt Bakıda arzuolunmaz proseslərin cərəyan etməsi haqqında yalan, heç bir əsası olmayan məlumatlar tirajlanırdı. Əfsuslar olsun ki, düşmən dəyirmanına su tökmək üçün dəridən-qabıqdan çıxan, ermənipərəst dairələrin sifarişlərini yerinə yetirən antimilli ünsürlər - erməni mənşəlilər və erməni çörəyi yeyən "sapı özümüzdən olan balta"lar bununla əhali arasında çaşqınlıq yaratmağa çalışırdı. Təbii ki, dövlət sərhədində erməni təxribatı nəticəsində döyüşlər getdiyi bir vaxtda bu cür addımların atılması təcavüzkar və işğalçı Ermənistanın maraqlarını müdafiə olunmasına xidmət etməklə yanaşı, xalqımıza, dövlətimizə qarşı düşmənçilik mövqeyinin bariz nümunəsidir. Ölkə daxilindəki və xaricdə yaşayan antimilli ünsürlərin, "beşinci kolon" nümayəndələrinin idarə etdikləri informasiya resurslarının Azərbaycana qarşı ermənilər üçün bir vasitəyə, platformaya çevrilməsi yolverilməzdir. Heç şübhəsiz, Azərbaycan Respublikasının hüquq-mühafizə orqanları istər orduya dəstək məqsədilə keçirilən aksiya çərçivəsində, istərsə də sosial şəbəkələrdə təxribatçı fəaliyyətlə məşğul olanları qərəzli şəkildə gəzdirən, milli maraqlara və müvafiq qanunlara zidd hallara yol vermiş şəxslər məsuliyyətə cəlb olunacaqlar.

Əlbəttə, antimilli ünsürlər və onları dəstəkləyən erməniperəst dairələr bu cür vasitələrlə Azərbaycanın inkişafına, öz milli maraqlarını qorumasına əngəl yarada bilməzlər. Çünki Azərbaycan xalqı öz Prezidentini dəstəkləyir, milli ordumuza güvənir. Ölkəmizdə mövcud olan xalq-iqtidar birliyi isə sabitliyi, inkişafı təmin edən mühüm amil olmaqla yanaşı, torpaqlarımızın tezliklə işğaldan azad olunacağına əminlik yaradır.

## Polkovnik Vaqif Dərgahlı: Ermənistanda keçmiş çağırışçıların və əlillərin səfərbərliyə alınmasına başlanıb



Son bir neçə gündə Azərbaycan-Ermənistan dövlət sərhədində gedən döyüşlərdə düşmən ordusunun böyük itkilər verməsi Ermənistan Müdafiə Nazirliyini silahla azacıq da olsa davrana bilən hər kəsi atəş altında qoymağa məcbur edib. Bunu Azərbaycan Müdafiə Nazirliyinin mətbuat xidmətinin rəisi, polkovnik Vaqif DərgahlıAZƏRTAC-a açıqlamasında deyib. V.Dərgahlı bildirib ki, əldə olunan məlumata görə, Ermənistan ordusunun rəhbərliyi keçmiş hərbi qulluqçuları, çağırışçıları, o cümlədən ikinci və üçüncü qrup əlilləri, habelə həbsxana məhbuslarını Tavuş bölgəsinə göndərmək üçün tələsik səfərbərliyə alıb. Bu, o deməkdir ki, sərhəddə düşmənin şəxsi heyəti sırasında böyük boşluqlar yaranıb ki, ermənilər həmin boşluqları canlı, lakin artıq "tullantı" materialla yamaq etməyə çalışır.

## Azərbaycanda daha 493 nəfər koronavirusa yoluxdu, 8 nəfər öldü




Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 493 yeni yoluxma faktı qeydə alınıb, 561 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb. Nazirlər Kabineti yanında Operativ Qərargahdan SİA-ya verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 8 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 26 165 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 17 256 nəfər müalicə olunaraq sağalıb, 334 nəfər vəfat edib, 8 575 nəfərin xüsusi rejimli xəstəxanalarda müalicəsi davam etdirilir. Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 8 722, ötən müddət ərzində isə ümumilikdə 601 500 test aparılıb.



# “Bizə savaş açanlara sözümüzü axıracan deyəcəyik”

*Jalə ƏLİYEVA*
*Millət vəkili, professor*

Azərbaycan dövləti və dövlətçiliyi yenə ağır sınaqlardan, imtahanlardan keçir...Yenə bütün cəbhələrdəki, bütün düşərgələrdəki, bütün səngərlərdəki düşmənlər ağız-ağıza veriblər, simbioz olublar, hər yandan-bütün müstəvilərdə ölkəmizə, dövlətimizə, xalqımıza qarşı hücuma keçiblər...Marıqda, pusquda dayananlar yenə hər yanda boy göstərməyə başlayıblar...Biz təkcə 32 ildir torpaqlarımıza göz dikən murdar və alçaq qonşularımızla, xəstə təfəkkürlü erməniləriə və məhz Azərbaycan torpaqları hesabına yaradımış (himayədarlarının, açıq-gizli dəstəkçilərinin, güc mərkəzlərinin sayəsində) qondarma Ermənistanla deyil, onları Qərbdən, Şərqdən, Şimaldan, Cənundan, bütün paralellərdən dəstəkləyənən dairələrlə, antiAzərbaycan, ermənipərəst qüvvələrlə vuruşuruq, savaşırıq...Həm hərb müstəvisində, həm diplomatiya müstəvisində, həm də digər müstəvilərdə...Hamısı ilə eyni anda bacarmaq nə qədər çətin olsa da, amma hər bir müstəvidə, hər bir cəbhədə əzmlə, qətiyyətlə cavablarını, dərslərini veririk...2016-cı ilin Aprelində olduğu kimi, 2018-ci ilin Cünnüt əməliyyatlarında olduğu kimi, “Valday”da, Aşqabadda, Türk Zirvəsinin, Qoşulmama Hərəkatının Bakı sammitlərində, “Şərq Tərəfaşlığı”nın son toplantısında, Münxen Təhlükəsizlik Konfransında olduğu kimi...Eləcə də, Azərbaycan-Ermənistan sərhəddinin Tovuz istiqamətində olduğu kimi...Ayın 12-dən bu yana son bir neçə gün ərzində Şəhidlərimizə, yaralılarımıza, maddi-mənəzi ziyanlarımıza rəğmən, işğalçı dövlətin, onu körükləyənlərin laqiqli və tutarlı cavablarını veririk, verməkdəyik...Şəhidlərimizin qanını, axıdılan qanları yerdə qoymuruq...Düşmən və onu üstümüzə saldıranlar, yenidən işğala həvəsləndirənlər, qəsbkarlığa körükləyənlər dalbadal sarsıdıcı zərbələr alırlar və alacaqlar...Kimsənin, heç bir qüvvənin, heç bir güc mərkəzinin məkrli və murdar planları baş tutmur və tutmayacaq...Nə edirlər-etsinlər, nə oyunlardan çıxırlar-çıxsınlar alınmır və alınmayacaq...Necə ki, alınmayıb bu günə kimi...Azərbaycan xalqı müsəlləh əsgər və bir nəfər kimi, ayaqdadır, öz dövlətinin, öz müzəffər Ordusunun, cəsarətli, qətiyyətli Liderinin-Ali Baş Komandanın yanındadır, onunla kürək-kürəyə, çiyin-çiyinədir...Elə düşməni də, düşmənləri də narahat edən, qıcıqlandıran budur...Onlar illərdir hər vəchlə bu sdrsılmazlığı, bu vəhdəti sarsıtmağa çalışsalar da, arzuları çin olmur, gözlərində qalır...Bundan sonra da belə olacaq... Ali Baş Komandanımızın, ölkə Prezidentinin dünən- Nazirlər Kabinetinin 2020-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında da dediyi kimi, “bu əməliyyat - son günlər ərzində baş vermiş hərbi toqquşma bizim növbəti şanlı qələbəmizdir. Bunu Azərbaycan xalqı bilir. Mən bu günlərdə minlərlə vətəndaşdan məktub alıram və bu məktubların hamısı dəstək xarakterlidir. Beynəlxalq hərbi ekspertlər eyni fikirdədirlər və bunu o bölgədə real vəziyyət göstərir. Ermənistan qüvvələri bir santimetr belə Azərbaycan torpağına girə bilməmişlər və heç vaxt buna nail olmayacaqlar”. Bəli, müzəffər, şanlı Azərbaycan Ordusu vəziyyətə tam nəzarət edir. Dövlətimiz, dövlətçiliyimiz, sərhədlərimiz etibarlı əllərdədir...Azərbaycan oğulları, Azərbaycab igidləri bir an olsun belə ayıq-sayıqlığı itirmir, əlləri daim tətikdədir, düşmənin və düşmənlərin hər an istənilən həmləsinə cavab verməyə hazırdırlar...Tovuz bölgəsində yaşananlar bir daha bunu təsdiq edir. Dövlət başçımızdan daha bir sitat; “Onu da bildirməliyəm ki, baxmayaraq, kəndlərimiz atəşə tutuldu, ağsaqqal həlak oldu, bizim kəndlərimizdə yaşayan insanlardan bir nəfər də yerindən tərpənmədi, bir nəfər də heç yerə getmədi. Amma bizdə olan operativ məlumata görə, Ermənistanda bəzi kəndlər, bəzi şəhərlər boşaldılır. İndi panika yaranıbdır. Bax, fərq budur. Azərbaycan vətəndaşı öz torpağında ləyaqətlə yaşayır. Azərbaycan dövləti və Azərbaycan Ordusu onu qoruyur və qoruyacaqdır”. Bəli, biz dövlətimizə də, Ordumuza da, Ali Baş Komandanımıza da tam güvənir, inanır və etibar edirik. Bu inam, bu etibar, bu güvəndir bizi ayaq üstə saxlayan, bizi yaşadan, bizi yenilməz edən, bizi zəfərlərdən-zəfərlərə aparan...Biz bu inam, bu güvən, bu etibar sayəsində də yenidən və daha amansız şəkildə bütün cəbhələrdə bizə savaş açanlara qarşı özü sözümüzü axıracan deyəcəyik, işğala son qoyacağıq, Qarabağmızda, digər işğal altında olan yurd yerlərimizdə Zəfər marşlarını səsləndirəcəyik. Hər kəs bunu duysun, etşitsin və qulağından sırğa etsin!!!

# Vüqar Rəhimzadə: “Ermənistan hakimiyyəti itkilərini gizlətməkdə acizdir”

***“Bu gün işğalçı Ermənistan heç bir sahədə Azərbaycanla rəqabət aparmaq iqtidarında deyil. Ölkəmizin dayanıqli inkişafı bütün sahələrdə, o cümlədən ordu quruculuğunda mühüm addımların atılmasını şərtləndirir. Dövlətimizin Silahlı Qüvvələrə göstərdiyi diqqət və qayğının nəticəsidir ki, bu gün Azərbaycan Ordusu dünyanın ən güclü 50 ordusu sırasında yer alıb. Azərbaycanın ənənəvi olaraq Beynəlxalq müdafiə sərgilərinə ev sahibliyi etməsi də dövlətimizin ordu quruculuğunda qazandığı uğurlara, eyni zamanda, dünyanın silah istehsalı sahəsində öndə gedən ölkələri və transmilli şirkətləri ilə əməkdaşlıq əlaqələrinin möhkəmlənməsinə verdiyi töhfələrə əsaslanır”.***

Bu fikirləri Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, “İki sahil” qəzetinin baş redaktoru, siyasi elmlər doktoru Vüqar Rəhimzadə SİA-ya açıqlamasında bildirib.

V.Rəhimzadə qeyd edib ki, Azərbaycan Ordusu Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində işğalçı ölkənin silahlı qüvvələrinin törətdikləri təxribat nəticəsində baş verən döyüşlərdə bir daha öz gücünü, qüdrətini nümayiş etdirdi: “Ermənilərin növbəti hərbi təxribatının qarşısı qətiyyətlə alındı. Çox təəssüf ki, Azərbaycan Ordusu bu döyüşlərdə şəhid verdi. Azərbaycan tərəfi hərbi əməliyyatların gedişi zamanı operativ surətdə itkilərlə bağlı dəqiq rəsmi məlumatlar açıqlasa da, erməni tərəfi xislətinə uyğun olaraq əvvəlcə israrla heç bir itki vermədiyini iddia edirdi. Artıq, necə deyərlər, “cidanı çuvalda gizlətmək” mümkün deyil. Azərbaycan tərəfinin düşmənin xaincəsinə hücumunun ilk anlarından Ermənistan ordusunun ciddi itkilər verməsi barədə reallığa əsaslanan rəsmi məlumatları işğalçı dövlət tərəfindən etiraf olunmaqdadır. Düşmən ölkənin sosial mediasında Tovuz istiqamətində hücumu zamanı Ermənistan silahlı qüvvələrinin 100-dən artıq əsgər və zabit itkisi ilə üzləşdiyi, xeyli sayda hərbi texnikasının məhv edildiyi barədə məlumatlar yayılıb və bu informasiyalar erməni cəmiyyətində böyük ajiotaj və təlaş yaradıb”.



“Göründüyü kimi, Azərbaycan Ordusunun yenilməz gücü və qüdrəti qarşısında erməni ordusunun zəifliyi daha qabarıq şəkildə özünü büruzə verir”, söyləyən V.Rəhimzadə qeyd edib ki, iqtisadi böhran içərisində çabalayan Ermənistanın son təxribatına Azərbaycan Ordusunun verdiyi adekvat cavabdan sonra işğalçı ölkənin siyasi və hərbi rəhbərliyinin hər hansı bir sahədə, o cümlədən ordu quruculuğunda inkişafdan danışması təəccüb doğurar: “Hazırda, yəni, qlobal problem olaraq həlli qlobal səviyyədə birlik, həmrəylik tələb edən COVID-19-un ağır nəticələrini yaşayan işğalçı Ermənistanın istər daxildəki problemlər, istərsə də Dağlıq Qarabağ münaqişəsinin həlli prosesinin uzanması məqsədilə törətdiyi son təxribat işğalçı dövlətin ordusunda da yaşanan duruma aydınlıq gətirdi. Bu baxımdan ki, Ermənistan ordusunda generallar, zabitlər əsgərlərin arxasında gizlənərək oz canlarını qoruyur, onları döyüşlərə cəlb edərək həlak olmalarına səbəb olurlar. Amma yağı düşməndən fərqli olaraq Azərbaycan Ordusunun generalı tabeliyində olan hərbçilərdən özünü fərqləndirmir, qarşıda duran tapşırığı yerinə yetirmək üçün öz canını hər an qurban verməyə hazır olduğunu nümayiş etdirir. Ermənistan silahlı qüvvələrinin son təxribat əməllərinin qarşısı qətiyyətlə alınarkən əsgərlərlə birlikdə ön xətdə döyüşərək həlak olan ordumuzun general-mayoru Polad Həşimovun və digər yüksək çinli şəhid zabitlərimizin qəhrəmanlıq nümunəsi bunu bir daha sübut etdi”.

Baş redaktor Ermənistan hakimiyyətinin döyüşlərdə həlak olanların sayını azaltmaq cəhdini düşmənin acizliyi, cılızlığı kimi dəyərləndirərək bildirib ki, bu yolla ordu barədə güclü imic yaratmaq mümkün deyil: “Siyasi savadsızlıq və korafəhmlik belə bir yanaşmaya əsas versə də, reallıq budur ki, hərbi təxribatdan, döyüşdən söhbət gedirsə, itki qaçılmaz olacaq. Bugünədək siyasətini, təbliğatını yalan üzərində quran, özünə saxta tarix yazıb illərdir işğalçılıq siyasəti ucbatından iqtisadi çətinliklər məngənəsində boğulan bir dövlətin rəhbərliyi itkiləri də inkar yolunu tutursa, artıq bunun geniş şərhə ehtiyacı yoxdur. Çünki bu günlər istər xarici KİV-lərdə, istərsə də Ermənistan mətbuatında döyüşlərdə xeyli sayda erməni hərbçilərinin həlak olduğu faktlar əsasında açıqlanır. Bildirilir ki, Ermənistan silahlı qüvvələri istər hərbi texnika, istərsə də canlı qüvvə baxımından ciddi itkilər verərək geri oturmağa məcbur edilib. Görünür, Ermənistan hakimiyyəti azadlığını və müstəqilliyini boğmaga cəhd etdiyi öz mətbuatında yer alan bu məlumatlardan xəbərsizdir”.

Vüqar Rəhimzadə bildirib ki, döyüş meydanında məğlub olan Ermənistan ənənəsinə uyğun olaraq yalan təbliğata əl atıb: “Ermənistan Müdafiə Nazirliyinin mətbuat xidməti bildirir ki, guya Azərbaycan əsgərləri “UAZ” markalı maşınla sərhədi keçməyə cəhd göstərdikdən sonra ermənilər xəbərdarlıq atəşi açaraq həmin əsgərləri maşını tərk etməyə məcbur ediblər. Ermənistan Müdafiə Nazirliyinin sözçüsü bir saatdan sonra Azərbaycan qoşunlarının ikinci dəfə cəbhəni keçməyə cəhd göstərdiklərini, bu zaman artilleriya atəşindən istifadə etdiklərini iddia edir. Bu, ermənilərin növbəti riyakarlığıdır. Onlar nə qədər hiyləgər, mənəviyyatsız olduqlarını bir daha dünya ictimaiyyətinə nümayiş etdirdilər.

“Ermənistan tərəfinin yaydığı yalan məlumatlar o miqyasa çatıb ki, nəinki Azərbaycanın, hətta xarici mətbuatın belə nəzərindən yayınmır” söyləyən baş redaktor vurğulayıb ki, Almaniyanın “Bild” nəşrinin jurnalisti, siyasi analitik Yulian Röpke öz “Twitter” səhifəsində Ermənistan Müdafiə Nazirliyinin yaydığı videonu şərh edərək yazıb ki, görüntülərdəki əslində PUA yox, iki mühərrikli ensiz mülki təyyarədir. Almaniyalı jurnalist bir tərəfdən havadan müdafiə sistemlərinin mülki təyyarəyə tuşlanmasına, digər tərəfdən isə Ermənistanın Müdafiə Nazirliyinin rəsmi “YouTube” səhifəsində bu cür yalan videoların yerləşdirilməsinə təəccübləndiyini bildirib.

V.Rəhimzadə qeyd edib ki, törətdikləri təxribatı Azərbaycan tərəfinin üzərinə atmağa cəhd göstərən Ermənistanın hakimiyyət orqanları bununla yenə də dünyanın diqqətini özlərinin işğalçılıq, faşizm siyasətlərindən yayındırmağa çalışır, belə rəy yaratmaq istəyirlər ki, guya Azərbaycan sülh danışıqlarında maraqlı olmadığı üçün hərbi təxribatlara əl atır. Nəzərə alsaq ki, döyüşlər Dağlıq Qarabağda deyil, iki dövlət arasındakı sərhəddə ağır silahlardan istifadə olunmaqla aparılıb, Ermənistanın məqsədi bəlli olur: Dağlıq Qarabağ probleminin həllinin qarşısını almaq, yeni bir münaqişə mənbəyi yaratmaq. Bu reallıqlar bir sıra beynəlxalq təşkilatların, dövlətlərin təxribatla bağlı yaydıqları bəyanatlarda da öz əksini tapıb”.

Baş redaktor vurğulayıb ki, diqqəti çəkən əsas məqamlardan biri də odur ki, bir sıra beynəlxalq təşkilatlar, o cümlədən BMT-nin Baş katibi ermənilərin hərbi təxribatına münasibət bildirsə də, münaqişənin həllində vasitəçilik missiyasını yerinə yetirən ATƏT-in Minsk qrupunun həmsədrləri yenə də ənənələrinə uyğun olaraq seyrçi mövqedə dayanmağa üstünlük verirlər: “Düşünürük ki, BMT səviyyəsində pislənilən bu təxribat ATƏT-in Minsk qrupunun həmsədrlərinə missiyası ilə bağlı xatırlatmalar etməklə yanaşı, onu işğalçını öz adı ilə çağırmağa vadar edəcəkdir”.

# Paşinyanın KTMT-in çətiri altında gizlənmək niyəti baş tutmur



“Ermənistan ölkəmizə qarşı törətdiyi hərbi-siyasi təxribatdan sonra aciz vəziyyətə düşüb və nicat axtarmağa başlayıb. Bu düşmən ölkənin qorxaqlığı, çarəsizliyidir. Nazirlər Kabinetinin 2020-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasda Azərbaycan Prezidenti bir sıra mühüm məslələrə toxunaraq sərhəd bölgəsində Azərbaycan ordusunun qətiyyətli cavabından sonra işğalçı ölkənun düşdüyü vəziyyətlə bağlı bir sıra mühüm məsələlərə toxunub”. Bunu SİA-ya açıqlamasında Milli Məclisin üzvü Hikmət Babaoğlu deyib. Onun sözlərinə görə, Ali Baş Komandanımız Ermənistanın riyakarlığını, qorxaqlığını beynəlxalq hüquqa zidd olan davranışlarını və eyni zamanda baş nazir Paşinyanın diktaturaya, faşizmə və işğalçılığa əsaslanan rejimini bir daha ifşa etdi: “Aydın oldu ki, işğalçı ölkənin düşdüyü vəziyyətdən çıxış yolları arayarkən atdığı addımlar yenə də qorxaqlıq və xofdan doğan riyakar axtarışlardır. Bunun ən bariz nümunəsi özünü qorumaq instikti ilə dərhal KTMT müraciət etməsidir. Halbuki , elə həmin baş nazir Paşinyan bir müddət öncə KTMT baş katibinin həbs edilməsilə bağlı qərar qəbul etmişdi. İndi isə həmin hərbi-siyasi təşkilatdan imdad dilənməyə məcbur olub. Bax məsələnin riyakarlıq tərəfi elə buradadır”.

Deputat bildirib ki, şübhəsiz onun bu yalvarışları cavabsız qaldı və qalacaq: “Hər şeydən əvvəl ona görə ki, KTMT-yə üzv olan ölkələrin hər biri ilə ayrılıqda Azərbaycanın xüsusi münasibətləri var və bəzən bu münasibətlər strateji tərəfdaşlıq səviyyəsindədir. Bundan başqa həmin ölkələrin liderləri ilə Azərbaycan Prezidentinin xüsusi münasibətləri var. Daima müxtəlif çətinliklər zamanı Azərbaycan həmin ölkələrin yanında olub və ən müxtəlif vasitələrlə yardım edib, əməkdaşlıq yaradıb. Ona görə də hazırki vəziyyətdə də adekvat münasibət gözləyir və əslində elə bu münasibəti də görür. Beləliklə qorxaq və riyakar Paşinyanın qorxusundan KTMT-in çətiri altında gizlənmək niyəti də baş tutmur. Eyni zamnda Azərbaycan heç kəsin torpağını işğal etməyib, işğalçı Ermənistandır və dərhal işğal etdiyi torpaqları azad etməlidir. Bu mənada beynəlxalq hüquq da, haqq da, ədalət də Azərbaycanın yanındadır. KTMT -yə üzv olan ölkələr də bunu yaxşı bilirlər”.

H.Babaoğlu vurğulayıb ki, milli davamızda ölkəmizin bütün resursları Azərbaycan milli maraqlarını müdafiə etməyə səfərbər olunmalıdır: “Lakin bəlli olur ki, milli güçün beyini kimi çıxış etməlin olan Xarici İşlər Naziri bu prosesdə adekvat hərəkət etmir. Hətta tam əksinə işğalçı ölkənin xarici işlər naziri ilə görüşdə özbaşına gündəlik müəyyənləşdirir, Covid-19 müzakirəsi aparır. Bu əsla yolverilməzdir! Ancaq bu gün qürurla söyləyə bilirik ki, güclü Ordumuz var və bu ordu Ali Baş Komandanımızın rəhbərliyi altında düşmənə layiqli cavab verməklə onu yerində otruda bilir və bu mütləq nəticə etibarilə torpaqlarımızın azad edilməsinə gətirib çıxaracaq”.

# “Könüllü hərbi xidmət üçün 4 min vətəndaş rəsmi qeydiyyatdadır”

***Dünəndən etibarən könüllü hərbi xidmət üçün 4 min vətəndaş rəsmi qeydiyyata alınıb. SİA-nın məlumatlna görə, bunu bu gün keçirilən mətbuat konfransında Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi, general-polkovnik Arzu Rəhimov deyib.***





Onun sözlərinə görə, əgər hər hansısa səfərbərlik olarsa, hərbi hissələrdən əlavə kadr istənilərsə, xidmət hərbi hissələri həmin vakansiyalar üzrə kadrlarla təmin edir. Müharibə dövründə zərurət yaranarsa, qurum hazırladığı kadrları xidmətə göndərə bilər: “Lazım olan halda hərbi vəzifəlilər çağırılaraq hərbi hissələrə göndərilə bilərlər. Bəzi şəxslər hərbi xidmətə getmək istədiklərini deyirlər. Bildirrik ki, hər bir kəsin bizdə qeydiyyatı var və onları yenidən qeydiyyata almağa ehtiyac yoxdur. Prezident İlham Əliyevin çıxışından sonra biz xidmətin şöbələrində vətəndaşların rəsmi qeydiyyatına başlamışıq.

Dünəndən etibarən artıq 4 min vətəndaş rəsmi qeydiyyata alınıb. Bəzi şəxslər xidmətin şöbələrinin qarşısına gələrək öz telefonları ilə çəkiliş edir və bildirir ki, bizi qeydiyyata alırlar. Buna ehtiyac yoxdur. Biz könüllü şəkildə ordu sıralarına getmək istəyənləri qeydiyyata alırıq. Sadəcə biz bu məsələdə ehtiyatlı olmalıyıq, normal qaydada müraciət edib qeydiyyata durmalıdır. Hazırda proses davam edir. Eyni zamanda xidmətin rəsmi elektron ünvanına da müraciət edənlər var və onlar da qeydiyyata alınır”.

# Düşmənə məxsus kazarma məhv edilib



Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində gedən döyüşlər zamanı bölmələrimizin sərrast zərbəsi ilə Ermənistan silahlı qüvvələrinə məxsus kazarma məhv edilib. Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin mətbuat xidmətindən məlumat veriblər.

# Müdafiə Nazirliyi açıqladı: Düşmən böyük itki verdi!



İyulun 16-da səhər saat 05.45-dən başlayaraq Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində aktiv döyüş əməliyyatları keçirilir. Müdafiə Nazirliyinə istinadən SİA xəbər verir ki, hazırki vaxtadək davam edən döyüşlərdə düşmənin 20-yə yaxın canlı qüvvəsi, 1 zirehli texnikası, 1 radioelektron mübarizə (REM) vasitəsi, döyüş postları və dayaq məntəqəsi bölmələrimizin sərrast atəşi ilə məhv edilib.

Döyüşlər zamanı Azərbaycan Ordusunun müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər İsmayılov Nazim Əfqan oğlu şəhid olub. Müdafiə Nazirliyinin rəhbərliyi şəhidin ailəsinə başsağlığı verir və səbr diləyir. Allah rəhmət eləsin! Bölmələrimiz düşmənin döyüş aktivliyinin qarşısını almaq məqsədi ilə cavab tədbirləri görür.

# Müdafiə Nazirliyindən xəbərdarlıq: “Ermənilərdən sizə mesaj gələ bilər”



Müdafiə Nazirliyi xəbərdarlıq yayıb. SİA-nın məlumatına görə, xəbərdarlıqda deyilir: “Ermənilər Azərbaycan və Türk dilini öyrənib, Azərbaycan nömrəsi ilə vətəndaşlarımıza yazır ki, “Azərbaycanda nə baş verir?”. 0505582881 və 0552298493 , +90 539 507 06 81 bu nömrələrdən mesaj gələ bilər. Siz o mesaja qətiyyətlə cavab verməyin. Sizdən məlumat toplayıb özləri Azərbaycanın planlarını öyrənir və yeni plan qururlar.

“Snapchat” və “PicsArt” programı sizin mobil telefonunuzda varsa, onları silin. Çünki onların kodlarını qırıb şəkillərinizi götürə bilərlər. Əsasən qızların programlarının kodunu qırıb onların şəklini götürürlər ya öz səhifələrində paylaşıb altına nalayiq sözlər yazırlar yada şantaj edirlər. Silin o programları xahiş edirik.

Sizin mobil telefonunuza mesaj gələ bilər “instagram” linki kimi bir mesajdır. O mesaj sizə gəlsə qəti şəkildə o mesaja daxil olmayın yəni o linkə girməyin. Tez o mesajı silin. O linkə girsəniz sizin telefonunuzda nə varsa hərşey ermənilərin əlinə keçəcək. Məsələn “instagram”, “whatsapp”, və başqaları. Yəni qətiyyən o linkə daxil olmayın. Mesaj sizə gələn kimi mesaja girməmiş mesajı silin”.

# Valentina Matviyenko: Baş verən hadisə ilə bağlı Rusiyada narahatdırlar



Rusiya Bakı və Yerevanı fikir ayrılıqlarını danışıqlar yolu ilə həll etməyə çağırır, diplomatik və parlament xətti üzrə müəyyən dərəcədə səy göstərilir. Xezerxeber.az xəbər verir ki, bu barədə jurnalistlərə Rusiya Federasiya Şurasının sədri Valentina Matviyenko bildirib.

O qeyd edib ki, MDB Parlamentlərarası Assambleyanın sədri kimi ona Ermənistan və Azərbaycan parlamentlərinin sədrləri tərəfindən müraciətlər olunub. Baş verən hadisə ilə bağlı Rusiyada narahatdırlar. Çünki həm Azərbaycan, həm Ermənistan Rusiyaya dost, tərəfdaş ölkələrdir. O deyib: “İndi başlıcası günahkarı axtarmaq deyil, hər hansı hərbi əməliyyatı dərhal dayandırmaqdır”.

Federasiya Şurası sədrinin sözlərinə görə, eskalasiyanın azaldılması istiqamətində diplomatik xətt üzrə bütün tədbirlər görülür, Rusiya ATƏT-in Minsk qrupunun üzvü kimi də səy göstərir, parlament xətti üzrə də səy göstərilir. “Bu vəziyyət bizi çox həyəcanlandırır və narahat edir, biz gərginliyin azaldılması, döyüş əməliyyatlarının dayandırılması üçün əlimizdən gələni edəcəyik”, - deyə vurğulayan V.Matviyenko Rusiya tərəfinin danışıqlar prosesinə, bu danışıqların gedişində qarşılıqlı məqbul həllər axtarılmasına tərəfdar olduğunu əlavə edib.

# Türkiyə KİV-ləri Ermənistanın Azərbaycana qarşı təxribatını diqqətdə saxlayır

Ermənistan silahlı qüvvələrinin bölmələrinin Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz istiqamətində mövqelərimizi ələ keçirmək məqsədilə hücuma keçməyə cəhd göstərməsi və yaranan gərgin hərbi vəziyyət Türkiyənin aparıcı KİV-ləri tərəfindən diqqət mərkəzində saxlanılır.

AZƏRTAC xəbər verir ki, Anadolu və İHA xəbər agentlikləri, “TRT HABER”, “TRT AVAZ”, “A HABER”, “HABER TÜRK”, “NTV” televiziya kanalları, “Milliyyet”, “Huriyyet”, “Taqvim”, “Yeni şafaq”, “Akşam”, “Yeşil İğdır” və digər çoxtirajlı qəzetlər baş verən hadisələri operativ işıqlandırır. Bundan başqa, televiziya kanallarında sosial, hərbi, hüquq və digər sahələri təmsil edən ekspertlərin iştirakı ilə verilişlər yayımlanır. Ermənistanın Dağlıq Qarabağdan uzaq bir məkanda yeni bir münaqişə ocağı yaratmasının səbəbləri ilə bağlı fikirlər bildirilir. Aparıcı qəzetlər analitik məqalələr təqdim edir. Erməni tərəfinin hadisələrə məsuliyyətsiz yanaşması ictimai qınaq kimi gündəmdədir.



CANLI YAYIN | VİDEO | GÜNDEM | EKONOMİ | DÜNYA | SPOR | ÖZEL HABER

Haberler ▸ Galeri ▸ Ermenistan ordusundan alçak saldırı! Hedeflerinde siviller var

**Ermenistan ordusundan alçak saldırı! Hedeflerinde siviller var**

**Ermenistan ordusu, Azerbaycan sınırında ağır silahlarla sivil halka saldırı düzenledi. Saldırılarda 1 sivil hayatını kaybederken, çok sayıda ev kullanılamaz hale döndü. İşte o görüntüler...**

Giriş Tarihi: 15.07.2020 15:03
Güncelleme Tarihi: 15.07.2020 15:04

BU ALBÜMÜ PAYLAŞ | ABONE OL | Google News

# VƏTƏNDAŞ MƏKTUBLARI: Biz



***Azərbaycan Prezidenti İlham Əliyevə respublikamızın bütün guşələrindən çoxsaylı minnətdarlıq məktubları ünvanlanır.SİA Prezident saytına istinadla həmin məktubların bir neçəsini təqdim edir. Xalq yazıçısı Natiq Rəsulzadə yazır: "Hörmətli cənab Prezident, son günlərin hadisələri vəhşiləşmiş erməni faşizminin simasını bütün dünyaya bir daha göstərdi. Təcavüzkar ölkənin rəhbərliyi vicdan əzabı çəkmədən öz ambisiyaları naminə, nəyin bahasına olursa-olsun hakimiyyətdə qalmaqdan ibarət merkantil şəxsi istəkləri, öz qeyri-insani məqsədləri naminə ölkənin gələcəyi olan gəncləri qurban verərək sadə xalqın övladlarını ölümə göndərir. Bizim rəşadətli ordumuzun döyüşlərdə verdiyi itkilər, həyatın astanasında olan hərbi qulluqçularımızın, gənc əsgərlərimizin həlak olması xalqın səbir kasasını daşdırır.***

Hörmətli cənab Prezident, Azərbaycan xalqı bütün tarix boyu dəfələrlə döyüş meydanlarında öz rəşadətini sübut edib. Azərbaycan xalqı düşmənlə mübarizəyə qalxıb və mənfur təcavüzkar üzərində qələbə qazanıb. Bunu Böyük Vətən müharibəsi də sübut edib, bu müharibənin döyüş meydanlarında Vətənimizin yüz minlərlə övladı canından keçib. Bunu Aprel döyüşləri də sübut edib, o vaxt düşmən çox sərt və qətiyyətli şəkildə dəf edildi. Mənim atamın da iştirak etdiyi uzaq Böyük Vətən müharibəsi illərində həmvətənlərimiz özlərinin böyük, çoxmillətli ölkəsi uğrunda alman faşizminə qarşı bu cür qəhrəmancasına döyüşə bilibsə, indi xalqımız Sizin bir sözünüzlə doğma torpağımızı - sevimli Azərbaycanımızı qorumaq üçün murdar erməni faşizminə qarşı döyüşə cəsarətlə gedəcək.

Hörmətli cənab Prezident, mənim yetmiş bir yaşım var və qəhrəmanlıq iddiasında olmadan Sizə deyirəm: yaranmış şəraitdə mən öz xalqımla, xalqımızın ziyalıları ilə birlikdə Vətənə məhəbbətimi sözdə deyil, əməli işdə sübut etməyə hazıram. Mən nə siyasətçiyəm, nə də diplomat, mən yazıçıyam, lakin hər şeydən əvvəl, mən də Sizin kimi - öz Vətənini, xalqını ürəkdən sevən vətəndaşam. Şairlərin öz dövrü var, əsgərlərin öz dövrü. İndi əsgərlərin dövrüdür".

YAP Qax rayon təşkilatı Gənclər Birliyinin sədri Elvin Həsilov: "Hörmətli Prezident, cənab Ali Baş Komandan, bütün dünyada müharibələrin susduğu bir zamanda mənfur düşmənlərimiz sərhədyanı bölgədə, xüsusilə Tovuz istiqamətində yenə də təxribatlar törətmişlər. Milli Ordumuzun kəskin cavabı sayəsində düşmən böyük itki verərək geri çəkilməyə məcbur olmuşdur.

Möhtərəm Prezident, Sizin rəhbərliyinizlə torpaqlarımızın işğaldan azad olunması üçün hər an ön cəbhədə vuruşmağa hazırıq".

Azərbaycan Vətən Müharibəsi Veteranları İctimai Birliyinin Tovuz rayon şöbəsinin və Qarabağ Əlillərinə Qayğı İctimai Birliyinin Tovuz rayon filialının sədri Etibar Vəliyev: "Hörmətli cənab Prezident, Sizi Azərbaycan Vətən Müharibəsi Veteranları İctimai Birliyinin Tovuz rayon şöbəsi və Qarabağ Əlillərinə Qayğı İctimai Birliyinin Tovuz rayon filialının üzvlərinin adından salamlayır, keçmiş döyüşçülərin daim Sizə inandıqlarını, hər an döyüş əmrinizə hazır olduğumuzu bildiririk. Azərbaycanın inkişafını gözü götürməyən namərd qonşularımızın fitnə-fəsad törətmək cəhdləri hər zaman puça çıxıb və bu dəfə də belə oldu. Hər bir Azərbaycan vətəndaşı bilir ki, Azərbaycan dövləti əmin əllərdədir, çünki sabitliyimizin qarantı olan Siz varsınız, sərhədlərimizi qoruyan rəşadətli ordumuz, ictimai asayişi yüksək səviyyədə təmin edən qətiyyətli polisimiz var".

Salyan rayonunun Həsənli kəndinin sakini Kamran Dünyamalıyev: "Hörmətli cənab Prezident, Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində Ermənistan silahlı qüvvələrinin törətdiyi təxribatı qəti şəkildə pisləyir, düşmən təxribatının qarşısını alan ordumuzu dəstəkləyirəm. Əminəm ki, Sizin rəhbərliyinizlə qısa müddətdə Qarabağımızı işğaldan azad edəcəyik. Sizin iradənizə inanır, döyüşə hazır əsgəriniz kimi əmrinizi gözlədiyimi bildirirəm".

Salyan rayonunun daha bir sakini Amil Babayevin məktubunda deyilir: "Hörmətli cənab Prezident, biz daim Sizin prinsipial, qətiyyətli siyasətinizi dəstəkləyirik. Verdiyiniz hər bir əmr bizim döyüş andımızdır. İşğalçı dövlətin törətdiyi təxribatın qarşısını alan ordumuzla fəxr edirik. Bu ordu Sizin sayənizdə qüdrətlidir.

Cənab Prezident, Azərbaycan-Ermənistan sərhədində düşmən təxribatının qarşısını alan ordumuzu dəstəkləyir, keçmiş döyüşçü kimi əlimə silah alıb düşmənə qarşı döyüşməyə hazır olduğumu bildirirəm. Sizinlə fəxr edir, qürur duyuruq. Hər birimiz Sizin əsgərinizik!".

Qax rayonundan Tələt Abbasov: "Hörmətli cənab Ali Baş Komandan, Milli Ordumuz çətin pandemiya dövründə belə öz xalqı ilə maraqlanmayan, təcavüzkar, faşist ideologiyalı Ermənistanın son günlər Tovuz rayonu istiqamətində törətdiyi növbəti təxribatlarına Sizin rəhbərliyinizlə layiqli cavab verməkdədir. Biz Sizin Qarabağ münaqişəsində tutduğunuz qətiyyətli mövqe və igid vətən oğullarının şücaəti ilə daim fəxr edirik.

Hörmətli Ali Baş Komandan, Yeni Azərbaycan Partiyası gənci olaraq Sizin əmrinizi gözləyir, ölkəm uğrunda döyüşməyə hazır olduğumu bildirirəm. Yaşasın müstəqil Azərbaycan!".

Xaçmaz rayonundan Aybəniz Ədilova: "Hörmətli cənab Prezident, Ali Baş Komandan, Sizin rəhbərliyiniz altında ordumuz bu gün dünyanın ən güclü orduları sırasında yer alır. Ordumuzda olan ruh yüksəkliyi, peşəkarlıq, müasir hərbi texnikalar hər an torpaqlarımızı azad etməyə imkan verir. Biz YAP gəncləri olaraq daim Sizin yanınızdayıq, Sizin əmrlərinizi gözləyirik! Allah Sizi qorusun!".

Zaqatala rayonundan Vüsal Ramazanov: "Hörmətli cənab Ali Baş Komandan. Bu gün Azərbaycan Ordusu ölkəni istənilən təcavüzdən qorumağa və hər an torpaqlarımızı işğaldan azad etməyə qadirdir. Hər bir vətəndaşımız yaxşı bilir ki, Azərbaycanın güclü dövləti, güclü ordusu var. Cənab Ali Baş Komandan, döyüş təcrübəsi olan zabit və əsgərlərimiz hər zaman Sizinlədir. Biz Sizə inanır və güvənirik. Əmrinizi gözləyirik, cənab Ali Baş Komandanımız!".

Masallı rayonunun Gəyəçöl kəndindən Məmmədqulu Həsənov: "Hörmətli cənab Prezident, Sizin fəaliyyətiniz daim xalqımızın rifahının yüksəlməsinə, insanlarımızın qayğı və problemlərinin yerində həll olunmasına yönəlib. Xalqımızın firavan yaşayışı naminə atdığınız addımlar öz bəhrəsini verir. Bu günlərdə kəndimizdəki köhnə, sıradan çıxmış elektrik dirəkləri yeniləri ilə dəyişdirildi. Bununla da işıqla təminatımız xeyli yaxşılaşdı, fasiləsiz işıqla təmin olunduq.

Cənab Prezident, Azərbaycan xalqının qayğısına qalaraq onların problemlərinin həlli istiqamətində gördüyünüz əməli tədbirlərlə bağlı Sizə dərin təşəkkürümüzü bildirir və gələcək işlərinizdə uğurlar arzulayırıq".

Bərdə rayonundan Nəsibə Kərimova: "Hörmətli cənab Prezident, cənab Ali Baş Komandan, Ermənistanın Azərbaycana qarşı törətdiyi təxribatın qarşısının alınmasında ordumuzun gücünə bir daha şahid olduq. İgid əsgərlərimiz 2016-cı il Aprel döyüşlərindəki kimi bizi bir daha qürurlandırdılar. Məhz onların sayəsində biz sabit, təhlükəsiz həyat yaşayırıq. Bilirik ki, bizi, ölkəmizi qüdrətli bir ordu qoruyur. Bizə qürur yaşadan güclü ordumuzun Ali Baş Komandanı Sizsiniz, cənab Prezident. Ali Baş Komandanımız kimi Sizə bildirmək istəyirəm ki, hər zaman əmrinizi gözləyirik. Torpaqlarımızın işğaldan azad olunması istiqamətində apardığınız siyasəti bəyənir, bir gənc olaraq Sizə səmimi qəlbdən öz təşəkkürümü bildirirəm".

Siyəzən rayonundan Bəxtiyar Seyidov: "Cənab Ali Baş Komandan, məlum olduğu kimi, iyulun 12-də erməni silahlı qüvvələri Azərbaycanın mövqelərinə ağır artilleriya qurğuları ilə atəş açıb təxribat törətmişlər. Bunun qarşılığında Azərbaycan Ordusu adekvat cavab verərək düşməni susdurub şəhidlərimizin qisasını aldı. Məhz Sizin Azərbaycan Ordusuna, Azərbaycan əsgərinə göstərdiyiniz xüsusi diqqət və qayğının nəticəsi olaraq bu gün düşmənə layiqli zərbə endirməyə qadir olan güclü Azərbaycan Ordusu var. Bunun üçün Sizə dərin minnətdarlığımı bildirirəm. Cənab Ali Baş Komandan, YAP-ın Gənclər Birliyinin Siyəzən rayon təşkilatının üzvü olaraq Sizin əmrinizlə düşmənlə üz-üzə dayanıb, rəşadətli bir Azərbaycan əsgəri kimi döyüşməyə hazıram".

Bərdə rayonundan Şamxal Yaqubov: "Hörmətli cənab Prezident, Siz hər zaman Azərbaycan Respublikasının milli maraqlarının təmin olunması üçün çalışırsınız. Ölkəmizin müstəqilliyinin qorunması və ərazi bütövlüyünün bərpa olunması məhz bu milli maraqların əsas qayəsidir. Sizin sayənizdə bu gün güclü orduya malik olan Azərbaycan Respublikası onun dövlət sərhədini pozmağa çalışan qüvvələrə anında elə sarsıdıcı cavab verir ki, təxribatçılar üçün onun təsiri illərlə davam edir. Ordumuz bizim qürur mənbəyimizdir.

Cənab Ali Baş Komandan,

# Sizə inanırıq, cənab Prezident!



əmin ola bilərsiniz ki, biz gənclər hər an Sizin əmrinizi gözləyirik. Biz gənclər üçün Vətənə sədaqət müqəddəs hissdir. Son aldığımız nəfəsə qədər Sizin yanınızda olduğumuzu və Sizin bir göstərişiniz ilə canımızı Vətən uğrunda verəcəyimizi bir Azərbaycan gənci kimi bildirmək istəyirəm".

Xaçmaz rayonundan Ülkər Lətifova: "Cənab Ali Baş Komandan, bu gün Azərbaycan gəncliyi Sizin gördüyünüz işlərlə qürur duyur. Xüsusən də ölkəmizin təhlükəsizliyi naminə gördüyünüz işlər, ordu quruculuğuna yetirdiyiniz diqqət göz qabağındadır. Artıq düşmənlərimiz vahimə içərisindədir. Sizin "Qarabağ Azərbaycandır və nida" sözünüz onların Qarabağı tezliklə tərk edəcəklərinə və məcbur köçkünlərimizin həmin torpaqlara qayıdacaqlarına böyük bir işarədir. YAP gəncləri daim Sizin ətrafınızda sıx birləşib və Sizin əmrinizi gözləyir. Biz Sizə inanırıq, cənab Prezident".

Füzuli rayonundan Aydın Rəşidli: "Möhtərəm Prezident, cənab Ali Baş Komandan, son hadisələrdən sonra biz Füzuli gəncləri əldə silah Vətənimiz Azərbaycanın rahat, firavan, gözəl gələcəyi üçün döyüşmək istəyirik. Füzuli gəncliyi Sizə inanır və hər zaman Sizin yanınızdadır".

Hörmətli cənab Prezident. Bu günlərdə cəbhədə baş verənlər məni bir gənc olaraq çox təsirləndirdi. Sizin komandanlığınızla bu ruhla, bu inamla və ən əsası xalqın gücünü, dəstəyini bu cür hiss edən bir ordunun qarşısını heç bir ordu kəsə bilməz.

Cənab Prezident, biz Yeni Azərbaycan Partiyası Samux rayon Gənclər Birliyinin üzvləri Sizin "döyüş" əmrinizi gözləyirik.

Hörmətlə, Tağızadə Cəlal Əbülfət oğlu. Azərbaycan Respublikası, Samux rayonu.

Hörmətli cənab Prezident. Bu günlərdə sərhəd bölgəmizdə güclü ordumuzun düşmənə sarsıdıcı zərbələrlə onların döyüş mövqelərini darmadağın etməsinin şahidiyik. Biz bir vətəndaş olaraq, bir əsgər olaraq hər zaman Sizin yanınızdayıq. Qələbəni səbirsizliklə gözləyirik.

Mən ehtiyatda olan əsgər kimi döyüşə hazıram. Biz Sizinlə bir yerdə güclüyük. Sizin döyüş əmrinizi gözləyirik.

Hörmətlə, Kazımlı Elvin Lətif oğlu. Azərbaycan Respublikası, Sumqayıt şəhəri.

Hörmətli cənab Prezident. Biz gənclərə göstərdiyiniz diqqətə görə Sizə minnətdarlığımı bildirmək istəyirəm. Vətənin bu çətin günündə biz gənclər Vətən qarşısında öz borcumuzu qaytarmağa hazırıq.

Cənab Ali Baş Komandan, bütün məcburi köçkün gəncləri adından deyə bilərəm ki, hər birimiz əsgərik və bunu Sizin bir əmrinizlə mənfur düşmənə sübut etməyə, Sizin rəhbərliyinizlə öz ata-baba yurdumuzu erməni işğalçılardan təmizləməyə hazırıq.

Hörmətlə, Ayna Zeynalova. Azərbaycan Respublikası, Zəngilan rayonu.

Hörmətli cənab Prezident. Vətənimlə, düşmən qarşısında dərhal birləşən, Ali Baş Komandanın əmri ilə döyüşə atılmağa hazır olan xalqımla bir azərbaycanlı kimi qürur duyuram. Qətiyyətinizə görə Sizə, birləşdiyinə görə xalqıma, əzəli Azərbaycan torpaqları uğrunda döyüşlərdə göstərdikləri rəşadət və mərdliyə görə igid əsgər və zabitlərimizə minnətdarlığımı bildirmək istəyirəm. Sizin döyüş əmrinizi gözləyir və iradənizə inanıram.

Hörmətlə, Abdullayev Teymur Firdovsi oğlu. Azərbaycan Respublikası, Samux rayonu.

Hörmətli cənab Prezident. Siz ümummilli liderimiz Heydər Əliyevin layiqli davamçısı, xalqımızın dayağı, Vətənimizin cəsur və müdrik oğlusunuz. Azərbaycan xalqı Sizi sevir və daim Sizinlədir. Sizin yüksək idarəçiliyiniz və bacarığınız sayəsində bu gün Azərbaycan dünyada tanınır və ölkəmizin nüfuzu gündən-günə artır. Bu nailiyyətlərin əsasında xalqla iqtidar arasında mövcud olan möhkəm birlik də xüsusi yer tutur. Bizim birliyimizi, xalqımızın, dövlətimizin gücünü heç bir qüvvə sarsıda bilməz.

Cənab Prezident, biz gənclər Sizi, Sizin siyasətinizi dəstəkləyirik və Sizin əmrinizi gözləyirik.

Allah Sizin kölgənizi Azərbaycan xalqının başı üzərindən əskik etməsin. Azərbaycan Sizin düzgün, düşünülmüş, məqsədyönlü siyasətinizlə daha böyük uğur və qələbələr qazanacaq. Biz gənclər işğal altında olan torpaqlarımızın azad edilməsi üçün döyüşə getməyə hazırıq. Biz birlikdə güclüyük.

Möhtərəm cənab Prezident, bütün sahələrdə yanımızda olduğunuz üçün Sizə dərin minnətdarlığımı bildirirəm. Şəxsən öz adımdan və ailə üzvlərimin adından Sizə cansağlığı arzu edirəm. Allah Sizi hər zaman pənahında saxlasın.

Hörmətlə, Nəbiyev Əli Elxan oğlu. Azərbaycan Respublikası, Bakı şəhəri, Binəqədi rayonu.

Hörmətli cənab Prezident. Bu gün ordumuzun qüdrəti düşmən tərəfin canına təşviş salıb. Onların narahatlığı əbəs deyil. Əminik ki, güclü ordumuz Sizin sayənizdə torpaqlarımızı yağı düşməndən azad edəcək.

Mən ehtiyatda olan əsgərəm. Vətənin müdafiəsi uğrunda sağlamlığımı itirmişəm. Amma bu gün də yenidən Qarabağımızın azad olunması üçün döyüşməyə hazıram və əmrinizi gözləyirəm.

Hörmətlə, Nağıyev Sənan Sabir oğlu. Azərbaycan Respublikası, Sabirabad rayonu, Qaragüney kəndi.

Hörmətli cənab Prezident. Azərbaycan Ordusunda maddi-texniki təchizatın, o cümlədən hərbi bilik və bacarıqların, döyüş qabiliyyətinin yüksək səviyyədə olması artıq düşmən tərəfə də bəllidir. Düşmən yaxşı bilir ki, Azərbaycanın üzbəüz dayandığı ordu son dövrlər qüdrətini xeyli artırıb, yüksək döyüş potensialına malik olub.

Şübhəsiz ki, bunun arxasında Sizin dayanıqlı siyasətiniz, eyni zamanda, dövlət-vətəndaş birliyi dayanır.

Bir gənc olaraq torpaqlarımızı düşməndən azad etmək üçün Sizin əmrinizi gözləyirəm. Sizin qətiyyətiniz və iradəniz bizlərə güvənc verir. Biz birlikdə güclüyük.

Hörmətlə, Həsənov Dövran Zülfəli oğlu. Azərbaycan Respublikası, Hacıqabul rayonu, Abdulabad kəndi.

Hörmətli cənab Prezident. Dünyanı ağuşuna alan pandemiya dövründə məhz Sizin qabaqlayıcı tədbirlər nəticəsində qonşu dövlətlərlə müqayisədə bizim ölkədə bu virusa yoluxanlar azdır. Sizin Birinci vitse-prezident Mehriban xanım Əliyeva ilə birgə həyata keçirdiyiniz sosial layihələr əhalinin maddi rifah halının yaxşılaşdırılmasında əvəzsiz rol oynayır. Koronavirus yayılmağa başlayan vaxtdan yeni modul tipli xəstəxanaların istifadəyə verilməsi əhalinin sağlamlığına göstərilən diqqətin və qayğının təzahürüdür. Həmişə olduğu kimi, yenə də xalqla birgə olduğunuzu əməlinizlə sübut etdiniz. Buna görə Sizə minnətdarlığımızı bildiririk.

İnanırıq ki, Sizin rəhbərliyinizlə bu sınaqdan az itkilərlə çıxıb, əvvəlki həyatımıza davam edəcəyik.

Hörmətlə, İntiqam Mustafayev. Azərbaycan Respublikası, Tərtər rayonu

Hörmətli cənab Prezident! Sizi Azərbaycan Vətən Müharibəsi Veteranları İctimai Birliyinin Tovuz rayon şöbəsi və Qarabağ Əlillərinə Qayğı İctimai Birliyinin Tovuz rayon filialının üzvlərinin adından salamlayır, keçmiş döyüşçülərin daim Sizə inandıqlarını, hər an döyüş əmrinizə hazır olduğumuzu bildiririk.

Azərbaycanın inkişafını gözü götürməyən namərd qonşularımızın fitnə-fəsad törətmək cəhdləri hər zaman puça çıxıb və bu dəfə də belə oldu.

Hər bir Azərbaycan vətəndaşı bilir ki, Azərbaycan dövləti əmin əllərdədir, çünki sabitliyimizin qarantı olan Siz varsınız, sərhədlərimizi qoruyan rəşadətli ordumuz, ictimai asayişi yüksək səviyyədə təmin edən qətiyyətli polisimiz var.

Hörmətlə, Vəliyev Etibar. Azərbaycan Vətən Müharibəsi Veteranları İctimai Birliyinin Tovuz rayon şöbəsinin və Qarabağ Əlillərinə Qayğı İctimai Birliyinin Tovuz rayon filialının sədri. Azərbaycan Respublikası, Tovuz rayonu.

# Fürsətbazlıq siyasətinin ifşası



*Nurlana Əliyeva,*
*YAP İdarə Heyətinin üzvü, partiyanın Qadınlar Şurasının sədri, Bakı Slavyan Universitetinin rektoru, filologiya elmləri doktoru, professor*

İyulun 12-də Ermənistanın silahlı qüvvələrinin Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz istiqamətində növbəti təxribatının qarşısı qətiyyətlə alındı. İşğalçı dövlətin bütün cəhdləri iflasa uğradı, Azərbaycan öz dövlət sərhədini qorudu, Ermənistan əsgərləri bir qarış belə, Azərbaycan torpagına keçə bilmədilər. Azərbaycan Ordusunun əsgərlərinin böyük şücaəti Ermənistan hakimiyyətinin apardığı reallıqdan uzaq təbliğatlarını bir daha altüst etdi. Ermənistan ordusu barədə güclü imic yaratmağa cəhd göstərən işğalçı dövlətin rəhbərliyi görünür 2016-cı ilin Aprel döyüşlərini, 2018-ci ilin Naxçıvan qələbəsini unudur. Dövlətimizin başçısı, Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı cənab İlham Əliyev Təhlükəsizlik Şurasının iclasında, eyni zamanda, Nazirlər Kabinetinin 2020-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında bir daha bildirdi ki, məhz Ermənistan rəhbərliyinin ikiüzlü və riyakar fəaliyyətinə görə belə hadisələr baş verir. Ermənistan bir tərəfdən beynəlxalq ictimaiyyətə müraciət edir və Ermənistan-Azərbaycan qoşunlarının təmas xəttində atəşkəs rejiminin möhkəmləndirilməsi üçün kömək xahiş edir. Digər tərəfdən, hərbi təxribatlar törədərək Azərbaycan ərazisinə basqın edir, mövqelərimizi zəbt etmək istəyir, mülki əhalini, kəndlərimizi atəşə tutur.

Təbii ki, Ermənistanın Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz istiqamətində hərbi təxribatı ilk hadisə deyil. Son bir neçə ay ərzində bu hərbi təxribatlar nəticəsində Azərbaycan hərbçiləri, mülki şəxslər həlak olmuşlar. Nazirlər Kabinetinin iclasında "Azərbaycan Silahlı Qüvvələrinə göstəriş verdim ki, hərbçilərimizin intiqamı alınmalıdır, onların qanı yerdə qalmamalıdır və düşmənə elə bir zərbə endirilməlidir ki, onu uzun illər bundan sonra da yaddan çıxarmasın" söyləyən möhtərəm Prezidentimiz İlham Əliyev təxribat nəticəsində həlak olmuş general-mayor Polad Həşimovun və polkovnik İlqar Mirzəyevin qəhrəmanlığından bəhs etmişdir. "Xalqımız, dövlətimiz üçün bu cür övladlar, igidlər yetişdirən analara eşq olsun!" bildirən cənab İlham Əliyev bu mühüm məqamı da xüsusi diqqətə çatdırmışdır ki, onların həyatı, torpaq, Vətən uğrunda göstərdikləri şücaət, qəhrəmanlıq hər bir gənc üçün nümunə olmalıdır: "Biz fəxr edirik ki, Azərbaycan xalqı, Azərbaycan torpağı belə övladlar yetişdirib."

Müharibə şəraitində yaşayan ölkədə bu itkilərin olması, oğul və qızlarımızın Vətən, torpaq uğrunda öz canlarından keçərək şəhidlik zirvəsinə ucalmaları vətənpərvərlik kimi ali dəyərin mövcudluğunun göstəricisidir. Şəhidlik insanlığın, vətəndaşlığın ən ali zirvəsidir. Hazırkı dövrdə gənclərimizin vətənpərvərlik ruhunda yetişdirilməsindən bəhs edərkən Vətən, torpaq uğrunda canlarından keçmiş qəhrəman oğullarımızın həyat yolunu örnək kimi əzizləyib gələcək nəsillərə yetirmək ən müqəddəs borcumuz olmalıdır.

İyulun 12-də Ermənistanın Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz istiqamətində hərbi təxribatının qarşısını almaq üçün Milli Ordumuzun əsgərləri xalqımızın mənəvi varlığında, bütün milli ruhunda yaşayan qəhrəmanlıq ənənələrinə sadiqlik nümayiş etdirdilər. İyulun 14-də döyüş zamanı müdafiənin ön xəttində olan Azərbaycan Ordusunun general-mayoru Polad Həşimov, polkovnik İlqar Mirzəyev qəhrəmancasına həlak oldular. Orduda generallarla əsgərlərin bir cərgədə, ön sırada düşmənə qarşı vuruşduğunu əyani şəkildə təsdiq edən bu fakt göstərir ki, Azərbaycan Ordusunun generalı, polkovniki özlərini tabeliklərində olan hərbçilərdən fərqləndirmirlər, qarşıda duran tapşırığı yerinə yetirmək üçün öz canlarını belə qurban verməyə hazır olurlar. Azərbaycan xalqı belə qəhrəman generalları, zabitləri olan Milli Ordumuzla fəxr edir. Düşmən hücumları zamanı Azərbaycan Ordusunun iki mayoru, iki giziri və bir əsgəri də şəhid olub. Şəhidlərimizə Allahdan rəhmət, əzizlərinə səbr, dözüm diləyir, onları vətənpərvərlik ruhunda yetişdirən anaların, müəllimlərin qarşısında baş əyirik.

Əsgərlərimizin, eyni zamanda, təxribat zamanı həlak olanların qohum-tanışlarının qeyd etdiyi kimi, hər iki komandir peşəkarlığı, Vətən sevgisi ilə nümunə olub. Vətənpərvərlik duyğuları onlarda o qədər güclü olub ki, hərbi həyət qarşısındakı hər bir çıxışları əsgərlərimizdə döyüş ruhunu yüksəldib və onlar gərəkli anda düşmən üzərinə getməyə hazır olduqlarını bəyan ediblər. Yeri gəlmişkən qeyd etmək istərdim ki, polkovnik İlqar Mirzəyevin oğlu Elvin Mirzəyev rəhbərlik etdiyim Bakı Slavyan Universitetinin tələbəsidir. Bir ana, bir ziyalı, bir Azərbaycan vətəndaşı olaraq mən də şəhidlərimizin məzarını ziyarət etdim, dualar oxudum. Böyük yaradandan onların ruhuna rahatlıq dilədim. Elvinlə söhbətimdə onun atası kimi igid, vətənpərvər, qeyrətli oğullarımızla ancaq qürur hissi keçirdiyimizi, onların xatirəsinin bizim üçün canımız qədər əziz olduğunu söylədim. Möhtərəm Prezidentimiz, Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı İlham Əliyevin düşünülmüş və məqsədyönlü siyasəti, Ordumuzun gücü, qüdrəti sayəsində işğal altında olan torpaqlarımızın azad olacağını, müstəqilliyimizin qorunması, ərazi bütövlüyümüzün təminatı, torpaqlarımızın işğaldan azad edilməsi yolunda həyatlarını qurban verən oğul və qızlarımızın ruhunun şad olacağı günün uzaqda olmadığını böyük əminliklə bildirdim. Elvin Mirzəyevin qeyd etdi ki, şəhidlik hər adama qismət olmur. Onun adını da, şanını da həmişə əməllərim ilə uca tutacağam. Möhtərəm Prezidentimiz İlham Əliyev Nazirlər Kabinetinin iclasında bu məqamı da qeyd etmişdir: "Polkovnik İlqar Mirzəyevin oğlu Elvinlə bu gün söhbət zamanı atasının qəhrəmanlığı haqqında danışdım. Dedim ki, o, atasına oxşamalıdır, bizim bütün gənclərimiz qəhrəmanlarımıza oxşamalıdırlar."

Təəssüf ki, müharibələr, döyüşlər itkisiz olmur. Bu itkilər nə qədər ağrılı, acılı olsa da, o qədər də şərəflidir. Sevincimizin, fərəhimizin ünvanı bugünkü qüdrətli Azərbaycan və onun güclü ordusudur. Günbəgün ucalan, dünya birliyinin fəal üzvünə çevrilən, təşəbbüsləri gerçəkləşdirən Dövlətimiz, Vətənimiz Azərbaycan harada yaşamasından asılı olmayaraq hər bir azərbaycanlı üçün qürur, iftixar mənbəyi olmalı, onun gələcəyi naminə vətəndaşlıq təəssübkeşliyindən irəli gələn fədakarlığımızı, töhvələrimizi əsirgəməməliyik.

İyulun 14-15-də Azərbaycan Ordusuna dəstək məqsədilə keçirilən aksiya cəmiyyətimizdə vətənpərvərlik ruhunun yüksək olduğunu bir daha nümayiş etdirdi. Sözsüz ki, aksiya iştirakçılarının təəssübkeşliyi, ordu sıralarında qulluq etmək niyyətləri sevindirici və qürurvericidir. Orduya dəstək hər birimizin vətəndaşlıq borcudur. Bu aksiya Azərbaycan gəncinin milli ruhu, milli qeyrəti, böyüklərindən aldıqları qəhrəmanlıq dərslərinin şərəf verən nəticələridir. Lakin insan beyninə sığışdırmaq istəmir ki, vəziyyətdən sui-istifadə edib millətin, Vətənin bu sınaqlı günlərində ermənilərdən də betər öz içimizdə olan "insanlar" bu tədbirlərdə düşmənçilik toxumları səpmək niyyəti ilə addım atsınlar, gəncləri yoldan çıxarsınlar. Belələrinə ancaq və ancaq "ar olsun" deyirik. Minlərlə insan-xalq-ordu birliyindən ilham alanlar meydanlara axışır, dövlətə, orduya məhəbbətlərini, düşmənə etirazlarını bildirmək niyyətilə şüarlar səsləndirir, öz həmrəyliklərini izhar edirlər. Lakin sabitlik şəraitində davam edən yürüş birdən-birə istiqamətini dəyişib başqa yönümə keçir. Əhmədli qəsəbəsindən Milli Məclisin binasına qədər keçirilən yürüşün bir qrup iştirakçısı parlamentin binasına girir, digər qrup isə polis maşınını çevirir. Bu hərəkətlər artıq cızılan ssenarinin kimlərə məxsusluğuna, vətəndaşlıq təəssübkeşliyini itirib dövlətçiliyimizə, Ordumuza dəstək məqsədilə keçirilən birlik, həmrəylik yürüşündən öz çirkin niyyətləri üçün istifadə etməyə cəhd edənlərin mənəviyyatsızlığına işıq salır. İctimai fikrin çaşdırılmasına yönələn qızışdırıcı şüarların səsləndirilməsi ikrah doğurmaya bilməz. Xarici dairələrin əlində oyuncağa çevrilən, qul psixologiyalarının əlində əsir olan, dövlətin, xalqın maraqlarına arxa çevirən, öz şəxsi ambisiyalarını düşünən AXCP-nin nümayəndələri unudurlar ki, ən böyük cəza ictimai qınaqdır. Onları artıq çoxdan tanıyan bu cəmiyyətdə belə naqis düşüncəli şəxslərə yer yoxdur. Azərbaycanın uğurlu inkişafını həzm etməyən, müstəqil siyasətindən narahatlıq keçirən xarici anti-Azərbaycan dairələrin maraqlarının icrası ilə məşğul olan, "düşmən dəyirmanına su tökən" daxili bədxahlarımızın özləri unutsalar da, xalq onların fürsət düşdükcə ölkəmizdə qarşıdurma yaratmağa cəhd göstərdiklərini, Azərbaycanın imicinə zərbə vurmaq üçün gecəli-gündüzlü çalışdıqlarını unutmur. Hər dəfə belə ikrah doğuran cəhdlərinin qarşısı Azərbaycan dövləti tərəfindən qətiyyətlə alınıb. Milli mənsubiyyətlərini itirmiş, ali dəyəri yadlara satmış bu ünsürlər açıq-aşkar ermənilərlə işbirliklərini, ermənipərəst dairələrin sifarişləri əsasında hərəkət etdiklərini növbəti dəfə təsdiqlədilər. Görünür, erməni sevgilərindəndir ki, on minlərlə gəncin yürüşə çıxıb cəbhədə hələ də davam edən döyüşlərdə qəhrəmanlıq göstərən əsgərlərimizə dəstək olmaları, səsləndirilən "Ya Qarabağ, ya ölüm!" "Ali Baş Komandan, əmrini gözləyirik!" kimi şüarlar onları narahat edir. Çünki bu addımlar, çağırışlar müdafiəsinə qalxdıqları düşmən Ermənistana ideoloji bir zərbədir. Azərbaycana dünya dövlətlərindən və beynəlxalq təşkilatlardan böyük dəstəklərin daxil olduğu, Ermənistanın törətdiyi təxribatın pislənərək dünyaya işğalçı dövlətə qarşı sanksiyaların tətbiq edilməsinin zamanı olması ilə bağlı müraciətlərin ünvanlandığı, eyni zamanda, Azərbaycanın şəhidlər verərək böyük ağrılar, acılar yaşadığı bir vaxtda onların düşmən kimi baş qaldırmaları damarlarından azərbaycanlı qanı axdığına, ulu babalarının hansı millətə mənsub olduğuna şübhələr yaradır. Dahi Nizami beləıəri haqqında deyib:

***Düşməninlə dost olana***
***Sən də bax bir düşmən kimi,***
***İlan üstdə yatan milçək***
***Zəhərlidir ilan kimi...***

Unutmamalıyıq ki, Vətən, xalq üçün çətin, sınaqlı günlər iqtidar-müxalifət münasibətləri bir kənara qoyulub, xalqın, Vətənin çətin günlərində unudulmalı, əsl məqsəd düşmən üzərində qələbə çalmaq arzusu olmalıdır. Amma göründüyü kimi, hələ də bu iddialı ünsürlərin kreslo davaları davam etməkdə, onlar Azərbaycana qarşı qərəzli mövqedə dayanan dairələrin çirkin maraqlarının icraçı qulu olmaqdan məmnunluq hissi keçirməkdədirlər.

Bugünkü həyatımız tələb edir ki, Azərbaycana qarşı əsassız torpaq iddiası ilə çıxış edib 20 faiz torpaqlarımızı işğal altında saxlayan, bir milyondan artıq soydaşımızın qaçqın və məcburi köçkün vəziyyətində yaşamasına səbəb olan ermənilərin iç üzünü dünyaya açıb göstərən, Azərbaycan dövlətinin həqiqətlərinin təbliği istiqamətində ədalətli siyasətinə dəstək olmalıyıq. Dağlıq Qarabağ probleminin həlli istiqamətində əsas amillərdən olan təbliğat gündəlik işimiz olmalıdır. Çünki bu gün bütün dünya Azərbaycan həqiqətlərini bilməlidir.

İyulun 14-də gecə saatlarında yaşananlar 1990-cı illərdə baş verən hadisələri yenidən yada saldı. Belə ki, həmin gərgin hadisələr, anarxiya, özbaşınalıq və xaos yaxın tariximizdir və yaddaşlardan silinməyib. Bəzi siyasi qrupların, şəxslərin bir daha hərc-mərclik yaratmaq, ölkəmizi yenidən o dövrə qaytarmaq cəhdləri ciddi qınanılmalı, cəmiyyətimiz, ziyalılarımız, ictimaiyyət nümayəndələrimiz bu pozucu fəaliyyətə lazımi qiymət verməlidirlər. 90-cı illərin əvvəllərində hakimiyyətdə olan AXC-Müsavat cütlüyünün nümayəndələrinin özlərinin də etiraf etdikləri kimi, tanklar üstündə zorla hakimiyyətə gəliblər. Həmin ünsürlər bu gün də əvvəlki ssenarilərinə uyğun xəyanət planlarını həyata keçirməyə cəhd etməklə özlərinə qarşı yalnız nifrət artırırlar. Milli Məclisin binasının qapılarını sındıraraq içəri daxil olmaq, dağıntılar törətmək ikrah doğurur və bir daha isbat edir ki, bunlar ölkəni abad etmək deyil, öz iyrənc məqsədləri naminə bərbad etmək, lap xarabalığa çevirmək niyyətindən çəkinmirlər. Sual olunur ki, dünyanın dörd tərəfindən gələn əcnəbi qonaqların bəzən həsəd, bəzən fərəhlə izlədikləri bu ali qanunverici orqanın binasını yüksək səviyyədə tər töküb təmir edən, ərsəyə gətirən sizin atalarımız, qardaşlarımız, əzizlərimiz deyil mi? Bu xalqın əməyini, zəhmətini niyə məhv edirsiniz? Sizi bu barbarlığa təhrik edənlərin bu ölkənin abadlığında zərrə qədər haqqı olubmu? Cəbhədə Azərbaycan ordusu şücaət göstərib, erməni silahlı qüvvələrinin hücumlarının qarşısını qətiyyətlə alır, milli xəyanətkarkarlarımız ölkə daxilində təxribatlar törədərək dövlət əmlakını dağıdır, bəd əməllərini əks etdirən fotoları sosial şəbəkələrdə yerləşdirərək ermənilərə ölkəmizə qarşı ideoloji müharibə üçün şərait yaradırlar. Çünki onların rəzil hərəkətlərinə güc verən ermənilərin özləri də, dövləti iflasa uğradıb çıxış yolunu ara qarşıdırmaqda, atəşkəsi pozmaqda görən rəhbərləri də, Vətən çörəyini yeyib ona arxa çevirən daxili nankorlar da fürsətbazlıq siyasətinə sığınırlar. Unudurlar ki, bu siyasətin ifşası həqiqətin, qətiyyətin, müdrik siyasətin əlində çox asandır. Hazırda sərhəddə hərbi əməliyyatların getdiyi bir zamanda bir qrup ünsürün ölkədə iğtişaş törətmək cəhdi, ictimai-siyasi asayişin keşişçiləri olan polislərə qarşı zor tətbiq etməsi vətəndaşlıq mövqeyinə, qanunlarımıza ziddir, ən əsası şəhidlərimizin ruhuna hörmətsizlikdir. Ölkədə COVID-19-a, həmçinin cəbhədə erməni silahlı qüvvələrinə qarşı mübarizədə birliyə, həmrəyliyə ehtiyacın yarandığı bir zamanda bu çirkin əməllərə əl atmaqla heç bir şeyə nail olmaq mümkün deyil. Çünki Azərbaycan dövləti və Azərbaycan xalqı qüdrətli ağıla, təəssübkeşliyə, dəstəyə və sarsılmaz həmrəyliyə, mübarizə əzminə malikdir. Bu güclün qarşısında vaxtilə göstərdikləri "hünər"lərini bir daha işə salmaq gülünc bir hərəkətdir. Bu, özünü ağıllı hesab edən müxalifətə başucalığı gətirməz. Dövlətə, xalqa və onun milli ruhuna müxalifətdə dayanmaq bağışlanmazdır. Vətən birdir, harada yaşamasından, siyasi əqidəsindən, mənsubiyyətindən asılı olmayaraq hər kəs Azərbaycanın xoşbəxt gələcəyi üçün çalışmalıdır. Uğurlarımızdan qürur duymaq əvəzinə, narahatlıq keçirmək, nə yolla olursa-olsun onlara kölgə salmaq mənəviyyatsızlıq, vicdansızlıqdır. Unutmayaq ki, vətənpərvərlik hər kəsin daxilindəki ali duyğular, hər kəsin damarları ilə axan qanın təmizliyidir, Azərbaycan insanının zatının, xislətinin bütövlüyü, qırılmazlığıdır. Əgər bu yoxdursa, o insan mənəviyyatsızdır. Mənəviyyatını, insanlığını şəxsi ambisiyalarına qurban verib satan belələri bir reallığı da yaddaşlarına birdəfəlik həkk etsinlər ki, itirilmiş şərəfi, ləyaqəti düşmənlərdən gələn milyonların hesabına bərpa etmək mümkün deyil.

**Ardı Səh. 11**

# Fürsətbazlıq siyasətinin ifşası

**Əvvəli-Səh-10**

Azərbaycan güclü dövlətdir. Sabitlik, iqtisadi tərəqqi, yüksək rifah, ölkəmizin dünya birliyində möhkəmlənən mövqeyi, bir sözlə, yeni-yeni hədəfləri şərtləndirən möhkəm baza ən böyük sərvətimizdir. Bu sərvəti qorumaq hər kəsin vətəndaşlıq borcudur. Çünki bu uğurlarımız göydəndüşmə deyil, gərgin səylərin, əməyin, zəhmətin nəticəsidir. Bu abad, müstəqil ölkədə biz yaşayırıq. Övladlarımız pərvazlanır, ağ günlər görür. Azərbaycanın bugününü müstəqilliyimizin ilk illəri ilə müqayisə etdikdə bunu böyük inamla qeyd edirik ki, xalqın həyat tərzi, kökündən dəyişib, əminamanlığa, firavanlığa, xoşbəxtliyə qovuşub. Bu həyata çatanadək kipriyimizlə od götürmüşük. Müstəqilliyimizin qorunması, möhkəmləndirilməsi, daimi və əbədi olması üçün həsr olunanlar hər birimizin ömrümüzdən keçib. Dövlətçilik maraqlarına xələl gətirənlər, siyasi sabitliyi pozmağa cəhd edənlər qanun çərçivəsində cəzalandırılmalıdırlar. Hər kəs qanun qarşısında eyni məsuliyyəti daşımaqla yanaşı, onun tələblərinə yüksək səviyyədə əməl etməlidir. Möhtərəm Prezidentimiz cənab İlham Əliyev Nazirlər Kabinetinin iclasında "Xalq qəhrəmanı qeyd etmək, şəhidlərimizin ruhunu yad etmək üçün Şəhidlər xiyabanına gəldi. Hansısa yaramaz ünsürlər burada iğtişaş törədəcək? Bu olmayacaq. Onların fikri 1990-cı illərin əvvəllərinə getməsin. Azərbaycanın o vaxtkı hakimiyyətinin bədbəxtliyi də ondan ibarət idi ki, Xalq Cəbhəsi kimi çirkin, mənfur, qorxaq, satqın fərarilərdən qaçdı. O fərarilər ki, ondan bir il sonra hakimiyyəti qoyub qaçdılar" söyləyərək aidiyyəti orqanlara bu tapşırığını verdi: "Bütün

aidiyyəti qurumlara deyirəm. Əgər dünənki hadisələrdə onların əli varsa, bizim qətiyyətimizi görəcəklər. Onlar ermənidən də pisdirlər... Bu gün bu düşmənçiliyin başında dayanan Azərbaycan Xalq Cəbhəsidir, onun çirkin, satqın rəhbərləridir, özünü lider sayan qorxaqlar, fərarilərdir. Onlar artıq Azərbaycan xalqı tərəfindən dəfələrlə öz yerini görüblər və görəcəklər."

Bu qətiyyətli çıxışın mahiyyətində fürsətbazlıq siyasətinin ifşası durur və bir daha isbat edir ki, Azərbaycanın ən qüdrətli silahı onun dövlətinin dəmir məntiqində, təfəkküründə, öz siyasətinin doğruluğuna böyük inamında, müstəqil uğurlu fəaliyyətində, xalqla dövlət arasında yaranmış sarsılmaz məhəbbətin gücündədir.

## İlin sonunadək şəhid ailələrinə və müharibə əlillərinə 1500 mənzil veriləcək



Bu il sosial təminatın digər bir istiqaməti olaraq aztəminatlı ailələrə dəstək proqramları və şəhid ailələrinə, müharibə əlillərinə mənzil və avtomobillərin verilməsi proqramı davam etdirilib. İyulun 15-də Prezidenti İlham Əliyevin sədrliyi ilə keçirilən Nazirlər Kabinetinin 2020-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında çıxış edən Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev deyib: "Artıq bu günə 300 mənzil və 100 avtomobil bu kateqoriyadan olan insanlarımıza təqdim edilib. Karantin rejimi bitdikdən sonra daha 200 mənzil və 100 avtomobil hazırdır, onlar da şəhid ailələrimizə və müharibə əlillərinə təqdim olunacaq. Ümumilikdə ilin sonunadək 1500 mənzil və fərdi ev və 400 avtomobilin verilməsi planlaşdırılır. Eyni zamanda, tənha yaşayan ahıl şəxslərimizin sosial müdafiəsinin təmin edilməsi üçün 65 yaşdan yuxarı tənha ahılların hər biri nazirlik tərəfindən tam şəkildə sosial xidmətə götürüldü və ölkə ərazisi üzrə bu qəbildən olan 15 min insana sosial xidmətçilər tərəfindən gündəlik xidmət göstərilir".

Nazirin verdiyi məlumata görə, bir çox dövlət və özəl şirkətlərin təşəbbüsü ilə pandemiya dövründə 100 mindən çox ailəyə ərzaq payları təqdim edilib və bu işdə həm dövlət qurumları, həm də özəl şirkətlər çox aktiv rol oynayıblar.

# Azərbaycan xalqı hər zaman ümummilli məsələlərdə güclü birlik və həmrəylik nümayiş etdirir



*Milli Məclisin deputatı, akademik Nizami Cəfərovun yap.org.az-a müsahibəsi*

***- Nizami müəllim, son günlər işğalçı Ermənistan cəbhə bölgəsində təxribatlar törətməkdədir. Azərbaycan Ordusu bu təxribatlara layiqli cavab verdi. İyulun 15-dəNazirlər Kabinetinin 2020-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında Prezident İlham Əliyev baş verən hadisələrlə bağlı fikirlərini bildirib. Bu barədə nə deyə bilərsiniz?***

- Məlumdur ki, Ermənistan silahlı qüvvələri iyulun 12-dən başlayaraq Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz istiqamətində növbəti təxribat törədərək qəflətən hərbi postumuza artilleriya atəşi açıb və mövqelərimizi ələ keçirməyə cəhd göstərib. Düşmən tərəfin Tovuz istiqamətində törətdiyi təxribat nəticəsində bir neçə hərbiçimiz həlak olub və yaralanıb. Eyni zamanda, şəhidlər versək də, ordumuz bu dəfə də düşmənin hərbi bölmələrinə sarsıdıcı zərbələr endirib, dövlət sərhədlərimizi rəşadətlə qoruyub.

Ümumiyyətlə, bu gün Azərbaycanın Silahlı Qüvvələri dünyanın ən güclü orduları sırasındadır. Güclü Azərbaycan Ordusu düşmənin istənilən təxribatına, həmləsinə layiqli cavab vermək iqtidarındadır. Son illərdə biz bunun dəfələrlə şahidi olmuşuq. 2016-cı ilin Aprel döyüşləri, hazırda Azərbaycan-Ermənistan sərhədində baş verən hadisələrin fonunda müşahidə olunanlar bunu bir daha təsdiq edir. Bu günlərdə düşmən ölkənin mediasında, sosial şəbəkələrdə yayılan xəbərlərdən də məlum olur ki, Ermənistan Tovuz istiqamətində törətdiyi təxribatın layiqli cavabını alıb, canlı qüvvə və texnika sarıdan daha böyük itkilərə məruz qalıb.

Nazirlər Kabinetinin 2020-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında Prezident İlham Əliyev bildirib ki, görülmüş operativ tədbirlər nəticəsində Ermənistan ordusu layiqli cavabını aldı. Onlara sarsıdıcı zərbələr endirildi. Dövlət başçısının qeyd etdiyi kimi, onlarla erməni hərbçi məhv edildi, onların sərhədboyu yerləşən dayaq məntəqələrinin böyük hissəsi darmadağın edildi. Beləliklə, şəhidlərimizin qisası alındı.

Əlbəttə ki, bu döyüşlər Azərbaycan Ordusunun gücünü bir daha göstərdi. Bu döyüşlər işğalçılara növbəti xəbərdarlıqdır ki, Azərbaycan öz torpaqlarının işğalı ilə heç vaxt barışmayacaq. Erməni tərəfi başa düşməlidir ki, sülh yolu ilə, xoşluqla torpaqlarımızdan çıxmasalar ordumuz onlara öz yerini göstərəcək. Artıq ordumuzun gücünə də yaxşı bələddirlər.

***- Bugünlər Azərbaycan xalqı və cəmiyyəti dövlətimizə və ordumuza güclü dəstək nümayiş etdirdi. Bu amili necə dəyərləndirirsiniz?***

- Ümumiyyətlə, milli birlik, taleyüklü məqamlarda öz dövlətinin və Prezidentinin ətrafında sıx həmrəylik nümayiş etdirmək Azərbaycan xalqını səciyyələndirən əsas xüsusiyyətlərdəndir. Biz Azərbaycan xalqının ümummilli məsələlərdə bütün vahid mövqedən çıxış etməsinin dəfələrlə şahidi olmuşuq. Bu da son nəticədə dövlətimizin gücünü artıran mühüm strateji faktor qismində çıxış edir.

Xalqımızın sıx həmrəylik nümayiş etdirdiyi ümummilli məsələlərdən biri də Dağlıq Qarabağ problemidir. Dövlət və cəmiyyət bəhs olunan problemin həllində vahid mövqedən çıxış edərək prinsipial yanaşma ortaya qoyur - torpaqlarımız işğalçılardan təmizlənməli, ərazi bütövlüyümüz təmin olunmalıdır.

Azərbaycan Ordusunun Tovuz istiqamətində düşmən təxribatının qarşısını qətiyyətlə alması cəmiyyətdə yüksək əhval-ruhiyyə yaradıb. 2020-ci il iyulun 14-15-də Azərbaycan Ordusuna dəstək məqsədilə keçirilmiş aksiyalar cəmiyyətimizdə vətənpərvəlik ruhunun yüksək olduğunu bir daha nümayiş etdirdi. Aksiya iştirakçılarının vətənpərvərliyi, onların səfərbərlik elan olunması istəyi, ordu sıralarında qulluq etmək niyyəti sevindirici və qürurverici haldır. Müharibə şəraitində yaşadığımız indiki dövrdə orduya dəstək hər bir vətəndaşın borcudur və bu məqsədlə müxtəlif tədbirlər, aksiyalar keçirilə bilər. Eyni zamanda, bugünlər xalqımız şəhidlərimizə böyük ehtiram nümayiş etdirdilər.

Cənab Prezident Nazirlər Kabinetinin iclasında bildirdi ki, bizim ordumuzun uğurlu əməliyyatı və əldə edilmiş nəticələr, hərbi qələbə, təbii olaraq Azərbaycan ictimaiyyətində ruh yüksəkliyi yaratdı, xalqımızı coşdurdu. Sözsüz ki, bu məsələdə bütün xalqımız həmrəydir. Xalqımızın bir arzusu var ki, bu da torpaqlarımızın işğaldan azd olunması, məcburi köçkünlərin öz yurdlarına qayıtmasıdır. Bu yolda, vətəndaşlarımız döyüşə getməyə hazır olduğunu bildirirlər.

Yeri gəlmişkən, qeyd edim ki, hadisələr baş verən günlərdən millət vəkili kimi təmsil etdiyim Ağstafa rayonundayam. Rayon əhalisi bu hadsiələrlə bağlı Prezidentimizi və ordumuzu dəstəklədiyini qətiyyətlə bəyan edir. İnsanlar torpaqlarımızın azadlığı uğrunda döyüşə getmək üçün müraciət edirlər. Bilirsiniz ki, bu döyüşlərdə Ağstafa rayonu da şəhidlər verdi. Biz şəhidlərimizin dəfnində iştirak etdik, onların ruhu qarşısında baş əyirik. Ordumuz şəhidlərin qanını yerdə qoymadılar, onların qisasını aldılar.

***- Xalqın vətənpərvərlik ruhunu, orduya dəstəyini ifadə edən aksiyalardan öz məqsədləri üçün sui-istifadə edən dairələr də var. Buna münasibətiniz necədir?***

- Bu, təəssüf doğuran haldır. Bütün xalqımızın dövlətimizə, Prezidentimizə və ordumuza dəstək nümayiş etdirdiyi halda, kiçik bir qrupun təxribat törətməsi qəbul olunmazdır. Biz bu təxribatı iyulun 14-də gördük. Onların bu qanunsuz hərəkətləri düşmənlərimizin maraqlarına uyğundur. Eyni zamanda, sosial şəbəkələr vasitəsilə həm cəbhə xəttində, həm də paytaxtda arzuolunmaz proseslərin baş verməsi barədə yalan məlumatlar yayılıb. Şübhəsiz ki, bütün bu kimi cəhdlərin qarşısı qətiyyətlə alınmalıdır.

Sərhəddə hərbi əməliyyatlar getdiyi bir vaxtda bir qrup şəxsin Bakının küçələrində təxribat, qarşıdurma yaratmaq cəhdləri, Milli Məclisin binasına girərək binaya maddi ziyan vurması, polislərə qarşı müqavimət göstərilməsi vətəndaşlıq mövqeyinə və qanunlara ziddir, ən əsası,Vətən yolunda canını fəda edən şəhidlərin ruhuna hörmətsizlikdir.

Ölkəmizdə müstəqilliyimizin ilk illərində hərc-mərclik dövrü hər kəs yaddaşındadır. 1990-cı illərin əvvəllərində baş verən gərgin hadisələr, anarxiya, özbaşınalıq və xaos bizim yaxın tariximizdir və hələ də yaddaşlardan silinməyib. Bəzi siyasi qrupların, ayrı-ayrı şəxslərin bir daha hərc-mərclik yaratmaq, ölkəmizi yenidən o dövrə qaytarmaq cəhdləri ciddi qınaq doğurur. İndiki dövrdə cəmiyyətimiz səfərbər olunmalı, ziyalılarımız, ictimaiyyətin fəal nümayəndələri belə pozucu fəaliyyətə lazımi qiyməti verməlidirlər. Cənab Prezidentin Nazirlər Kabinetinin iclasında dediyi kimi, bu hadisəyə hüquq müstəvisində qiymət veriləcək, təxribatı törədənlər qanun qarşısında cavab verəcəklər.

Azərbaycan güclü dövlətdir. Respublikamızda əldə olunmuş təhlükəsizlik, əmin-amanlıq, sabitlik, inkişaf və sosial rifah müstəqillik dövrümüzün ən böyük nailiyyətləridir. Biz xalqımızın əyilməz iradəsi, uzun illərin əziyyəti və zəhməti, şəhidlərimizin qanı bahasına qazandığımız uğurları hər vəchlə qorumalı, inkişaf etdirməli və istənilən pozuculuğa qarşı öz vətəndaş mövqeyimizi nümayiş etdirməliyik. İstər pandemiya ilə mübarizədə, istərsə də cəbhədə düşmənə qarşı birlik, həmrəylik, güclü milli iradə nümayiş etdirmək zəruridir. Bu yolda bütün səylərimizi səfərbər etməliyik.

# İFŞA: AXCP-çilər bir-birlərinin kartlarını açırlar!

## Trol şəbəkəsi pul davası üstündə qırğına çıxıb

***"Milli Şura"nın ardınca, artıq AXCP-də də qeybət, ittiham və qarşıdurma faktları üzə çıxmağa başlayıb. Belə ki, Azərbaycan xalqının cəbhədə erməni təxribatının qarşısının alınması üçün vahid və ümummilli maraqlardan çıxış etdiyi, Ali Baş Komandanın ətrafında çıxış etdiyi, eləcə də səfərbərlik üçün hazır olduqlarını bəyan etdikləri bir vaxtda, Əli Kərimlinin partiyasında pul və mənfəət davası baş-alıb getməkdədir. SİA xəbər verir ki, bunu heç mətbuat da yaymır, bunu yayan elə cəbhəçilərin özləridir. Əgər onların Facebook sosial şəbəkələrinə nəzər salsaq daxildəki vəziyyətlərinin nə qədər rüsvayçı, biabırçı olduğunu çox rahat şəkildə müəyyən edə bilərik.***




Cəbhəçi trol: "Qruplaşma var, Nicatgil bir tərəfdən, Cabbargil bir tərəfdən, Məhəmməd İmanlı bir tərəfdən..."

Cəbhəçi trollardan birinin yazdığına görə, 17 nəfərə 180 dənə profilləri var və onun bu məsələni açması arxasından belə nəticəyə gəlmək olar: Onlar Ə.Kərimlinin nəzarəti altında qul kimi işlədilir, lakin bunun müqabilində ya heç nə almırlar, ya da aldıqları necə deyərlər, çörəkpulunu da ödəmir. Ona görə də 17 nəfərin 180 profil işlətdiyini önə çəkərək, AXCP sədri Əli Kərimlinin diqqətini buna yönəltməyə, pullarını tələb etməyə çalışırlar.

Bəxtiyar İmanov isə yazır ki, AXCP-nin gənclər komitəsinin sədri Emil Səlimov "qrubıy" (kobud) adamdı, özünü iqtidarda baş nazir kimi aparır, başı qarışıb qıza, gənc üzvlərimizlə işləmir, vəziyyət xaotikdir: "Qruplaşma var, Nicatgil bir tərəfdən, Cabbargil bir tərəfdən, Məhəmməd İmanlı bir tərəfdən", yazan cəbhəçinin sözlərinə görə, digər rayon təşkilatlarında da vəziyyət eyni cürdür.

"Əli Kərimlini fitvala ki, Emil işləmir, Seymur Həzi də, Fuad Qəhrəmanlı da qələt eləyir başını daşa döyür"

SİTAT: "Akif də Binəqədi şöbəsin dağıtdı. Sən danışanda Əli Kərimlini fitvala ki, Emil işləmir, Seymur Həzi də, Fuad Qəhrəmanlı da qələt eləyir başını daşa döyür. Mənim adım olandan sonra hamısı qələt edir, hamısının yaralı yerləri, zibil işləri var, başları daşa dəyib, xəbərdaram olanlardan. Sənə qardaşın bir şey öyrətsin də, pul yığmaq istəyəndə Əlizaminin ailəsinə dəyməyə gedilir, bazarlıq olunacaq deyin, o adla istəyin ki, versinlər..."

Göründüyü kimi, fakt göz qarşısındadır və onların məqsədləri nə dövlətçilik maraqlarının müdafiəsi, nə demokratiya, nə prüalizm nə də digər məsələlərdən ibarətdir. Onların məqsədləri yalnız hansı yolla olursa-olsun - hətta ən kirli, rüsvayçı yollarla olsa belə pul qazanmaq, mövqe savaşı aparmaq, lazım gələrsə, "liderlərinə", rəhbərlikdəki şəxslərə söyüş söyüb, təhqir etməkdir ki, bu halların baş verməsi təəccüb doğurmur. Bir partiyanın sədri ki, sözü ilə əməlini uzlaşdıra bilmir, partiyası daxilindəki xaotik vəziyyəti aradan qaldırmaq imkanına malik deyil, bu zaman həmin partiyanın nə xalqa, nə də dövlətə hər hansı səmərə verəcəyindən ümumiyyətlə danışmağa dəyməz.

**Rövşən RƏSULOV**

# Politoloq: "Ermənistan öz daxili problemləri qarşısında aciz qalaraq çıxış yolunu təxribatda görür"



***Ermənistan hərbi bo?lmələrinin növbəti dəfə təxribata əl atması və Azərbaycan-Ermənistan do?vlət sərhədinin Tovuz istiqamətindəki mo?vqelərimizi ələ kec?irməyə cəhd go?stərməsi işğalçı ölkənin təxribatlara meyilli olmasından irəli gəlir. Bu fikri AZƏRTAC-a açıqlamasında politoloq Tofiq Abbasov deyib.***

Politoloq bildirib ki, iyulun 12-dən başlayaraq Ermənistan silahlı qüvvələrinin Azərbaycan dövlət sərhədini pozmağa cəhd göstərməsi müəyyən suallar doğurur. Bu təxribat nəyə lazım idi? Burada, sadəcə, bir həqiqət var: Ermənistan diqqəti yayındırmaq üçün müharibə istəyir. Azərbaycan Ordusu yüksək döyüş ruhu nümayiş etdirərək əks-hücum nəticəsində düşmənə ağır zərbə vurdu. Düşmən layiqli cavabını alaraq canlı qüvvə, texnika sarıdan xeyli itki verərək geri oturduldu. Təbii ki, bu, müharibədir, hər iki tərəfdən itkilər var. Amma qarşı tərəfin itkisi daha çoxdur. Ermənistan qorxaqlıq edərək itkilərlə bağlı ictimaiyyəti düzgün məlumatlandırmır. Burada məkrli plan ondan ibarətdir ki, düşmən artıq Qarabağda deyil, Ermənistanın ərazisində çaxnaşma yaratmaq, vəziyyəti gərginləşdirərək Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatını (KTMT) bu məsələyə cəlb etmək istəyir. Düşmənin planı məhz bundan ibarətdir. Çünki hadisələrin gedişi bunu deməyə imkan verir. Belə ki, iyulun 12-də Tovuzda hərbi təxribat törədildi, ertəsi gün, iyulun 13-də isə düşmən Naxçıvan sərhədində fəallaşmağa başladı. Belə aydın olur ki, Ermənistan təxribat törətməklə Azərbaycanı daha miqyaslı cavablar verməyə cəlb etmək istəyir. Ermənistan öz ərazisində gərginlik yaratmağa və KTMT-nin 5-ci maddəsindən yararlanmağa çalışır.

Politoloq deyib: "Ermənistan gözəl başa düşür ki, Azərbaycanın zərbələri qarşısında duruş gətirə bilməyəcək. İşğalçı ölkə öz daxili problemlərinin qarşısında aciz qalaraq çıxış yolunu təxribatda görür. Məqsəd erməni xalqının, ictimaiyyətinin diqqətini yayındırmaqdır.

Ermənistan KTMT-yə müraciət edərək ölkədə vəziyyətin gərgin olduğunu bildirib və təcili surətdə fövqəladə iclasın çağırılmasını xahiş edib. Bunun üstündən bir saat keçməmiş Ermənistanın Rusiyadakı səfiri bu barədə yenidən təşkilata müraciət ünvanlayır. Təşkilatda Ermənistanın işğalçı, təxribatçı, qeyri-sabit mövqeyi artıq hər kəsə bəllidir. Təşkilatın üzvlərindən Rusiya, Belarus, Qazaxıstan və digərləri Azərbaycana böyük hörmətlə yanaşır və ölkəmizi dəstəkləyirlər".

Ermənistanın məkrli planlarından danışan T.Abbasov diqqətə çatdırıb ki, Azərbaycanın Dağlıq Qarabağ ərazisini və ətraf 7 rayonunu işğal altında saxlayan Ermənistan yeni münaqişə zonaları yaratmaq istəyir, məhz bu məqsədlə də təxribata əl atır. Əgər Azərbaycanın sərhədi pozmaq niyyəti olsaydı, asayişi, təhlükəsizliyi qorumaq üçün sərhəd qoşunlarını oraya yerləşdirməzdi. Halbuki Ermənistan tərəfindən bu missiya nizami orduya həvalə edilib. Düşmən Naxçıvanda da təxribat yaratmaqla Azərbaycana psixoloji cəhətdən təzyiq göstərmək istəyir. Məqsəd aydındır.

"Azərbaycan Prezidenti İlham Əliyev Ermənistanın təxribatına öz münasibətini bildirdi. Təhlükəsizlik Şurasının iyulun 13-də keçirilən iclasında məsələyə siyasi və hüquqi qiymət verildi. Dövlət başçısının qeyd etdiyi kimi, beynəlxalq təşkilatlar bu məsələ ilə ətraflı məlumatlandırılacaq. Beləliklə, Ermənistanın daha bir təxribat planı fiaskoya uğradı. Bununla Ermənistan iki ölkə arasındakı münasibətlərə daha bir zərbə vurdu. Əgər onlar müharibə istəyirlərsə, bunu alacaqlar. Azərbaycan öz ərazi bütövlüyünü əvvəl-axır təmin edəcək. Ordumuzun işğal edilmiş torpaqlarımızı azad etməyə gücü və qüvvəsi kifayət edir. Biz işğalçı Ermənistanı mütləq sülhə məcbur edəcəyik. Bununla da Azərbaycan düşmənə bir daha torpaqlarımızda təxribat törətməyə, gərginlik yaratmağa imkan verməyəcək", - deyə Tofiq Abbasov vurğulayıb.

## "Belə ünsürləri nə torpaq, nə Vətən, nə də şəhid düşündürmür"



"İnsanların prezdentə və orduya dəstək üçün küçələrə çıxması, həmçinin torpaqlarımızın işğaldan azad olunması üçün səfərbər olmağa hazır olduqlarını ifadə etmələri dövlət və xalq birliyinin göstəricisidir". Bunu SİA-ya millət vəkili Azər Badamov deyib.

Onun sözlərinə görə, Ordumuz düşmənlə üz-üzə dayanıb qəhrəmancasına vuruşur: "Nəinki sərhəddə, hətta düşmənin dərinliklərdə yerləşən dayaq nöqtələri məhv edilir. Düşmənə kifayət qədər ağır zərbələr endirilir. Ordumuzun generalı da, zabiti də əsgərlə ön cəbhədədir. Şəhidləri xalqımız böyük coşqu ilə son mənzilə yola salır. Lakin bir qrup adam orduya dəstək yürüşündə təxribat törədməyə cəhd etdi. Milli Məclisin inzibati binasınasına daxil olmaq nəyə lazım idi? Əslində içəri daxil olan insanların niyyəti məlum idi. Belə ünsürləri nə torpaq, nə vətən, nə də şəhid düşündürmür. Onların öz məqsədləri var. Bu məqsəd ölkəni daxildən zəiflətmək və parçalamaq, düşmən dəyirmanına su tökməkdir. Düşünürəm ki, cinayətkar ünsürlər və onlara tapşırıq verənlər tez bir zamanda müəyyənləşəcək və qanunun ən ağır cəzası ilə cəzalandıracaqlar".

# Milli QHT Forumu bəyanat yaydı

Azərbaycan Milli QHT Forumu Parlamentin binası önündə keçirilən dəstək aksiyası zamanı baş verən təxribatlarla bağlı bəyanat yayıb. SİA həmin bəyanatı təqdim edir: İyulun 12-dən etibarən Azərbaycan-Ermənistan sərhədinin Tovuz istiqamətində Ermənistanın hərbi təxribatı nəticəsində başlayan şiddətli döyüşlər davam etməkdədir. 14 iyun tarixdə minlərlə insan Azərbaycan Ordusuna, Ali Baş Komandana və dövlətə dəstək məqsədilə, paytaxtın müxtəlif ərazilərində Dağlıq Qarabağın və işğal altında olan digər torpaqlarımızın azad olunması ilə bağlı şüarlar səsləndirərəkizdihamlı yürüş ediblər. Bu yürüş, dövlətçiliyimiz ətrafında milli birliyin göstəricisi, həmrəyliyin yüksək formada nümayişi, işğalçı düşmənə qarşı ciddi mesaj idi.

Bütün yuxarıda qeyd olunanlarlayanaşı, bir qrup şəxs yürüşündən sui-istifadə edərək, təzyiqlə Parlamentin binasına daxil olmuş və təxribat törətmişlər. Sözsüz ki, bu təxribat, Azərbaycanın uğurlarını həzm edə bilməyən dairələrin, istənilən vəziyyətdən öz çirkin niyyətləri üçün yararlanmağa çalışan qrupların növbəti antimilli fəaliyyətinin nəticəsi idi. Onu da qeyd edək ki, dəstək aksiyasını iştişaşa çevirmək istəyən, Milli Məclisin binasına girərək vandallıq törədən, polislərə qarşı zor işlədən, təhrikçi çağırışlar səsləndirən həmin şəxslər cinayət məsuliyyəti daşıyıcılarıdır.

Sıralarında 730 QHT-ni birləşdirən Azərbaycan Milli QHT Forumu olaraq, təxribatçılara qarşıqəti etirazımızı bildirir, belə çətin və məsuliyyətli anda millətə və dövlətə qarşı xəyanət yolu tutanları şiddətlə qınayırıq. Həmin gün orduya dəstək yürüşü fonunda təxribatçılardan biri Rəşad Məmmədov təxribat xarakterli video yayaraq, dezinformativ məlumatlarla insanlar arasında panika yaratmağa çəhd göstərmişdir. Biz ölkəmizin hüquq-mühafizə orqanlarına müraciət edərək, Rəşad Məmmədova və digərtəxribatçılara qarşı, qısa zamanda inzibati hüquq qaydalarına uyğun olaraq müvafiq tədbirlərin görülməsini xahiş edirik.

# Ermənistanda itkilərə görə etirazlar başlandı!





Sərhəddə baş verən döyüşlərdə itkilərini gizlədən Ermənistanda narazılıq yaşanır. SİA-nın məlumatına görə, Marine Manuçaryan adlı bloger "aprel müharibəsi"ndə Azərbaycanın əraziləri azad etməsini xatırladaraq, Paşinyana yaxın qrupları tənqid edib. "Buna inanmayacaqsınız, amma 800 hektar (əslində 2000 hektar ərazi azad olunub-red) itirildikdən sonra Jirayr Sefilyan Tavuş xəttində irəli getmək istəyir", - erməni fəal yazır.

Qeyd edək ki, erməni hərbi birləşmələrinin Tovuz istiqamətində təxribat hücumu işğalçı ölkənin yüzlərlə hərbiçinin və çoxsaylı texnikasının məhv edilməsi ilə nəticələndi. Buna səbəb öldürülən erməni hərbçilərin ailələrinə yardımın edilməməsidir.

Sosial şəbəkələrin erməni seqmentində bu məsələ ətrafında iki qrup var: bir qrup keçmiş müdafiə naziri Viqen Sarkisyanın dövründə yaradılan və orduya dəstək məqsədilə hər kəsdən toplanan 1000 dramın yığıldığı fondun ölən və yaralanan hərbçilərə maliyyə yardımı ayırmasını tələb edir, hakimiyyətə yaxın digər qrup isə buna qarşı çıxır və bildirirlər ki, "bizim mübarizəmiz var". Erməni fəal Marine Manuçaryan Feysbuk səhifəsində bu haqda yazır: "Son döyüşlərdə öldürülən və yaralanan hərbçilərin ailələrinə kompensasiyasının verilməsinə qarşı çıxırlar. Burada deyərlər ki, 29 ildir respublikamız var, həmişə qaraçı olmusunuz və qaraçı olaraq qalacaqsınız".

# Düşmənin qorxusu və etirafı...

*"Aravot"un redaktoru: "Paşinyan özünün sülh çağırışları, lift danışıqları və Rusiyayla pozulmuş münasibətləri ilə bizi müharibənin astanasında qoydu"*



Ermənistanın təcavüzkar və işğalçılıq siyasəti ölkə KİV-lərində müxtəlif aspektlərdə şərh olunmaqdadır. Düzdür, ermənilər məhz erməniçilik baxışından çıxışlar edərək, yerə vurulmuş kürəklərinin etirafını etmək istəməsələr də, sətiraltı ifadələrdə məğlub olduqlarını da gizlədə bilmirlər. Eyni zamanda, müxalifətin iqtidarı, iqtidarın isə müxalifəti hədəfə alması erməni xalqının, hətta bu məsələdə də bir yerdə olmadığını açıq-aydın hiss etdirir. Həmçinin, son günlər sosial şəbəkələrin erməni seqmentərində çoxsaylı canlı və texniki itkilər barədə məlumatların yayılması, cəbhə bölgələrindən zabit və əsgər heyətlərinin qaçmaları, fərarilik etmələri kimi məsələlər də artıq işğalçı ölkənin hansı vəziyyətdə olmasından kifayət qədər xəbər verməkdədir.

İronik münasibət: "Aprel müharibəsi zamanı hər şey pis idi, hər şey oğurlanmış və talan edilmişdi, biz məğlub olduq, lakin indi mələkciyəzlər gəliblər, iki ilə hər şey düzəldi və hər şey yerbəyerdir".

"Tavuşda baş verən olaylar hər zamankı kimi iki düşərgədə diametral olaraq təzadlı şərhlərə gətirib-çıxarıb". SİA xəbər verir ki, bu barədə Ermənistanın "Aravot" nəşrinin redaktor sütununda dərc edilən "Tavuş dərsləri" başlıqlı məqalədə yazılıb. O, ironik münasibət sərgiləyib və yazıb. SİTAT: "İqtidar düşərgəsi: "Aprel müharibəsi zamanı hər şey pis idi, hər şey oğurlanmış və talan edilmişdi, biz məğlub olduq, lakin indi mələkciyəzlər gəliblər, iki ilə hər şey düzəldi və hər şey yerbəyerdir".

Müxalifət düşərgəsi: "Paşinyan özünün sülh çağırışları, lift danışıqları və Rusiyayla pozulmuş münasibətləri ilə bizi müharibə astanasında qoydu".

Nəşrin redaktoru xatırladır ki, o Aprel müharibəsi barədə çox yazıb və eyni zamanda həmin vaxtlar danışılan miflər barədə də fikirlərini vərəqə köçürüb. "Əgər bizim hərbçilər bu gün deyirlərsə ki, onlar üçün əvvəlki uğursuzluqlardan dərs çıxarmaq amili mövcud deyil, bu zaman onlar kifayət qədər peşəkar deyillər"

SİTAT: "Məsələ ondadır ki, hərbi əməliyyatlar zamanı bəli, bizim zəif tərəflərimiz üzə çıxdı və onlardan çoxu mövcud və əvvəlki hakimiyyətlərin boynundadır, xüsusilə müdafiə nazirləri Seyran Ohanyanın, Vigen Sarqsyanın və David Tonoyanın... Əgər bizim hərbçilər bu gün deyirlərsə ki, onlar üçün əvvəlki uğursuzluqlardan dərs çıxarmaq amili mövcud deyil, bu zaman onlar kifayət qədər peşəkar deyillər".

Erməni redaktor müxalifəti də hədəfə alaraq yazır ki, kimin nə deməyindən, hətta fövqəldövlətlərin bəyanatlarından asılı olmayaraq bilmək lazımdır ki, Azərbaycan təhlükəsi mövcuddur və əvvəlki, indiki, gələcək hakimiyyətləri ittiham etmək sadəcə təbliğat sahəsində var-gəl etməkdən başqa heç nə deyil. O, iddia edib ki, Azərbaycan əvvəl də hücum edib, bundan sonra da hücum mövqeyində olacaq və baxmayacaq ki, "erməni dövlətlərindəki" (dırnaqlar bizimdir-R.N.) hakimiyyətdə kimlər olacaq.

"Müxtəlif və istənilən diplomatik vasitələrdən istifadə edərək atəşkəs rejiminin bərpasına nail olunmalıdır"

Başqa tərəfdən, söz yox ki, "Aravot"in redaktoru düşmənçilik və erməniçilik mənfəətindən çıxış edir və onun qeyd edilən həqiqətlərlə yanaşı, ermənilərə xas yalanları da şərh etməsi təəccüb doğurmur. Məsələn, erməni redaktor iddia edərək yazır ki, Azərbaycanın lideri dəqiq şəkildə və nəyə görə bunu etdiyini açıqlayıb: "Onun ölkəsinin və Türkiyənin məqsədi "erməni dövlətçiliyini" məhv etməkdir (?!-R.N.)

Erməni redaktor yazır ki, hakimiyyət müharibə ilə yanaşı, həm də sülh yollarının axtarışında olmalıdır: "Müxtəlif və istənilən diplomatik vasitələrdən istifadə edərək atəşkəs rejiminin bərpasına nail olunmalıdır". Belə yerdə isə, atalarımızın bir məsəli yada düşür. İtdən soruşurlar ki, niyə hürürsən? Deyir, qorxuram. Soruşanda ki, bəs nəyə görə quyruğunu bulayırsan? Deyir, qorxuram...

***Rövşən NURƏDDİNOĞLU***

# İtaliya mətbuatı: Ermənistanın son təxribatları Azərbaycanın strateji tərəfdaşı olan İtaliyanı narahat edir



İtaliyanın tanınmış "L'Opinione" qəzetində jurnalist Domeniko Letizianın 12 iyul tarixindən başlayaraq Ermənistan-Azərbaycan sərhədi boyunca Ermənistanın həyata keçirdiyi təxribatlarına İtaliyanın hakim siyasi-ictimai dairələrinin və tanınmış siyasətçilərinin reaksiyası, İtaliyanın Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasına dair mövqeyi, eləcə də münaqişənin nizamlanmasının, o cümlədən son hərbi təxribatların qarşısının alınmasının İtaliyanın maraqları baxımından əhəmiyyətinə dair məqaləsi dərc olunub. SİA-nın verdiyi məlumata görə, müəllif məqaləsində Azərbaycanın Dağlıq Qarabağ bölgəsi və ətraf 7 rayonu olmaqla ölkəmizin beynəlxalq səviyyədə tanınmış ərazilərinin 20 faizinin Ermənistan silahlı qüvvələrinin hərbi işğalı altında olduğunu, Tovuz istiqamətində Ermənistan hərbi qüvvələrinin həyata keçirdiyi təxribatların Ermənistanın Azərbaycana qarşı təcavüzünün yeni dalğası olduğunu bildirir, son təxribatların gətirib çıxartdığı tələfatlara diqqəti çəkir və Prezident İlham Əliyevin Təhlükəsizlik Şurasının iclasında son hadisələrlə bağlı fikirlərinə istinad edir.

Məqalədə Azərbaycan Prezidentinin Ermənistan hakimiyyətini riyakarlıqda ittiham edərək baş verənlərə görə tam məsuliyyəti erməni tərəfinin daşığını, Ermənistanın bir tərəfdən beynəlxalq ictimaiyyətə müraciət edərək Ermənistan-Azərbaycan qoşunlarının təmas xəttində atəşkəs rejiminin möhkəmləndirilməsi üçün kömək xahiş etdiyini, digər tərəfdən isə hərbi təxribatlar törədərək Azərbaycan ərazisinə basqın etmək, Azırbaycan mövqelərini zəbt etmək istədiyini, mülki əhalini, kəndlərimizi atəşə tutduğunu bildirdiyini vurğulayıb.

Məqalədə İtaliyanın ATƏT-in Minsk Qrupunun üzvü kimi həmişə münaqişənin siyasi həllini dəstəklədiyini, Prezident İlham Əliyevin İtaliyaya dövlət səfəri zamanı imzalanmış "Azərbaycan Respublikası ilə İtaliya Respublikası arasında Çoxşaxəli Strateji Tərəfdaşlığın Gücləndirilməsinə dair Birgə Bəyannamə"də tərəflərin bir-birinin müstəqilliyini, suverenliyini, ərazi bütövlüyünü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinə dəstəyini, dövlətlərarası münasibətlərdə təcavüz aktlarının yolverilməzliyini təsdiq etdiklərini, habelə həmin sənəddə İtaliyanın Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin Helsinki Yekun Aktının təməl prinsipləri, xüsusilə suverenlik, ərazi bütövlüyü və beynəlxalq sərhədlərin toxunulmazlığı əsasında, BMT və ATƏT-in müvafiq sənəd və qərarlarında təsbit olunduğu kimi sülh yolu ilə nizamlanmasını dəstəklədiyinin ifadə olunduğu bildirir.

Müəllif məqaləsində, habelə Ermənistanın son təxribatlarının İtaliya hakim-siyasi dairələrində yaratdığı narahatlığa diqqəti çəkir, eləcə də münaqişənin həllinə münasibətdə İtaliya hökumətinin, parlamentinin üzvlərinin, tanınmış icimai-siyasi xadimlərinin verdikləri açıqlamalara yer verir. Bu xüsusda, müəllif İtaliya xarici işlər və beynəlxalq əməkdaşlıq naziri Luici Di Maionun öz azərbaycanlı həmkarına telefon zənginin İtaliyanın narahatlığından irəli gəldiyini bildirir, eləcə də Senatın Xarici əlaqələr daimi komissiyasının sədri, 5 Ulduz Hərəkatı partiyasından olan senator Vito Petroçelli, İtaliya Respublikasının Nazirlər Şurasının Parlamentlə Əlaqələr üzrə dövlət katibi, 5 Ulduz Hərəkatı partiyasından olan senator Canluka Kastaldi, İtaliyanın ATƏT Parlament Assambleyası yanında nümayəndə heyətinin sədri və Deputatlar Palatasının Xarici əlaqələr daimi komissiyasının sədr müavini, Liqa partiyasından deputat Paolo Qrimoldi, İtaliya Parlamentində Azərbaycanla Parlamentlərarası Dostluq Qrupunun sədri, Liqa partiyasından senator Stefano Luçidi, İtaliya Parlamentində Azərbaycanla Parlamentlərarası Dostluq Assosiasiyasının sədri, Liqa partiyasından deputat Rossana Boldi və İtaliya Senatının "İrəli İtaliya" partiyasından olan üzvü, İtaliya-Azərbaycan Parlamentlərarası Dostluq Assosiasiyasının sədr müavini, senator Maria Rizzotti, İtaliya Senatının "Yaşasın İtaliya" partiyasından olan üzvü, senator Mauro Maria Marino, Deputatlar Palatasının Xarici əlaqələr komissiyasının üzvü, "İrəli İtaliya" partiyasından olan deputat Osvaldo Napoli, İtaliyanın sabiq xarici işlər naziri, "Marco Pannella" Hüququn Aliliyi Qlobal Komitəsinin prezidenti Culio Terzinin İtaliya mətbuatına açıqlamalar verərək Ermənistan silahlı qüvvələrinin təxribatlarını və Azərbaycan ərazilərinin işğalını pislədiklərini, Azərbaycanın ərazi bütövlüyünə və beynəlxalq səviyyədə tanınmış sərhədlərinə hörmət edilməsinin və BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul olunmuş qətnamələrinin yerinə yetirilməsinin vacibliyini vurğuladıqlarını qeyd edir. Həmin şəxslərin öz açıqlamalarında silahlı qarşıdurmaların baş verdiyi Tovuz rayonu ərazisindən İtaliyaya da neft nəql edən Bakı-Tbilisi-Ceyhan neft kəmərinin və Cənub Qaz Dəhlizinin başlanğıcını təşkil etməsi baxımından maraq doğuran Cənubi Qafqaz boru kəmərinin keçdiyini vurğuladıqlarını bildirir.

Müəllif məqaləsində Ermənistan-Azərbaycan münaqişəsinin və Azərbaycan ərazilərinin işğalının Cənubi Qafqazda sabitliyə və təhlükəsizliyə başlıca təhdid olduğunu, beynəlxalq təşkilatlar tərəfindən çoxsaylı sənədlərin qəbul olunmasına baxmayaraq, Ermənistanın öz qoşunlarını işğal olunmuş ərazilərdən çıxartmaq əvəzinə öz hərbi aktlarını davam etdirdiyini qeyd edir. Yazıda karbohidrogen ehtiyatları, o cümlədən təbii qazla zəngin olan, Bakı-Tbilisi-Ceyhan neft kəməri və Cənub Qaz Dəhlizinin tərkib hissəsi olan və İtaliyanın Puliya regionuna qədər uzanan TAP boru kəmərinin təchizatçısı olan Azərbaycanın Avropa Birliyinin enerji təhlükəsizliyi strategiyasını həyata keçirməsi üçün əhəmiyyətindən bəhs olunur. Məqalədə Azərbaycanın İtaliyanın güclü iqtisadi və ticari əlaqələrə malik strateji tərəfdaşı və bölgədə əsas istinad nöqtəsi olduğu və münaqişənin yenidən alovlanmasının İtaliyanı və beynəlxalq ictimaiyyəti narahat etməli olduğu vurğulanır.

Məqalə ilə aşağıdakı keçidlə tanış olmaq mümkündür: http://www.opinione.it/esteri/2020/07/15/domenico-letizia_armenia-azerbaigian-nagorno-karabakh-tovuz-dondar-gushchu-aliyev-italia-castaldi-petrocelli-rizzotti-marino-napoli-boldi-lucidi/

# Vətəni, milləti satanlar nə haqla vətənpərvərlikdən dəm vurur?

*Yaxud Əli Kərimli xalqın orduya, dövlətə dəstək yürüş-mitinqindən yararlanmaq istəməsi təəccüb də doğurmur*

***Ömər Xəyyama görə, ''İnsanın ruhu və əxlaqı nə qədər alçaq olarsa, burnunu bir o qədər dik tutar''. Səbəb aydındır. Satqın zehniyyəti nədən qaynaqlanır? Əlbəttə, maliyyə-pul arqumenti? Satqın yalnız məntiqləmi düşünür? - suallarına mütləq olmasa da, elmi cavablar var. Alınan nəticələr göstərir ki, sən demə, işin kökü yalnız acgözlük və pul deyil. Kimsə doğrudan da varlanmaq üçün xəyanətinə əvəz olaraq pula satılır. Məhz buna görə - xəyanətin qiyməti "yüksəkdir". Satqın üçün hər şey - satlıq maldır, Əli Kərimli kimilər üçün.***

İyulun 12-də Ermənistan silahlı qüvvələri Ermənistan-Azərbaycan sərhədinin Tovuz rayonu istiqamətində atəşkəsi pozaraq, Azərbaycan ordusunun bölmələrini, rayonun yaşayış məntəqələrini atəşə tutublar. Təbii ki, ordumuz Ermənistanın bu təxribatının da qarşısını alıb və ermənilər öz yerlərinə geri otuzdurulub. Azərbaycan Ordusunun dəqiq zərbələri nəticəsində Ermənistan silahlı qüvvələrinə məxsus dayaq məntəqəsi, ağır texnika və çoxsaylı hərbçi məhv edilib. Bu, qürurverici deyilmi? Bu cür igid, mərd hərbçiləri olan ordu alqışa, hörmətə, sevgiyə layiq deyilmi?

Təəssüf ki, döyüşlər zamanı itki də qaçılmaz olur. Ordumuz bu döyüşlərdə şəhid verib. Xalqımız son dəfə öz yaşadıqları evlərə gətirilən şəhidlərimizi qarşılayıb, onları son mənzilə yola salıb.

Doğrudur, orduya dəstək yürüşü iştirakçılar Dağlıq Qarabağda erməni işğalçılarına qarşı müvafiq tədbir görülməsini tələb edirdi. Ali Baş Komandandan vuruşmaq üçün silah istəyirdi. Azərbaycan iqtidarına, Prezident İlham Əliyevə və orduya dəstəyini ifadə edirdi. Lakin təəssüflər olsun ki, son bir saat ərzində vəziyyət dəyişdi, bir qrup ifrat radikal müxalifətin hazırladığı təxribatçı Milli Məclisin binasına zorakılıqla girdi və bu anda polis müdaxilə etmək məcburiyyətində qaldı. Yekunda meydanda qalan azsaylı iştirakçılar Daxili Qoşunların əsgərləri tərəfindən oradan uzaqlaşdırıldı. Polis korrekt davranış nümayiş etdirdi.

### Fazil Mustafa: "Bu, xüsusi hazırlanmış qüvvələrin dövlətimiz əleyhinə planlı addımı idi"

"Bu Vətəni sevən, onun şəhidi üçün göz yaşı tökən, ordumuzun zəfəri üçün dua edən, dövlətimizin ayaqda qalmasını istəyən insanlar, vətəndaşlar! Bu gecə baş verənlər, 1992-ci ilin Xocalı hadisələrindən sonrakı ssenariyə bənzəyən bir durum idi. İnsanların Vətənə, onun şəhidinə sevgi hissələrini dövlətə qarşı yönəldə bildilər. Bu sıradan bir təxribat deyildi, xüsusi hazırlanmış qüvvələrin dövlətimiz əleyhinə planlı addımı idi. Bir azdan soyuqqanlı düşünəndə çoxunuz deyəcəksiniz ki, mən niyə bu addımlara alət oldum. Necə ki, 28 il geriyə baxanda o nəslin insanlarından biri kimi, biz də bunu deyirik. Xocalı emosiyasının ardından hakimiyyət boşluğunun yaranması nəticəsində Şuşa və Laçın getdi. İndi də ermənin təxribatı ilə paralel düşmən qarşısında sinəsini sipər edən əsgərlərimizə dəstək verməli olduğumuz halda, düşünülmüş şəkildə prosesləri Bakıya yönəldə bildilər. Şəhid üçün ehtiram, sevgi yürüşünü ali qanunvericilik orqanına daxil olub dağıntıya məruz qoymaqla tamamladılar". Bunu Azərbaycan Milli Məclisinin deputatı Fazil Mustafa deyib.

F.Mustafanın sözlərinə görə, bu o deməkdir ki, istənilən mobil provakator qüvvə səmimi niyyətli insanların hərəkətlərinə kölgə sala bilər: "Bu qüvvə inanın ki, ölkəmizin xaricindən idarə olunur. Gec deyil, bütün dövlətini sevən insanlar bu dövlətin zərər görməməsi üçün sağlam mövqe nümayiş etdirməlidir. Öz dövlətinin müstəqilliyinə həssas insanlar laqeydlik göstərsələr, müşahidəçi rolunda prosesləri izləməyə davam etsələr biz bu dəfə Azərbaycanı itirəcəyik və kimlərəsə arzuladığı hakimiyyət də qismət olmayacaq. Xüsusilə də sosial şəbəkələrdə çağırışlara diqqət etməliyik, vətəndaşları qanunlara əməl etməyə çağırmalıyıq. Son iki günün hadisələrindən sonra onsuz da virusun yayılması daha ciddi şəkil alacaq, kütləvi aksiyalarda maskasız və sosial məsafəsiz iştirak edənlərin bir-birinə xəstəliyi yoluxdurması qaçılmazdır. Ona görə də dövlətimizə erməni canilərinə qarşı və koronavirusa qarşı mübarizədən başqa cəbhə açmaq böyük milli faciəyə gətirib çıxara bilər. Bu hadisələr həm də onu göstərdi ki, ölkədə çox ciddi istisadi və sosial yönümlü islahatlar aparılmalıdır, insanların məşğulluq problemi formal statistikadan uzaqlaşaraq real zəmində həll edilməlidir. Yerində olmayan, səriştəsiz məmurlar təcili dəyişdirilməli, xalq üçün çalışmaq niyyəti olanlar iş başına gətirilməlidir. Yəni bu nöqtədən sonra küçələrdə heç bir məsələnin çözülməsinə dövlət və xalq olaraq imkan verməməliyik, pası vətəndaşların dəstəyinə dayanan islahatlara ötürməliyik".

Təəssüf ki, mitiqin-yürüşündən istifadə edən bir qrup təxribatçı ifrat radikalların qabaqcadan hazırlanmış planın həyata keçirmək üçün Milli Məclisin binasına hücum etdilər. Bəlli oldu ki, bu təxribatı törədənlər yenə də "erməni dəyirmanına su tökən" satqın iblisxislətdi Əli Kərimli kimilərdir. Əgər belə olmasaydı elə həmin anda so-



sial şəbəkələrdən çağırışlar etməzdilər.

### İblis xislətlilər yenə də öz əməllərində...

Elə həmin andan yenidən sosial şəbəkələrdən çağırışlar edən qeyrətsiz, əxalaqsız, satqın Əli Kərimli, Cəmil Həsənli, Sevinc Osmanqızı kimi satqınlar deyirlər "qanınız axıdılana qədər qeyrətiniz olsun irəli gedin, meydanları tərk etməyin, qoy görsünlər ki, Azərbaycanda söz azadlığı yoxdur". Doğurdan da, düşməni başqa yerdə axtarmaq lazım deyil. Təəccüblü deyil... Çünki satqın və istifadə olunanların anladıqları budur. Belə bir deyim var: "xəyanət ölümdən betər bir şeydir və bunu sadəcə anlamaq lazımdır". Lakin Əli Kərimli, Cəmil Həsənli, Gültəkin Hacıbəyli, Sevinc Osmanqızı və ...kimləri üçün isə, xəyanət etmək ən adi bir məsələdir. Və belələrindən bütün rəzillikləri, riyakarlıqları, ləyaqətsizlikləri gözləmək mümkündür. Və yenə də vurğulayıram ki, əslində, ortada təəccüblənəcək heç nə yoxdur. Hakimiyyətin uğurlarını "müxalifətin qələbəsi" kimi zorla xalqa sırımaq yalnız bu siyasi satqın və istifadə olunan Əli Kərimli, Cəmil Həsənli, Sevinc Osmaqızı... kimlərin canındadır, qanındadır. Elə bədəxtlik də bundadır.

### "Vətən", "millət" deyənlər bir geriyə baxsınlar

Amma onlar geriyə çevrilməkdən qorxurlar. Çünki geridə 1992-93-cü illərdə xalqa etdikləri zülm, yaratdıqları vətəndaş müharibəsi, xalqın əmlakını talan etmə faktları və digər günahları onların gözünə görünə bilər. 1992-1993-cü illərdə Azərbaycan prezidenti olmuş Əbülfəz Elçibəy: "RÜŞVƏT ALANDA MİLYONLARLA DOLLAR ALIRSINIZ. ALIRSAN, HEÇ OLMASA YÜZ MİNLƏRLƏ AL, BEŞ MANAT AL, İNSAFLA AL. Deyirlər, 200 min dollar verməlisən, yoxsa səni gömrükdən buraxmayacam, çünki sən 400 min dollar qazanacaqsan. Gəl qazancı yarı bölək...". Və bu gün sosial şəbəkələrdə Vətənini, torpağını satılıb-satan AXCP sədri Əli Kərimli, "Milli Şura" deyilən satqınlar yuvasına sədrlik edən, saçına, "başına" hörmət etməyən Cəmil Həsənli həyasızcasına AXC-Müsavatla bağlı dövlət başçısının dediyi real faktları özlərinə sərf edən formada "təhlil" edərək bu günkü uğurlara kölgə salmağa çalışırlar.

Və özünü "lider" adlandıran Əli Kərimli ən birinci cinayətkar və xəyanətkar deyilmi? Məşhur fransız ədibi Viktor Hüqo dediyi kimi: "Vətənini rüsvay etmək - ona xəyanət etmək deməkdir".

Bu gün Əli Kərimli, İsa Qəmbər, Arif Hacılı, Cəmil Həsənli, Gültəkin Hacıbəyli kimi satqınlar bugünkü vəziyyətdə süni səs-küy, böhtanlar yağdırmaqla xalq, millət sevgisi qanacaqlarına ümid edirlər. Ancaq anlamırlar ki, xalqın birə-on nifrətini qazanırlar. Çünki tarix unudlumur. Əgər sosial şəbəkə viruslarıı cinayəti demokratiya, əxlaqsızlığı şəxsi həyat, xəyanəti fəaliyyət azadlığı kimi təqdim etməyi "siyasi mübarizə" adlandıraraq özlərini "əsl müxalifətçi" hesab edirlərsə, o zaman susmaq haraya qədər? Belə bir məqamda susmaq yox...

### Eynulla Fətullayev: "Əli Kərimli quduz oğru itlərindən də pisdir"

Jurnalist Eynulla Fətullayev özünün facebook hesabında AXCP sədri və onun tərəfdarlarına həsr etdiyi statusda ilginc iddia ilə çıxış edərək bildirib ki, Əli Kərimli və digər murdar cəbhənin virusları oğru itlərdir: "Bu siyasi cinah öz murdar mahiyyətini ortaya qoyur. Məncə, günahkar Ayaz Mütəlibovdur. 1992-ci ildə bu nadan siyasi kütləni quduz itləri kimi güllələsəydi, Azərbaycan siyasətindən belə üfunət gəlməzdi... E.Fətullayev, həmçinin 14 iyul mitinqinin sonra AXCP sədri Ə.Kərimlinin sosial şəbəkələrdə ABŞ-da yaşayan xəyanətkar Sevinc Osmanqızının verilişindən xalqı iqtidarın deyil, müxalifətin mətbuat orqanlarını oxumağa çağırış etməsi, Əli Kərimlinin "hökumətin gözü arxada qalmasın, düşməni yerində oturtmaq üçün bütün resurslar səfərbər edilməlidir" deməsini əsl satqınçılıq, xəyanətkarlıq, riyakarlıq və nəhayət, həyasızlığın son həddi olduğunu deyib. 27 il ərzində dəyişməyən iyrənc alçaqları Azərbaycan siyasətindən, Azərbaycan məmləkətindən təmamilə silmək lazımdır! Bu murdar kütləyə tarixdə 2-ci şans verilməməlidir. Vəhşi siyasi qüvvəni hakimiyyətə buraxmaq olmaz!!! Soruşmaq lazımdır ay Əli Kərimli sən o küt , mənəviyyatı çirkabla dolu vicudunla danışmağa nə haqqın var?.

Bu yerdə ALP-nin keçmiş sədri Lalə Şövkətin dəfələrlə Əli Kərimlinin alçaq, çox əxlaqsız adlandırması ilə bağlı fikirləri yadıma düşdü: "Azərbaycan siyasətində Əli Kərimli kimi belə bir mənəviyyatsızlıq görməmişdim. Adam düşmən olanda gərək kişi kimi düşmən olsun. Əli Kərimlidən çox alçaq səviyyə düşmənçilik gördüm. Əslində, Əli Kərimlinin kimliyi haqqında çox yazılıb, çox deyilib. Ancaq "kişi" olmaq Əli Kərimliyə aid deyil".

KXCP-nin sədri Mirmahmud Fəttayev də Ə.Kərimliyə keçmişi xatırladaraq onun bu gün siyasi arenada hörməti olmayan və küncə sıxışdırılmış xəyanətkar və satqın olduğunu bildirib: "Bu gün Azərbaycan gerçəkliyində Əli Kərimli xəyanətkarlığı var, özü də saya gəlməz xəyanətləri...1995-ci il... Ə.Kərimli AXC-ni partiyaya çevirmək tapşırığını uğurla yerinə yetirdi və mandat sahibi oldu. 1996-cı il... AXCP daxilindəki "Yurd" funksiyası partiyanı tam özəlləşdirmək üçün fəal cəbhəçilərə, hərəkatçılara qarşı təzyiqlərə başladı, bir çox insanı cəbhədən uzaqlaşdırdı. 1997-ci il... Xaricdən aldığı maliyyə dəstəyi nəticəsində, Əli Kərimli media vasitəsilə Əbülfəz Elçibəyə zərbələr vurdu, 2005-ci il... Ə.Kərimlinin Ruslan Bəşirli olayı və çevriliş planı fiaskoya uğradı. 2008-ci il... Qənimət Zahidi qurban verib diqqəti özünə çəkən Əli Kərimli Sem dayısından pul almaq üçün planlar qurdu. Aqil Xəlil deyilən olayı da Əli Kərimlinin qurduğu iyrənc oyunlardan biri idi. Məlum oldu ki, Aqil Xəlili bıçaqlayan küçədən keçən şəxs deyil, məhz Əli Kərimlinin yaxından tanıdığı mavidir. Beləcə Əli Kərimlinin bu planı da suya düşdü. O, qazdığı quyuya özü düşdü. Ə.Kərimli həm də Ermənilərin dostudur. O, bu "fəxri damğa"nı böyük iftixarla daşıyır"..

### Təxribat törədənlər cəzalandırılmalıdır

Dünənki mitinq yürüşü də əllərinə düşən məqam idi ki, bundan yararlanmaq istədilər. Ancaq mümkün olmadı. Çünk güclü Azərbaycan dövlətinin öz qanunları var. Və Azərbaycan xalqı nə 90-cı illərin düşüncəsinə malikdir, nə də ötən illəri də unutmayıb. Və Azərbaycan xalqı artıq kimin kim olduğunu yaxşı xatırlayır. Bu gün Şuşanı erməniyə təslim edən Rəhim Qazıyev kimi satqın və Vətən xaininin təxribat xarakterli çağırışlarını xalq heç vaxt unutmayıb. Çünki onların heç birinin niyyəti əsgərə və orduya dəstək deyildi. Əksinə bu niyyətdən maksimum yararlanmaq idi. Və müharibə getdiyi bir zamanda belə addımlar atan təxribatçılara qarşı qanunun bütün tələblərindən istifadə edilməli və sərt qaydada cəzalandırılmalıdırlar. Bu gün Azərbaycan xalqı öz Ali Baş Komandanına, ordusunun gücünə tam inanır və heç bir təxribat bu inamı sarsıda bilməz.

Və bütün bunlardan sonra istər Əli Kərimli, İsa Qəmbər, Arif Hacılı, Cəmil Həsənli və bu kimi satqınların Azərbaycan xalqı adından danışmağa, ümumiyyətlə, bu ölkədə yaşamağa hüququ varmı...?!

Artıq, bu sualın da cavabını hüquq-mühafizə orqanları versələr daha yaxşı olardı. Çünki bu məsələ get-gedə daha çox qabarmaqdadır...

Və xalqımız əmin olsunlar ki, Vətənə və dövlətə qarşı xəyanət yolu tutan bu satqın və naqis xəyanətkarlar gec-tez öz layiqli cəzalarını alacaqlar. Ancaq polis maşınını çevirənlər, "allahu əkbər" deyib parlamentin binasına soxulanlar cəzalandırılmalıdır, həm də ən sərt şəkildə, birmənalı!

***Rəfiqə HÜSEYNOVA***

# Beynəlxalq hüquqa zidd olan münaqişə

***Münaqişəsinin beynəlxalq hüquqi aspektləri Ermənistanın ölkəmizə qarşı açıq-aşkar hərbi təcavüzü beynəlxalq hüquqa ziddir. BMT Təhlükəsizlik Şurası qarşısında təcavüzkar dövlətin məsuliyyəti məsələsini qoyur. Təcavüz anlayışının müddəalarının birində göstərilən faktın olması kifayət edir ki, Təhlükəsizlik Şurası təcavüzkara qarşı Nizamnamənin VI-VII fəsillərinə uyğun olaraq məcburiyyət tədbirləri görsün. 1989-cu ildə Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsinin Ermənistana birləşdirilməsi, yəni qonşu dövlətin ərazisinin bir hissəsinin ilhaq olunması haqqında qeyri-qanuni qərar qəbul etmiş və bu qərarın indi də qüvvədə qalması Ermənistanın ölkəmizə qarşı dövlət səviyyəsində ərazi iddiasında olmasına sübutdur. Ermənistan münaqişənin nizama salınması üçün aparılan danışıqlarda Dağlıq Qarabağın erməni icmasının tərəf kimi iştirakının təmin olunmasını istəyir.***

1990-cı ilin yanvarından Azərbaycana hərbi təcavüz başlayan Ermənistan döyüş silahları ilə təmin olunmuş Mİ-8 mülki vertolyotlarından istifadə edərək Dağlıq Qarabağın şimal sərhədlərinə yaxın Goranboy rayonunu kəndlərini atəşə tutdu.

Sovet imperiyasında baş verən ciddi böhrandan ermənilər istifadə etdilər.

- Ermənistan Dağlıq Qarabağ üzərində nəzarəti ələ almaq üçün ciddi fəaliyyətə başladı;
- 1991-ci il sentyabrın 2-də “Dağlıq Qarabağ Respublikası” deyilən qondarma qurum yaratdılar.
- Dağlıq Qarabağda 15 min nəfərlik erməni silahlı dəstələrindən ibarət “özünümüdafiə qüvvələri” yaradıldı.

Azərbaycan buna cavab olaraq onun muxtariyyətini ləğv edi.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ölkəmizin dünyaya inteqrasiyasının və ümumi inkişafının şərtlərini müəyyənləşdirəcək əsas faktor kimi çıxış edir. Respublikada həyata keçirilmiş islahatların uğurlu nəticələri dövlətçiliyin möhkəmləndirilməsinə, sabitliyin davamlı xarakter almasma, iqtisadi sahədə ciddi nailiyyətlərə gətirib çıxarmışdır. İndi Azərbaycanm beynəlxalq aləmdə böyük nüfuzu var, o, Cənubi Qafqazın ən mühüm ölkəsi kimi tanınmaqdadır. Ümummilli lider Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra ictimai həyatın bütün sferalarında tərəqqiyə stimul yaradan dəyişikliklərin baş verməsi Azərbaycanın beynəlxalq nüfuzuna da əhəmiyyətli dərəcədə təsir göstərmişdir. Bununla belə, əldə olunmuş uğurlarla yanaşı, hələ həllini gözləyən problemlər də mövcuddur. İctimai rəydə belə qənaət formalaşmışdır ki, bu problemlərin həllinə imkan yaradan iqtisadi və intellektual potensial var və Heydər Əliyev siyasi kursunun davam etməsi ölkənin gələcək rifahının ən etibarlı təminatçısıdır. Bu qənaət yalnız sosial-iqtisadi problemlərə münasibətdə özünü göstərmir, həm də Azərbaycanın hər bir vətəndaşını eyni dərəcədə narahat edən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair cəmiyyətin ümumi gözləntilərində də açıq-aydın nəzərə çarpır. Bu münaqişənin tarixi, müxtəlif inkişaf mərhələləri və həlli prosesində ortaya çıxan çətinliklər onun nə qədər mürəkkəb və ziddiyyətli bir xarakter daşıdığını açıq-aydın nümayiş etdirir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli indi regionun ən mühüm və prioritet məsələlərindən birinə çevrilib. Azərbaycan neçə ildir ki, bu problemin psixoloji və siyasi təsiri altmda yaşayır. Bir milyondan çox insan qaçqın düşüb, məcburi köçkünə çevrilib. Amma Qarabağ məsələsinin ağrılı nəticələri təkcə statistikada öz əksini tapmır. Bu, yalnız prosesin ümumi və görünən tərəfləridir. Məsələnin bir qədər dərinliyinə vardıqda, əslində, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin gerçək nəticələri daha ağır və [7-8] faciəlidir. Bu münaqişə Azərbaycan xalqı üçün Xocalı faciəsi deməkdir. Bu münaqişə hamının yaddaşında Şuşanın işğalı kimi ağrılı bir məğlubiyyətin acınacaqlı simptomlarını daşıyır. Bu münaqişənin mahiyyəti torpaqların itirilməsi faktından daha böyük bir anlayışı özündə ehtiva edir. Azərbaycan xalqının tarixin sınaqlarından çıxmış sarsılmaz iradəsi və əzmkarlığı, müvəqqəti də olsa, məhz bu münaqişə zamanı sındırıldı və onu bərpa etmək üçün çox böyük əzab və əziyyətlər çəkildi. Problemin ziddiyyətli və mürəkkəb xarakteri həm də ondan irəli gəlir ki, zaman keçdikcə onun aradan qaldırılmasını müəyyənləşdirən şərtlərin də mahiyyəti dəyişir. Yeni dövrün ədalət anlayışma heç bir dəxli olmayan reallıqları bizi daha çətin və çıxılmaz vəziyyətlərə sürükləyir.

Bütün bunlara baxmayaraq, Azərbaycanda Dağlıq Qarabağın hökmən azad olunacağına inananlar əksəriyyət təşkil edir. İndi münaqişənin həlli elə bir mərhələyə gəlib çatıb ki, burada beynəlxalq ictimaiyyətin mövqeyi kifayət qədər mühüm rol oynamaq imkanındadır. Ümummilli lider Heydər Əliyevin 1993-cü ildən sonra bu istiqamətdə apardığı siyasət məhz dünya ictimaiyyətini beynəlxalq hüquq normalarının tələb etdiyi ədalət müstəvisində birləşdirməyə yönəlmişdir. Ötən dövrdə sozügedən istiqamətdə bir çox mühüm addımlar atılıb - həm iqtisadi, həm də siyasi mənada. Azərbaycanın iqtisadi cəhətdən möhkəmlənməsi, dünyanın qüdrətli dövlətləri ilə etibarlı tərəfdaşlıq münasibətlərinin qurulması, ayrı-ayrı beynəlxalq təşkilatlarla aparılan uğurlu diplomatik iş nəticəsində bu gün Ermənistanın təcavüzkar olması faktı rəsmi və ya qeyri-rəsmi şəkildə etiraf edilməkdədir. Amma bütün bu nailiyyətlər “ikili standartlar” amilinin aradan qaldırılmasına, hələ ki, gətirib çıxara bilməyib. Azərbaycan sülhsevər siyasəti ilə Ermənistanın konstruktiv mövqe nümayiş etdirməyə heç vəchlə hazır olmadığını dəfələrlə sübuta yetirib. Bu siyasət davam edir və davam edəcəkdir. Çünki Azərbaycan torpaqlarının işğaldan azad edilməsinin şərtlərindən biri də məhz beynəlxalq ictimaiyyəti münaqişənin mahiyyəti ilə bağlı obyektiv şəkildə məlumatlandırmaqdan ibarətdir. Hətta bu gün çox aktual olan müharibə variantının reallaşacağı təqdirdə belə bu, Azərbaycana lazımdır. Çünki hərbi əməliyyatlara başlamazdan əvvəl atılacaq istənilən addımın ədalətli olduğuna dünyanı inandırmaq vacibdir. Planetimizin real güc mərkəzlərinin mövqeyini nəzərə almadan heç bir qəti tədbirə əl atmaq mümkün deyildir. Nə qədər ağrılı olsa da, bu, tarixi reallıqdır və onun diktə etdiyi şərtlərdən kənara çıxmaq olmaz.

2001-ci ildə Azərbaycan Respublikasının Milli Məclisində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ətrafında ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə geniş müzakirələr aparılmışdır. Həmin müzakirələr zamanı böyük öndərimiz geniş və məzmunlu nitq söyləyərək münaqişənin mahiyyəti barədə ətraflı təsəvvürlərin formalaşmasına xidmət edən məqamlara aydınlıq gətirdi: “Nə üçün belə oldu? Ona görə yox ki, Azərbaycan xalqı ermənilərdən gücsüzdür. Yox. Bizim çoxəsrlik tariximiz Azərbaycan xalqının nəyə qadir olduğunu nümayiş etdirir. Birincisi, ona görə ki, ermənilər, Ermənistan bu məsələyə uzun müddət hazırlıq görmüşdür. Amma Azərbaycanda bu məsələ unudulmuşdu. Həmin o illər unudulmuşdu. İkincisi, bu münaqişə başlayan zaman, yəni Ermənistanın torpaq iddiası meydana çıxandan sonra ermənilər hamısı - həm Ermənistanda, həm də dünyanın hər yerində yaşayan ermənilər bütün daxili ziddiyyətləri, münasibətləri unutdular, hamısı birləşdi. Hamısı “miatsum” ideyası ətrafında birləşdi və gücünü bir yerə yığıb bizi bugünkü günə gətirdi. Onlardan fərqli olaraq, Azərbaycanda bu hadisə başlayan zaman xalqımız birləşə bilmədi, xalqa rəhbərlik edən adamlar səbatsızlıq etdi və bir-iki ildən sonra artıq Dağlıq Qarabağ məsələsi unuduldu.

Azərbaycanda daxili çəkişmələr, vuruşmalar, hakimiyyət mübarizəsi başladı. Ona görə də belə bir vəziyyətdə ermənilər asanlıqla Azərbaycan torpaqlarını işğal etdilər”.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi Cənubi Qafqazın həyatında mühüm problem kimi hələ də öz aktuallığını saxlamaqdadır. Əslində bu, tamamilə təbiidir. Regionda baş verən mühüm dəyişikliklər fonunda münaqişə ocaqlarının söndürülməmiş qalması ümumi situasiyaya mənfi təsir göstərməklə yanaşı, həm də burada maraqları olan dövlətlərin münasibətlərində həlledici faktor rolunu oynayır.

Məsələ artıq bir neçə ildir regional müstəvidən çıxaraq beynəlxalq əhəmiyyət kəsb etməyə başlayıb. Amma hələ də prosesə real təsir imkanlarına malik qüvvələr (söhbət həm nüfuzlu beynəlxalq təşkilatlardan, həm də ayrı-ayrı dövlətlərdən gedir) problemin birdəfəlik həllinə nail olmaq üçün konkret təzyiq mexanizmlərindən istifadə etmək istəmirlər. Əlbəttə, burada müxtəlif faktorların təsirini nəzərə almaq vacibdir, amma istənilən halda münaqişə həll edilməlidir və bunun yalnız bir yolu var: beynəlxalq hüquq normaları.

Yuxarıda sadaladığımız faktlar münaqişənin Azərbaycanın milli mənafelərini təmin edən prinsiplər əsasında həllinə istiqamətlənmiş konseptual fəaliyyət prosesinin ayrı-ayrı detallarıdır. 1993-cü ildə Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra Azərbaycanda çox şey dəyişib, o cümlədən Ermənistanın təcavüzkarlıq aktının aradan qaldırılması sahəsində də. AXC-Müsavat iqtidarı dövründə yerləşdiyi coğrafi regionda belə öz iradəsini nümayiş etdirmək imkanına malik olmayan Azərbaycan Heydər Əliyevin hakimiyyəti dövründə dünyanın ən qüdrətli dövlətlərinin strateji tərəfdaşına çevrilib.

**Vahid Ömərov, f.ü.f.d. dosent**

Azərbaycan Respublikasının
Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin
İnkişafına
Dövlət Dəstəyi Fondu

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə “İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması” istiqaməti çərçivəsində hazırlanıb.*

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

17 iyul

Son səhifə


## Cinayət törətməkdə şübhəli bilinən 13 nəfər saxlanılıb




***Ötən gün ərzində törədilmiş 20 cinayətin üstü respublikanın daxili işlər orqanları tərəfindən "isti izlər"lə açılıb. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, axtarışda olduğuna görə ümumilikdə 33 nəfər, o cümlədən borclu şəxs qismində axtarılan 22 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilib.***

Respublikanın avtomobil yollarında baş vermiş bir ağır yol-nəqliyyat hadisəsi nəticəsində bir nəfər ölüb. Daxili işlər orqanları əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli yeddi fakt müəyyənləşdirilib. Cinayət törətməkdə şübhəli bilinən 13 nəfər saxlanılıb.

## Ronaldo ən pis oyunçu seçildi



*La Gazzetta dello Sport" nəşrinin versiyasına əsasən, "Yuventus"un futbolçusu Kriştiano Ronaldo A seriyasında 33-cü turunda "Sassuolo" ilə oyununun (3:3) ən pis oyunçusu seçilib. Qol.az xəbər verir ki, portuqaliyalı hücumçu meydanda olan futbolçular arasında ən aşağı qiyməti alıb - 5.*

35 yaşlı oyunçu 90 dəqiqə meydanda olub və fərqlənə bilməyib. Qeyd edək ki, Ronaldo 2019-cu ilin 10 noyabrından sonra ilk dəfə A seriyası oyununda qol vurmayıb və ya qol ötürməsi verməyib.

## Pirlo "Yuventus"un baş məşqçisi olacaq



Futbol üzrə İtaliya milli komandasının sabiq yarımmüdafiəçisi Andrea Pirlo "Yuventus"un U-23 komandasının baş məşqçisi olacaq. "Sky Sport" nəşrinin jurnalisti Canluka Di Marsio məlumat verib ki, Turin klubu 41 yaşlı sabiq yarımmüdafiəçi ilə müqavilənin şərtləri barədə razılığa gəlib.

## Bitki çaylarının qəbul edilməsi təsirli vasitədir



Dünyada ən çox sevilən içkilərdən biri çay sayılır. Xüsusən də insan orqanizmi üçün faydalı olan bitki çayları əvəzolunmazdır. Bitki çaylarının qəbulu sağlamlığın qorunmasında, çəki atmaq, immunitet sisteminin gücləndirilməsi və bəzi xəstəliklərin müalicəsində istifadə edilən ən mühüm alternativ tibb üsullarından biridir. Ona görə də hansı bitki çayının nəyə yaxşı təsir etdiyini və hazırlanma qaydasını bilmək də vacibdir.

Həkim-fitoterapevt Elnur Eldaroğlu AZƏRTAC-a deyib: "Bitki çaylarını dəmləyərkən onun temperaturu 70-80 dərəcədən çox olmamalıdır, çünki daha yüksək temperaturda dəmləyəndə təsiri bir qədər zəifləyir. Elə çay ola bilər ki, allergiyaya, mədə-bağırsaq sisteminin işinin pozulmasına səbəb olsun, ona görə də bunları nəzərə almaq lazımdır. Bitki çayları ilə müalicə iki aya qədər davam edə bilər".

Bitki çayları tərkibindəki efir yağları, antioksidantlar və digər birləşmələrə görə sağlamlıq üçün faydalı hesab olunur. Həkim-fitoterapevtin dediyinə görə, qida qəbulundan sonra həzm narahatlığı olduqda nanənin limonlu çaya qarışdırıb içilməsi ən yaxşı yardımçı vasitədir. Qara çaya razyana qatılıb içilməsi köp problemini aradan qaldırır. Qara çaya bir çubuq darçın əlavə edilməsi insulin çatışmazlığı zamanı faydalı təsir göstərir. Darçın şəkərə olan tələbatı və insulin çatışmazlığını aradan qaldırır.

Bitki çaylarını mütəmadi olaraq həddindən artıq istifadə etdikdə sağlamlığa ciddi ziyan verə bilər. Mütəxəssislər hesab edirlər ki, bitki çaylarını istifadə etməzdən əvvəl onların tərkibi haqqında məlumatlı olmaq lazımdır.

Həkim-fitoterapevt deyib: "Yuxarı tənəffüs yollarının problemi ilə üzləşəndə cökə çayından istifadə etmək olar, bal və limon əlavə edilmiş itburnu çayı da təsirli vasitədir. Sarıkök və zəncəfil çayı içilməsi də mikrobları məhv edir, iltihabı prosesin qarşısını alır". Vitamin və minerallarla zəngin olan bitki çayları bədənin bir çox tələbatını ödəyir və bəzi fizioloji problemləri həll edir.



## Messi "Barselona"dan gedir?- Suares açıqladı

*"Barselona"nın hücumçusu Luis Suares Lionel Messinin klubdan gedəcəyi barədə xəbərlərə münasibət bildirib. Qol.az-ın xəbərinə görə, o, "Daily Mail" nəşrinə müsahibəsində bildirib ki, argentinalının başqa komandada oynamasında məna görmür:*

"Leo özünün və ailəsinin rahatlığına əsaslanaraq qərar verəcək. Messinin dostu kimi həmişə məsləhət görərdim ki, onun üçün harada yaxşıdırsa, orada da oynasın. Hesab edirəm ki, özü də, ailəsi də Barselonada xoşbəxtdirlər. Deməli, o, komandada çıxışını davam etdirməlidir. Yox, əgər Messiyə dəyişiklik lazımdırsa, o, daha yaxşı qərar verə biləcək".

## Saatlıda evdən 4800 manatlıq oğurluq edildi



Oğurluqda şübhəli bilinən İmişli rayon sakini S.Bəyalıyev və Lənkəran rayon sakini S.Cəfərov saxlanılıblar. Daxili İşlər Nazirliyindən SİA-ya verilən xəbərə görə, Saatlı RPŞ əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində ötən il noyabrın 17-də Qırağlı kəndindəki evlərin birindən 4800 manat pul oğurlamaqda şübhəli bilinən əvvəllər məhkum olunmuşlar, İmişli rayon sakini S.Bəyalıyev və Lənkəran rayon sakini S.Cəfərov saxlanılıblar.

## Ismayıllıda avtomobil aşdı, ölən və yaralı var



İsmayıllı rayonunun Kürdmaşı kəndi ərazisində yol-nəqliyyat hadisəsi baş verib. Daxili İşlər Nazirliyindən SİA-ya verilən xəbərə görə, iyulun 15-də saat 14 radələrində İsmayıllı rayonunun Kürdmaşı kəndi ərazisində kənd sakini H.Əkbərov idarə etdiyi "VAZ-21063" markalı avtomobili aşırıb. Nəticədə avtomobildəki sərnişin Xanımqız Tarverdiyeva hadisə yerində ölüb. İsmayıllı RPŞ tərəfindən araşdırma aparılır.


*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**



**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**



Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.



**Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.**
**"Azərbaycan" nəşriyyatında çap olunur**
***Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.***

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**